AZƏRBAYCANIN BÜTÖVLÜYÜ, MÜSTƏQİLLİYİ VƏ TƏRƏQQİSİ

# RESPUBLİKA

TƏSİSÇİ: AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN İŞLƏR İDARƏSİ VƏ QƏZETİN REDAKSİYA HEYƏTİ

7 OKTYABR 2018-ci il BAZAR № 224 (6257) GÜNDƏLİK İCTİMAİ-SİYASİ, SOSİAL-İQTİSADİ QƏZET WWW.RESPUBLICA-NEWS.AZ

## "Azərbaycan Respublikası Hökuməti və Rumıniya Hökuməti arasında ticarət-iqtisadi əlaqələr və elmi-texniki əməkdaşlıq üzrə Müştərək Komissiyanın Azərbaycan Respublikası tərəfindən yeni tərkibinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2008-ci il 23 may tarixli 2834 nömrəli Sərəncamında dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

**1.** "Azərbaycan Respublikası Hökuməti və Rumıniya Hökuməti arasında ticarət-iqtisadi əlaqələr və elmi-texniki əməkdaşlıq üzrə Müştərək Komissiyanın Azərbaycan Respublikası tərəfindən yeni tərkibinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2008-ci il 23 may tarixli 2834 nömrəli Sərəncamının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2008, N 5, maddə 423; 2010, N 2, maddə 80; 2012, N 2, maddə 119, N 12, maddə 1294; 2014, N 2, maddə 112, N 5, maddə 477; 2016, N 8, maddə 1384, N 9, maddə 1518) 1-ci hissəsi ilə yaradılmış Komissiyanın tərkibi aşağıdakı redaksiyada verilsin:

**"Komissiyanın həmsədri**

Azərbaycan Respublikasının əmək və əhalinin sosial müdafiəsi naziri

**Komissiyanın üzvləri**

Azərbaycan Respublikası xarici işlər nazirinin müavini

Azərbaycan Respublikası iqtisadiyyat nazirinin müavini

Azərbaycan Respublikası energetika nazirinin müavini

Azərbaycan Respublikası mədəniyyət nazirinin müavini

Azərbaycan Respublikası nəqliyyat, rabitə və yüksək texnologiyalar nazirinin müavini

Azərbaycan Respublikası kənd təsərrüfatı nazirinin müavini

Azərbaycan Respublikası təhsil nazirinin müavini

Azərbaycan Respublikası səhiyyə nazirinin müavini

Azərbaycan Respublikası Dövlət Turizm Agentliyinin sədri

Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin vitse-prezidenti

Azərbaycan Respublikası Mərkəzi Bankı sədrinin müavini

Azərbaycan Respublikasının Rumıniyada fövqəladə və səlahiyyətli səfiri.".

**2.** Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi bu Sərəncamın 1-ci hissəsi ilə edilən dəyişiklik barədə Rumıniya tərəfinə bildiriş göndərsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**

**Bakı şəhəri, 6 oktyabr 2018-ci il.**

## Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi ilə Tacikistan Respublikasının İqtisadi İnkişaf və Ticarət Nazirliyi arasında əməkdaşlıq haqqında Sazişin təsdiq edilməsi barədə

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 17-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

**1.** Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi ilə Tacikistan Respublikasının İqtisadi İnkişaf və Ticarət Nazirliyi arasında əməkdaşlıq haqqında 2018-ci il avqustun 10-da Bakı şəhərində imzalanmış Saziş təsdiq edilsin.

**2.** Bu Fərmanın 1-ci hissəsində göstərilən Saziş qüvvəyə mindikdən sonra Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi onun müddəalarının həyata keçirilməsini təmin etsin.

**3.** Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi Sazişin qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirildiyi barədə Tacikistan Respublikası Hökumətinə bildiriş göndərsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**

**Bakı şəhəri, 4 oktyabr 2018-ci il.**

## Azərbaycan Respublikası Hökuməti ilə Tacikistan Respublikası Hökuməti arasında sənaye və yeni texnologiyalar sahəsində əməkdaşlıq haqqında Sazişin təsdiq edilməsi barədə

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 17-ci bəndini rəhbər tutaraq qərara alıram:

1. Azərbaycan Respublikası Hökuməti ilə Tacikistan Respublikası Hökuməti arasında sənaye və yeni texnologiyalar sahəsində əməkdaşlıq haqqında 2018-ci il avqustun 10-da Bakı şəhərində imzalanmış Saziş təsdiq edilsin.

2. Bu Fərmanın 1-ci hissəsində göstərilən Saziş qüvvəyə mindikdən sonra Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi onun müddəalarının həyata keçirilməsini təmin etsin.

3. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi Sazişin qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirildiyi barədə Tacikistan Respublikası Hökumətinə bildiriş göndərsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**

**Bakı şəhəri, 4 oktyabr 2018-ci il.**

## Azərbaycan Respublikasının Təhsil Nazirliyi ilə Tacikistan Respublikasının Təhsil və Elm Nazirliyi arasında illik təhsil kvotalarının qarşılıqlı ayrılması haqqında Protokolun təsdiq edilməsi barədə

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 17-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

**1.** Azərbaycan Respublikasının Təhsil Nazirliyi ilə Tacikistan Respublikasının Təhsil və Elm Nazirliyi arasında illik təhsil kvotalarının qarşılıqlı ayrılması haqqında 2018-ci il avqustun 10-da Bakı şəhərində imzalanmış Protokol təsdiq edilsin.

**2.** Bu Fərmanın 1-ci hissəsində göstərilən Protokol qüvvəyə mindikdən sonra Azərbaycan Respublikasının Təhsil Nazirliyi onun müddəalarının həyata keçirilməsini təmin etsin.

**3.** Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi Protokolun qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirildiyi barədə Tacikistan Respublikası Hökumətinə bildiriş göndərsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**

**Bakı şəhəri, 4 oktyabr 2018-ci il.**

## "İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 1998-ci il 19 iyun tarixli 729 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, "Telekommunikasiya haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının 2017-ci il 1 dekabr tarixli 900-VQD nömrəli Qanununun tətbiqi ilə əlaqədar **qərara alıram:**

"İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 1998-ci il 19 iyun tarixli 729 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1998, N 6, maddə 390, 2017-ci il, N 3, maddə 373) 2-ci hissəsində aşağıdakı dəyişikliklər edilsin:

**1.** 2.2-ci bənddə "dördüncü hissəsində" sözlərindən sonra ", 13-1.3-cü maddəsində" sözləri əlavə edilsin.

**2.** 2.3-cü bənddən "13-1.3-cü," sözləri çıxarılsın.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**

**Bakı şəhəri, 4 oktyabr 2018-ci il.**

## "Azərbaycan Respublikasına gələn əcnəbilərə və vətəndaşlığı olmayan şəxslərə vizaların rəsmiləşdirilməsi ilə bağlı bəzi məsələlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2010-cu il 13 sentyabr tarixli 326 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, "Azərbaycan Respublikasının beynəlxalq hava limanlarında əcnəbilərə və vətəndaşlığı olmayan şəxslərə viza verilməsi prosedurunun təkmilləşdirilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 31 yanvar tarixli 1803 nömrəli Fərmanının icrası ilə əlaqədar **qərara alıram:**

"Azərbaycan Respublikasına gələn əcnəbilərə və vətəndaşlığı olmayan şəxslərə vizaların rəsmiləşdirilməsi ilə bağlı bəzi məsələlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2010-cu il 13 sentyabr tarixli 326 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2010, N 9, maddə 774, N 10, maddələr 855, 859; 2011, N 2, maddə 80; 2018, N 1, maddə 58) aşağıdakı dəyişikliklər edilsin:

**1.** 2.2-ci bəndə "rəisinin" sözündən sonra ", Azərbaycan Respublikası xarici işlər nazirinin" sözləri əlavə edilsin;

**2.** 5.2-ci bənd ləğv edilsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**

**Bakı şəhəri, 4 oktyabr 2018-ci il.**

# Düşünülmüş siyasətlə həyata keçirilən kompleks islahatlar makroiqtisadi sabitliyi möhkəmləndirir

**Müasir dünyamızda qlobal iqtisadi təhdidlər və böhran şəraitində yeni iqtisadi proses tələb olunur. Azərbycanda çağırışlara uyğun həyata keçirilən rasional makroiqtisadi siyasət, aparılan köklü islahatlar, görülən sistemli tədbirlər qlobal və regional risklərin neytrallaşdırılmasına imkan yaradıb, nəticədə iqtisadiyyatın dayanıqlığı təmin edilib, inkişafın dinamizmi qorunub. Vurğulamaq lazımdır ki, prioritet olan iqtisadi sahələrə dair yol xəritələrinin reallaşması üçün təbii ki, valyuta ehtiyatlarımız, maliyyə risklərinin qabaqlayıcı rejimdə idarə edilməsi də əhəmiyyətli rol oynayıb.**

**Davamlı aparılan kompleks islahatların həyata keçirilməsi sayəsində makroiqtisadi sabitlik möhkəmləndirilmişdir. Ölkədə biznes və investisiya mühitinin daha da yaxşılaşdırılması üçün hüquqi-siyasi tədbirlər davamlı surətdə görülür. İqtisadiyyatın şaxələndirilməsi nəticəsində regionların və sahibkarlığın inkişafı sürətlənmiş, yekunda qeyri-neft sektoru məhsullarının ixracı daim artır.**

Son illərdə aparılan genişmiqyaslı iqtisadi islahatlar inkişafın dinamizminə güclü müsbət impuls verib, bu ilin birinci yarısında ümumi daxili məhsul 1,3 faiz, qeyri-neft sektoru 2 faiz artıb, inflyasiya birrəqəmli olmaqla 3 faiz təşkil edib. Vurğulamaq lazımdır ki, iqtisadiyyatın şaxələndirilməsi sayəsində qeyri-neft sənayesində də davamlı inkişaf və məhsul istehsalının artımı təmin edilmiş, əldə edilən yekunlar çox uğurlu olmuşdur. Yeni təsərrüfat sahələrinin yaradılması, dünya bazarlarının tələbinə uyğun məhsul istehsalı və müvəffəqiyyətlə realizə edilməsi sayəsində ötən altı ayda dövlət büdcəsinin gəlirləri 9,8 milyard manat olmuşdur. Ən diqqətçəkən odur ki, qeyri-neft sektoru üzrə dövlət büdcəsinə 4,1 milyard manat vəsait daxil olub ki, bu mədaxil 2017-ci ilin eyni dövrü ilə müqayisədə 275 milyon manat və ya 7,3 faiz çoxdur. Göründüyü kimi, qeyri-neft sektorunun inkişafının prioritet elan edilməsi öz müsbət nəticələrini verir. Ümumiyyətlə, ölkəmizin iqtisadi inkişafı dünyanın bir çox ölkələri üçün nümunə ola biləcək səviyyədədir. Hər gənc dövlətə nəsib olmayacaq bir önəmli hadisə də Azərbaycanın kosmosa üçüncü süni peyk çıxarması və kosmik sənayesi inkişaf edən ölkələr sırasına inamla daxil olmasıdır. Bundan başqa artıq bir neçə aydır bu peykləri ölkəmizin mütəxəssisləri idarə edir. Müasir dünyada informasiya-kommunikasiya texnologiyalarının inkişafı ölkələrin tərəqqisinin sürətini, onun qüdrətini, intellektual potensialını müəyyən edir. İnsan kapitalını daim zənginləşdirmək yolunu tutmuş dövlət rəhbərliyinin bu istiqamətdəki siyasəti mühüm pozitiv nəticələr verməkdədir. İKT-nin inkişafı iqtisadiyyatın innovativ tərəqqisinə geniş imkanlar açır. Bu ilin altı ayında qazanılan mühüm nailiyyətlər də bunu təsdiq edir. Azərbaycan Prezidenti İlham Əliyev qlobal böhran illərində belə ölkəmizin inkişafa nail olduğu barədə vurğulayıb: "Son 15 ilin göstəriciləri bunu əyani sübut edir. İqtisadi baxımdan 15 il ərzində Azərbaycan qədər inkişaf edən ikinci dövlət yoxdur. Hətta böhranlı illərdə də biz öz iqtisadi gücümüzü qoruya bilmişik. Deyə bilərəm ki, biz böhrandan az itkilərlə çıxa bilmişik. Bu ilin göstəriciləri isə onu deyir ki, əvvəlki illərdə apardığımız islahatlar və bu il aparılan islahatlar gözəl nəticələr verir. Mən bəzi rəqəmləri Azərbay-




can ictimaiyyətinə çatdırmaq istərdim. Beləliklə, altı ay ərzində ümumi daxili məhsul 1,3 faiz artmışdır. Hesab edirəm ki, bu, yaxşı göstəricidir. Ondan daha yaxşı göstərici odur ki, qeyri-neft sektorumuz 2 faiz artmışdır. Sənaye istehsalı 1 faiz artsa da, bu da məqbul rəqəmdir. Qeyri-neft sənayemiz 8,8 faiz artmışdır. Bu, onu göstərir ki, qeyri-neft sektoruna qoyulan investisiyalar, sahibkarlara göstərilən dəstək öz bəhrəsini verir. Kənd təsərrüfatı 7,6 faiz artmışdır".

Aparılan məqsədyönlü siyasət nəticəsində iqtisadiyyatda çoxşaxəlilik təmin olunub və bu proses getdikcə daha yüksək mərhələyə qalxır. Tətbiq olunan iqtisadi modeldə dünyada gedən makro və mikroiqtisadi proseslərin inkişaf meyilləri, onun mahiyyəti, ölkənin iqtisadi potensialı və dünya bazarlarının təklif və tələbatının daim nəzərə alınması, ən mühüm elmi-texniki yeniliklərin izlənərək ölkəyə gətirilməsi və effektli istifadəsi davamlı inkişafda mühüm şərtlərdəndir. Bu prosesdə, daha doğrusu dünya iqtisadiyyatına inteqrasiyada ümummilli məqsəd və mənafelər ön mövqedədir. Buna görə də öz müstəqilliyini bərpa etmiş, yeni bazar iqtisadiyyatına keçmiş ölkəmiz, həm də qısa müddətdə öz iqtisadiyyatının çoxşaxəliliyinə nail olmuşdur.

İqtisadiyyatın rəqabətqabiliyyətliliyini və dayanıqlığını təmin etmək üçün əsas kapitala yönəltmələr mühüm əhəmiyyət kəsb edir. Bu günədək iqtisadiyyatın və sosial sahələrin inkişafına ümumən 250 milyard dollar kapital qoyuluşu olmuşdur, bu ilin altı ayında isə bütün maliyyə mənbələri hesabına 6,3 milyard manat iqtisadiyyata investisiya yönəldilib.

**(davamı 2-ci səhifədə)**

# Xronika

## ÖTƏN GÜNLƏRİN TARİXİ ANLARI



*2018-ci il aprelin 11-də keçirilmiş Prezident seçkilərində xalqın böyük istəyi və seçimi ilə möhtərəm İlham Heydər oğlu Əliyev azad, ədalətli, şəffaf və demokratik şəraitdə yenidən Azərbaycan Respublikasının Prezidenti seçildi.*

*Prezidentin Azərbaycana, xalqa sədaqət andı içdiyi uğurlu gündən başlayaraq onun gərgin iş günü tükənməz enerji ilə, çoxcəhətli ictimai-siyasi fəaliyyətlə davam edir.*

*Böyük şəxsiyyət, ümummilli lider Heydər Əliyevin siyasi kursunu, onun keçdiyi şərəfli yolu ləyaqətlə davam etdirən möhtərəm İlham Əliyev hər bir Azərbaycan vətəndaşının prezidentidir. Ölkəmizin həyatında yeni mərhələnin reallaşması onun yorulmaz fəaliyyəti, dərin zəkası, uzaqgörənliyi ilə sıx bağlıdır.*

*İlham Əliyevin gündəlik gərgin əməli fəaliyyəti sayəsində ölkəmizin ictimai-iqtisadi və sosial həyatının misli görünməmiş yüksəlişi bütün dünya ictimaiyyətinin də diqqət mərkəzindədir. Bu gün Azərbaycan böyük yüksəliş yolundadır.*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2018-ci il aprel ayının 18-dən başlayan gündəlik fəaliyyəti, səfərləri, görüşləri, çıxışları, nitqləri, məruzələri, müsahibələri və qəbulları ardıcıllıqla yada salınacaq, oxucuların nəzərinə çatdırılacaqdır. Burada həmin "Xronika–ötən günlərin tarixi anları" təqdim olunur.*

**"Respublika".**

Xronika Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin Prezident Kitabxanasının "Azərbaycan Respublikasının Prezidenti: Gündəlik fəaliyyətin xronikası" adlı elektron biblioqrafik göstəricisinin materialları əsasında hazırlanmışdır.

*(əvvəli 20, 21, 25 aprel, 2, 13, 20, 31 may, 8, 24, 30 iyun, 18, 25, 29 iyul, 1, 30 avqust, 1, 2, 4 sentyabr, 3, 4, 5 və 6 oktyabr tarixli saylarımızda)*

### 18 sentyabr 2018-ci il

○ **Prezident İlham Əliyevin Masallı və Biləsuvar rayonlarına səfəri:** Biləsuvarda Gənclər Evi açılıb: Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev açılışda iştirak edib.

### 19 sentyabr 2018-ci il

○ **Azərbaycan Prezidenti İlham Əliyev Avstriyanın vitse-kanslerinin rəhbərlik etdiyi nümayəndə heyətini qəbul edib:** Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 19-da Avstriya Respublikasının vitse-kansleri Haynts-Kristian Ştraxenin rəhbərlik etdiyi nümayəndə heyətini qəbul edib.



○ **Mali Respublikasının Prezidenti Zati-aliləri cənab İbrahim Bubakar Keytaya:** Mali Respublikasının milli bayramı - Müstəqillik Günü münasibətilə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin təbriki.

### 20 sentyabr 2018-ci il

○ **Prezident İlham Əliyev bir sıra ölkələrin parlament rəhbərlərini qəbul edib.**

○ **Prezident İlham Əliyev NATO baş katibinin müavininin rəhbərlik etdiyi nümayəndə heyətini qəbul edib.**

○ **İki Müqəddəs Ocağın Xadimi, Səudiyyə Ərəbistanının Kralı Əlahəzrət Salman bin Əbdüləziz Al Səuda:** Səudiyyə Ərəbistanının milli bayramı - Krallıq elan edilməsi günü münasibətilə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin təbriki.

○ **Səudiyyə Ərəbistanı Krallığının Vəliəhdi, Baş nazirin müavini, müdafiə naziri Əlahəzrət Məhəmməd bin Salman bin Əbdüləziz Al Səuda:** Səudiyyə Ərəbistanının milli bayramı - Krallıq elan edilməsi günü münasibətilə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin təbriki.

### 21 sentyabr 2018-ci il

○ **Milli Məclisdə Azərbaycan parlamentinin 100 illiyi münasibətilə təntənəli iclas keçirilib:** Prezident İlham Əliyev iclasda iştirak edib: Prezident İlham Əliyevin nitqi.

○ **Bakıda cüdo üzrə dünya çempionatının təntənəli açılış mərasimi keçirilib:** Azərbaycan Prezidenti İlham Əliyev mərasimdə iştirak edib.




○ **Azərbaycan Prezidenti İlham Əliyev Türkiyə Böyük Millət Məclisinin sədri ilə görüşüb.**

○ **Prezident İlham Əliyev Beynəlxalq Cüdo Federasiyasının prezidenti ilə görüşüb.**

### 22 sentyabr 2018-ci il

○ **İran İslam Respublikasının Prezidenti Zati-aliləri cənab Həsən Ruhaniyə:** İran İslam Respublikasında törədilmiş terror aktı nəticəsində insanların həlak olması və yaralanmasına görə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin başsağlığı.

○ **Azərbaycan cüdo üzrə dünya çempionatında ilk medalını qazanıb:** Prezident İlham Əliyev Milli Gimnastika Arenasında yarışları izləyib.

○ **Vyetnam Kommunist Partiyasının Baş katibi Zati-aliləri cənab Nquyen Fu Çonqa:** Vyetnam Sosialist Respublikasının Prezidenti, görkəmli dövlət xadimi Çan Day Kuanqın vəfatı ilə əlaqədar Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin başsağlığı.

*(davamı növbəti saylarımızda)*

## Azərbaycan Respublikasının Əmlak Məsələləri Dövlət Komitəsi ilə Avstriya Respublikasının Metrologiya və Mərzçəkmə Federal Qurumu arasında daşınmaz əmlakın kadastrı və coğrafi məlumat sistemi sahəsində əməkdaşlığa dair Anlaşma Memorandumunun təsdiq edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 17-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

**1.** Azərbaycan Respublikasının Əmlak Məsələləri Dövlət Komitəsi ilə Avstriya Respublikasının Metrologiya və Mərzçəkmə Federal Qurumu arasında daşınmaz əmlakın kadastrı və coğrafi məlumat sistemi sahəsində əməkdaşlığa dair 2018-ci il iyulun 6-da Vyana şəhərində imzalanmış Anlaşma Memorandumu təsdiq edilsin.

**2.** Bu Fərmanın 1-ci hissəsində göstərilən Anlaşma Memorandumu qüvvəyə mindikdən sonra Azərbaycan Respublikasının Əmlak Məsələləri Dövlət Komitəsi onun müddəalarının həyata keçirilməsini təmin etsin.

**3.** Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi Anlaşma Memorandumunun qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirildiyi barədə Avstriya Respublikası Hökumətinə bildiriş göndərsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**

**Bakı şəhəri, 4 oktyabr 2018-ci il.**

## Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 25 may tarixli 413 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi haqqında Əsasnamə"də dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, "Tütün məmulatlarının istifadəsinin məhdudlaşdırılması haqqında" Azərbaycan Respublikasının 2017-ci il 1 dekabr tarixli 887-VQ nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 29 dekabr tarixli 1774 nömrəli Fərmanında dəyişikliklər edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 5 iyul tarixli 161 nömrəli Fərmanına uyğun olaraq **qərara alıram:**

Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 25 may tarixli 413 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006, N 5, maddə 411, N 8, maddə 680; 2007, N 6, maddə 602, N 8, maddə 770, N 10, maddə 947; 2008, N 7, maddə 612, N 11, maddələr 967, 970; 2009, N 10, maddə 779, N 12, maddə 983; 2010, N 2, maddə 83; 2011, N 2, maddə 85; 2012, N 7, maddə 688, N 9, maddə 855; 2013, N 2, maddə 114, N 6, maddə 651, N 9, maddələr 1060, 1061; 2016, N 3, maddə 436; 2017, N 10, maddə 1781; 2018, N 2, maddə 217, N 5, maddə 932) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi haqqında Əsasnamə"yə aşağıdakı məzmunda 8.10-3-cü bənd əlavə edilsin:

"8.10-3. tütündən istifadənin nəticələrindən qorunma sahəsində dövlət siyasətini və dövlət nəzarətini həyata keçirmək;".

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**

**Bakı şəhəri, 4 oktyabr 2018-ci il.**

## "Azərbaycan Respublikasında turizmin inkişaf etdirilməsi ilə bağlı bir sıra tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 27 dekabr tarixli 1179 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Turizm Şurasının tərkibi"ndə dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, "Ü.R.Mehdiyevin Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin sədri təyin edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 27 aprel tarixli 28 nömrəli Sərəncamına uyğun olaraq **qərara alıram:**

"Azərbaycan Respublikasında turizmin inkişaf etdirilməsi ilə bağlı bir sıra tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 27 dekabr tarixli 1179 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, N 12, maddə 2097; 2018, N 6, maddə 1229; Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 6 iyul tarixli 176 nömrəli Fərmanı) ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Turizm Şurasının tərkibi"ndə "İnam Kərimov" sözləri "Ülvi Mehdiyev" sözləri ilə əvəz edilsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**

**Bakı şəhəri, 12 sentyabr 2018-ci il.**

## "Hərbi kadrlar hazırlayan təhsil müəssisələri kursantlarının müavinətlərinin artırılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 29 noyabr tarixli 1789 nömrəli Sərəncamında dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

"Hərbi kadrlar hazırlayan təhsil müəssisələri kursantlarının müavinətlərinin artırılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 29 noyabr tarixli 1789 nömrəli Sərəncamında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006, N 11, maddə 978; 2008, N 6, maddə 496; 2010, N 7, maddə 684; 2014, N 11, maddə 1497) aşağıdakı dəyişikliklər edilsin:

**1.** 1-ci hissədən "Azərbaycan Ali Hərbi Təyyarəçilik Məktəbinin, Azərbaycan Ali Hərbi Dənizçilik Məktəbinin," sözləri çıxarılsın və həmin hissədə "Milli Təhlükəsizlik Nazirliyinin" sözləri "Dövlət Təhlükəsizliyi Xidmətinin" sözləri ilə əvəz edilsin.

**2.** 2-ci hissədə "və Cəmşid Naxçıvanski adına Hərbi Liseyin" sözləri ", Cəmşid Naxçıvanski adına Hərbi Liseyin və Dövlət Sərhəd Xidmətinin Xüsusi Məktəbinin" sözləri ilə əvəz edilsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**

**Bakı şəhəri, 12 sentyabr 2018-ci il.**

## "Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikasının 2015-ci il 29 dekabr tarixli 96-VQ nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 15 fevral tarixli 795 nömrəli Fərmanında dəyişikliklər edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 22 may tarixli 87 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

"Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikasının 2015-ci il 29 dekabr tarixli 96-VQ nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 15 fevral tarixli 795 nömrəli Fərmanında dəyişikliklər edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 22 may tarixli 87 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, N 5, maddə 955) 1.3-cü bəndində "43.1-ci maddədə (ikinci halda)" sözləri "43.1-ci maddədə (dördüncü halda)" sözləri ilə əvəz edilsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**

**Bakı şəhəri, 12 sentyabr 2018-ci il.**

# Düşünülmüş siyasətlə həyata keçirilən kompleks islahatlar makroiqtisadi sabitliyi möhkəmləndirir

**(əvvəli 1-ci səhifədə)**

Əsas kapitala yönəldilən vəsaitlər qeyri-neft sektoru üzrə 22 faiz, qeyri-neft sənayesi üzrə isə 69 faiz artıb.

Qeyri-neft sənayesi üzrə artım dövlətin sənayeləşmə siyasətinin uğurla reallaşmasının bir təsdiqidir. Sənayeləşmə siyasətinin uğurla reallaşması statistik məlumatlara görə təbii olaraq əhalinin gəlirlərinin 9,3 faiz artmasına imkan verib, inflyasiyanı 6,3 faiz üstələyib. Ölkədə orta aylıq əməkhaqqı illik müqayisədə 4 faiz yüksəlib, dövlət büdcəsindən maliyyələşdirilən təşkilatlarda çalışanların əməkhaqqı, həmçinin pensiya və müavinətlər də artıb. Azərbaycanın sosial-iqtisadi nailiyyətləri dünyanın nüfuzlu qurumlarının diqqət mərkəzindədir. Prezident İlham Əliyev Nazirlər Kabinetinin 2018-ci ilin birinci yarısının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasındakı nitqində ölkəmizin beynəlxalq hesablamalarda mövqeyi barədə deyib: "Davos Dünya İqtisadi Forumunun hesablamalarını Azərbaycan ictimaiyyətinin diqqətinə çatdırmaq istərdim. Son hesablamalara görə, Azərbaycan dünya miqyasında rəqabətqabiliyyətliliyinə görə 35-ci yerdədir. Yol infrastrukturunun inkişafına görə 36-cı yerdədir. İnkişaf edən ölkələr arasında inklüziv inkişaf indeksinə görə 3-cü yerdədir. Ümumi infrastrukturun inkişafına görə dünya miqyasında 26-cı yerdədir. Xalqın iqtidara dəstəyinə görə dünya miqyasında 20-ci yerdədir. Bax, bu rəqəmlər əyani şəkildə göstərir ki, Azərbaycan hansı böyük uğurlara imza atıb". Ötən müddət dövlətin apardığı siyasətin doğru istiqamətdə olduğunu təsdiq edib. Dünyanın ən mötəbər iqtisadi "beyin mərkəzi" Davos İqtisadi Forumu Azərbaycanın Qlobal Rəqabətqabiliyyətlilik İndeksini daim artırır. 2010-2011-ci illərdə Azərbaycan 57-ci, 2011-2012-ci illərdə 55-ci, 2012-2013-cü illərdə 46-cı, 2013-2014-cü illərdə 39-cu yerə yüksəlmişdi. Bundan başqa, digər nüfuzlu beynəlxalq reytinq agentlikləri də Azərbaycanın kredit reytinqini yaxşılaşdırmışlar. Dünya iqtisadi sistemində layiqli yer tutmaq uğrunda sərt qlobal iqtisadi rəqabət daim güclənir. Göründüyü kimi, belə bir vəziyyətdə Azərbaycanın kredit reytinqinin dövri olaraq artması olduqca müsbət prosesdir, dünya iqtisadiyyatına inteqrasiyanın, iqtisadiyyatın rəqabətqabiliyyətliliyinin göstəricisidir. Belə ki, Dünya Bankının "Doing Bussiness" hesabatları və 2018-ci il İnklüziv İnkişaf İndeksi üzrə də ölkəmizin mövqeyi yaxşılaşmışdır. Bu səviyyə təbii ki, aparılan məqsədyönlü və gələcək tərəqqiyə hesablanmış iqtisadi siyasətin, görülən genişmiqyaslı işlərin məntiqi nəticəsidir. Qeyri-neft məhsullarının ixrac potensialının artırılması məqsədilə dövlət dəstəyi, müvafiq tədbirləri davamlıdır və indiyədək 15 ixrac missiyası təşkil olunub, ixracatçılar 11 nüfuzlu beynəlxalq sərgidə vahid ölkə stendi ilə iştirak edib, əməliyyat ilə bağlı ilkin razılaşmalar və sifarişlər əldə olunub, ixrac müqavilələri imzalanıb, ixrac təşviqinin ödənilməsi davam etdirilib.

Ölkəmizin xarici iqtisadi siyasətinin uğurlarının mühümlərindən biri də budur ki, ticarət əlaqələrinin genişləndirilməsi məqsədilə artıq Rusiya, Çin, Birləşmiş Ərəb Əmirliklərində və Şərqi Avropada ticarət nümayəndələri fəaliyyət göstərir. Belarusda və Ukraynada Azərbaycan ticarət evləri açılıb, Çində "Şərab Evi"nin, Latviyada və Birləşmiş Ərəb Əmirliklərində ticarət evlərinin bu ilin sonunadək fəaliyyəti planlaşdırılır. Çox təqdirəlayiq haldır ki, Heydər Əliyev Fondunun dəstəyi ilə Rusiyanın Həştərxan şəhərində "Azərbaycan İş Mərkəzi" açılıb. Müasir dünyamızda inkişafı informasiyasız və onun mühüm komponenti olan reklamsız təsəvvür etmək mümkün deyil. Belə ki, xarici kütləvi informasiya vasitələrində sahəvi brendlərin reklamı kampaniyasına, "Made in Azerbaijan" brendinin təşviqinə başlanıb. Bu aktiv fəaliyyətin nəticəsində cari ilin 5 ayında qeyri-neft ixracı 20 faiz, o cümlədən sənaye məhsulları 27 faiz, kənd təsərrüfatı məhsulları 22 faiz, xarici ticarət fəaliyyəti ilə məşğul olan subyektlərin sayı 34 faiz artıb, ixrac edilən istehsal məhsullarının çeşidi də genişlənib və bu proses dinamizmini qoruyur.

Həyata keçirilən operativ islahatlar, davamlı və kompleks tədbirlər makroiqtisadi sabitliyin daha da möhkəmlənməsinə, ölkənin dayanıqlı inkişafına mühüm töhfələr verir. Vurğulamaq lazımdır ki, ölkənin sosial-iqtisadi inkişafında əsas olan Dövlət proqramlarının uğurlu icrası əldə edilmiş nailiyyətlərdə mühüm rol oynayır. Prezident İlham Əliyev Nazirlər Kabinetinin 2018-ci ilin birinci yarısının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasındakı nitqində qarşıya qoyulan hədəflərə çatılacağı, dinamik inkişafın qorunacağı və səmərəli islahatların daha da dərinləşdiriləcəyi barədə deyib: "Ötən altı ayın göstəriciləri deməyə əsas verir ki, biz 2018-ci ilin əvvəlində qarşımıza qoyduğumuz bütün vəzifələrə uğurla nail olacağıq. Bundan sonrakı illərdə Azərbaycan iqtisadiyyatı dinamik şəkildə inkişaf etməlidir. Bunu təmin etmək üçün, əlbəttə ki, islahatlar daha da dərinləşməlidir. Son illər ərzində apardığımız islahatlar öz gözəl bəhrəsini vermişdir. Əgər biz bu islahatları aparmasaydıq, bu qədər böyük iqtisadi uğurlara çata bilməzdik. Ancaq hesab edirəm ki, indiki dövrdə biz bu islahatları daha da dərinləşdirməliyik. Elə etməliyik ki, Azərbaycan iqtisadiyyatı uzunmüddətli, gələcəkdə dayanıqlı iqtisadiyyat kimi özünü göstərsin, neftdən, qazdan asılılıq daha da aşağı düşsün və qeyri-neft sektorunun inkişafı sürətlə davam etdirilsin".

**Ataş CƏBRAYILOV,**
**"Respublika".**

## Milli Məclisin sədri Antalyada Avrasiya ölkələri parlament sədrlərinin 3-cü görüşündə iştirak edəcək

**Milli Məclisin sədri Oqtay Əsədovun başçılıq etdiyi nümayəndə heyəti oktyabrın 8-9-da Türkiyənin Antalya şəhərində keçiriləcək Avrasiya ölkələri parlament sədrlərinin 3-cü görüşündə iştirak edəcək. Tədbirə 40-dan çox ölkənin parlament nümayəndələri və bir sıra beynəlxalq təşkilatların təmsilçiləri qatılacaqlar.**

Parlamentin mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, nümayəndə heyətinin tərkibinə Milli Məclisin komitə sədri Əli Hüseynli, deputatlar Xanlar Fətiyev, Ağalar Vəliyev, parlament Aparatının rəhbəri Səfa Mirzəyev və digər rəsmi şəxslər daxildir.

Toplantıda "Avrasiyada iqtisadi əməkdaşlıq, ətraf mühit və davamlı inkişaf" mövzusunda müzakirələr aparılacaq. Milli Məclisin sədri mövzu ilə əlaqədar çıxış edəcək. Parlament sədrinin tədbirdə iştirak edən nümayəndə heyətlərinin başçıları ilə bir sıra görüşləri də nəzərdə tutulub.

AZƏRTAC

## Azərbaycan ilə Polşa arasında siyasi əlaqələrin inkişaf perspektivləri müzakirə edilib

**Azərbaycanın Polşadakı səfiri Həsən Həsənov bu ölkənin xarici işlər nazirinin müavini Bartoş Çixotski ilə görüşüb.**

AZƏRTAC xəbər verir ki, görüşdə Azərbaycan ilə Polşa arasında siyasi əlaqələrin hazırkı vəziyyəti və inkişaf perspektivləri müzakirə olunub.

Sonda Bartoş Çixotskiyə Azərbaycan Xalq Cümhuriyyəti Parlamentinin sədri Əlimərdan bəy Topçubaşova və Polşa Respublikasının sabiq Baş naziri İqnatsi Yan Paderevskiyə həsr edilmiş xatirə nişanı təqdim olunub.

AZƏRTAC

## Qafqazın müsəlman ruhanilərinin həmvətənlərə və din xadimlərinə müraciəti

**Qroznıda Qafqaz Xalqları Ali Dini Şurasının sədri şeyxülislam Allahşükür Paşazadənin rəhbərliyi ilə bu qurumun növbədənkənar iclası keçirilib.**

**Qafqaz Müsəlmanları İdarəsindən AZƏRTAC-a bildiriblər ki, iclasda regionda yaranmış vəziyyətlə əlaqədar müraciət qəbul edilib.**

**Müraciətdə deyilir:** "Qafqaz Xalqlarının Ali Dini Şurası və Şimali Qafqaz Müsəlmanlarını Əlaqələndirmə Mərkəzi (ŞQMƏM) bütün fəaliyyəti dövründə İslam dininin sülhsevər mahiyyətinə uyğun olaraq onun həqiqi mənasını çatdırmağa çalışır. İslamın gücü birlik və həmrəylikdədir. Ulu Tanrı bizi bir-birimizə münasibətdə qardaş kimi yaradıb. Bu gün bizim ümumi düşmənlərimiz bütün dünyada İslam dininə qarşı məqsədyönlü şəkildə mübarizə aparırlar. Məhz bu səbəbdən məkrli qüvvələr bizi, İslam dininin daşıyıcıları olan müsəlmanları zəiflətməyə, bizi bir-birimizin əleyhinə və başqa dini dəyərlərin daşıyıcılarının əleyhinə yönəltməyə, hamımızı vuruşdurmağa çalışırlar. Təəssüf ki, bəzən onlar buna nail olurlar.

Son zamanlar Qafqaz Xalqları Ali Dini Şurası və Şimali Qafqaz Müsəlmanlarını Əlaqələndirmə Mərkəzi Şimali Qafqaz respublikalarından, xüsusən Kabarda-Balkar Respublikasından və İnquşetiyadan olan müsəlman qardaşlarımızın və bacılarımızın ətrafında baş verən prosesləri narahatlıqla izləyir. İndiki siyasi vəziyyətləri, keçmişi və gələcəyi eyni olan bu respublikalar Rusiya kimi böyük ölkədə birləşir. Rusiya Federasiyasının tərkibinə daxil olan bu xalqlar ən çətin dövrlərdə, Sovet İttifaqı dövründə birgə mövcud olub, hər iki xalq eyni sürgünlərə (deportasiyalara) məruz qalıb və bütün bu sınaqlardan bilikdə qürurla çıxıblar.

Terrorçuluq, minlərlə dinc sakinin qətlə yetirilməsi, dağıntılar bizim heç birimizdən yan keçməyib. Bütün bu respublikalar indiki sakit və təhlükəsiz həyatlarına görə Qafqazda sülh naminə özlərini qurban vermiş şəhidlərinə borcludurlar! Biz qardaş Qafqaz respublikalarının Ulu Tanrıya böyük sevgi bəsləyən xalqları arasında qarşıdurmaya rəvac verən hər bir təşəbbüsü, hər bir əməli qəzəblə pisləyirik.

Biz bütün Qafqaz xalqlarını bizim qardaş xalqlar arasında yaranan anlaşılmazlıqları səbirlə və şüurlu sürətdə həll etməyə çağırırıq. Ulu Tanrının buyurduqları bütün maneələrin açarıdır. Allahın göstərdiyi yoldan başqa düzgün həll yolları yoxdur.

Biz hesab edirik ki, din xadimləri və Qafqaz xalqlarının nümayəndələri hansı konfessiyaya mənsub olmalarından asılı olmayaraq, onlardan təxribatçılıq oyunlarında istifadə edilməsinə yol verməməlidirlər. Əksinə, Qafqaz xalqlarını birləşdirən dəyərlərə, ümumi birliyə sadiq qalmağa, onların qardaşlığına hörmətlə yanaşmağa çağırmaq lazımdır.

Biz inanırıq ki, Qafqazın Ulu Yaradanı sevən qardaş xalqları bizim çağırışımızı düzgün qəbul edəcək və qarşıdurmaya yol verməyəcək, bütün məsələləri dinc yolla, həmrəylik və qarşılıqlı hörmət əsasında həll edəcəklər.

Biz blogerlərə və kütləvi informasiya vasitələrinin nümayəndələrinə müraciət edərək onları qardaş respublikalarda yaranmış vəziyyət barədə fikir söyləyərkən çox nəzakətli və ehtiyatlı olmağa, bu gün rezonans doğuran problemlərə və məsələlərə korrekt yanaşmağa çağırırıq. Öz yazılarınızda Qafqaz respublikalarının sakinlərini bir-birinə qarşı təhrik etməməyi və vəziyyəti gərginləşdirməməyi xahiş edirik. Unutmayın ki, biz hamımız müsəlmanlarıq və deməli biz hamımız qardaşlar və bacılarıq! Qafqaz bizim ümumi evimizdir. Buna görə biz onu qarışıqlıqdan və hərc-mərclikdən qorumağa borcluyuq!

*Qafqaz Xalqları Ali Dini Şurası və Şimali Qafqaz Müsəlmanlarını Əlaqələndirmə Mərkəzinin üzvləri:*
*Şeyxülislam Allahşükür Paşazadə - Qafqaz Xalqları Ali Dini Şurasının sədri,*
*Berdiyev Hacı İsmayıl - Qaraçay-Çərkəz Respublikasının müftisi, ŞQMƏM-in sədri,*
*Mejiyev Hacı Salah - Çeçen Respublikasının müftisi, ŞQMƏM sədrinin birinci müavini,*
*Abdullayev Hacı Əhməd - Dağıstan Respublikasının müftisi, ŞQMƏM sədrinin müavini,*
*Raximov Hacı Mühəmməd - Stavropol diyarının müftisi, ŞQMƏM İcraiyyə Komitəsinin sədri,*
*Qatsalov Hacı Hacımurad - Şimali Osetiya-Alaniya Respublikasının müftisi,*
*Dzasejev Hacı Həzrətəli - Kabarda-Balkar Respublikasının müftisi,*
*Karalayev Hacı Sultanəhməd - Kalmık Respublikasının müftisi,*
*Kardanov Hacı Askarbiy - Adıgey Respublikasının və Krasnodar diyarının müftisi".*

AZƏRTAC

## Çikaqo şəhərinin meri Azərbaycanın Müstəqillik Günü ilə əlaqədar proklamasiya imzalayıb

**Çikaqo şəhərinin meri Ram Emanuel Azərbaycanın Müstəqillik Günü ilə əlaqədar proklamasiya imzalayıb.**



AZƏRTAC xəbər verir ki, ABŞ Azərbaycanlıları Şəbəkəsinin, ABŞ-ın Orta Qərb ştatları üzrə Azərbaycan Mərkəzinin üzvlərinə və bütün dünya azərbaycanlılarına ünvanlanmış proklamasiyada 1991-ci il oktyabrın 18-də Azərbaycanın müstəqilliyinin bərpa olunması faktı qeyd edilir. Proklamasiyada, həmçinin Azərbaycanın coğrafi mövqeyi haqqında məlumat verilir, vurğulanır ki, Naxçıvan Muxtar Respublikası və Dağlıq Qarabağ regionu da daxil olmaqla Azərbaycan Respublikasının ərazisinin sahəsi 33.440 kvadratmilə bərabərdir. Sənəddə xüsusi qeyd edilir ki, Amerika Birləşmiş Ştatları Azərbaycan Respublikasının ərazi bütövlüyünü, suverenliyini və dövlət müstəqilliyini qeyd-şərtsiz tanıyır.

Sənəddə bildirilir ki, Azərbaycan Xəzər regionunda ABŞ-ın müttəfiqi və strateji tərəfdaşı kimi, Azərbaycan hərbi qulluqçularının Kosovoda, İraqda və Əfqanıstan sülhyaratma missiyalarında iştirakını təmin edib, nüvə təhlükəsinə qarşı mübarizədə iştirak edib, beynəlxalq terrorizmin qarşısının alınmasına kömək edib, NATO ilə əməkdaşlıq edib, ABŞ-ı və Avropadakı müttəfiqlərini neft və qazla təmin edir, BMT Təhlükəsizlik Şurasının qeyri-daimi üzvü olub.

Çikaqo şəhərinin meri Ram Emanuel Azərbaycanın Müstəqilliyi Gününün 27-ci ildönümünün bütün dünyada milyonlarla azərbaycanlı tərəfindən bayram edilməsini və Qafqazda azadlıq və demokratiya ideyalarının yayılmasına Azərbaycan Respublikasının banilərinin verdikləri töhfəni nəzərə alaraq, 18 oktyabr 2018-ci ili İllinoys ştatında Azərbaycanın Müstəqilliyi Günü elan edib.

Proklamasiya ABŞ Azərbaycanlıları Şəbəkəsi və İllinoysda yaradılmış ABŞ-ın Orta Qərb ştatları üzrə Azərbaycan Mərkəzi tərəfindən hər il keçirilən kampaniyanın gedişində Çikaqo Azərbaycan icmasının fəallarına təqdim edilib.

AZƏRTAC

## II Bakı Endoskopik Forumu Milli Onkologiya Mərkəzinin nailiyyətlərini göstərməyə imkan yaradır

**Milli Onkologiya Mərkəzində (MOM) ikinci dəfə təşkil edilən Bakı Endoskopik Forumunda yerli həkimlərlə yanaşı, Rusiya, Ukrayna, Gürcüstan, Yaponiya, Qazaxıstandan olan mütəxəssislər də iştirak edirlər. Tədbirdə respublikanın və digər ölkələrin həkim-endoskopistlərinin, aparıcı tibb işçilərinin öz təcrübələrini bölüşmələri və fikir mübadiləsi aparmaları onkoloji xəstəliklərin müalicəsində daha uğurlu nəticə əldə olunmasına kömək etmək baxımından önəmlidir.**



Bu sözləri mərkəzin endoskopiya şöbəsinin rəhbəri Elman İbrahimov AZƏRTAC-a müsahibəsində deyib.

"MOM dünyanın ən tanınmış onkoloji mərkəzləri ilə elmi tədqiqat, kadr mübadiləsi və yeni innovasiyaların tətbiqi sahəsində geniş əməkdaşlıq əlaqələrinə malikdir. Mərkəz müasir avadanlıqla təchiz olunub və onkoloji xəstəliklərlə mübarizədə nailiyyətlərimiz var. Təşkil edilən forum uğurlarımızı göstərməyə şərait yaradır", - deyə E.İbrahimov qeyd edib.

AZƏRTAC

## Milli Onkologiya Mərkəzində II Bakı Endoskopik Forumu keçirilib





**Oktyabrın 6-da Milli Onkologiya Mərkəzində (MOM) erkən diaqnostika və az invaziv müalicə metodları sahəsində ixtisaslaşmış dünya şöhrətli "Olympus" konserni ilə birgə II Bakı Endoskopik Forumu keçirilib.**

AZƏRTAC xəbər verir ki, forumda Azərbaycanın tanınmış həkim-qastroenteroloqları, onkoloqları, cərrahlar və pediatrları iştirak ediblər.

Forumu giriş sözü ilə açan MOM-un baş həkimi Azad Kərimli mərkəzin fəaliyyəti ilə bağlı tədbir iştirakçılarına məlumat verib. O, dünyanın ən tanınmış onkoloji mərkəzləri ilə elmi tədqiqatlar, kadr mübadiləsi və yeni innovasiyaların tətbiqi sahəsində geniş əməkdaşlıq əlaqələrinə malik MOM-un məhz dövlətin daimi diqqət və qayğısı nəticəsində Cənubi Qafqazın ən qabaqcıl elm və şəfa məbədinə çevrildiyini vurğulayıb.

Tədbirdə Gürcüstanın, Rusiyanın, Ukraynanın, həmçinin Azərbaycan Milli Onkologiya Mərkəzinin aparıcı həkimlərinin məruzələri dinlənilib və elmi fikir mübadiləsi aparılıb.

Forumda MOM-un əməkdaşları Gülüstan Babayeva "Bağırsağın iltihabi xəstəliklərinin diaqnostikasında EUS-un rolu", Həcər Həsənova "Milli Onkologiya Mərkəzində uşaq endoskopiyası", Nigar Əliyeva "Uşaqlıq boynu xərçənginə görə radioterapiya almış xəstələrdə radiasion proktosiqmoiditlərin diaqnostikası və müalicəsi", Ruslan Məmmədov "Mədə xərçənginin diaqnostikasında EUS-un rolu", Moskva Kliniki Elmi Mərkəzinin dosenti İvan Nedoluşka "Endoskpistlər üçün yeni elektrocərrahiyyənin imkanları. ESG-300", Tbilisi şəhər "Mediclub" xəstəxanasının endoskopiya şöbəsinin rəhbəri İlya Laşki "Kolorektal yenitörəmələrin diaqnostika və müalicəsində müasir üsullar" mövzusunda, həmçinin Ukraynanın Kiyev şəhərinin "Oberiq" Universal Xəstəxanasının endoskopiya və mənfəzadaxili cərrahiyyə şöbəsinin rəhbəri Vladislav Yakovenko məruzə ilə çıxış edib.

Tədbirin gedişində bu həkimlərin bir hissəsinin etdiyi endoskopik əməliyyatlar əməliyyat otağından iclas zalına canlı yayımlanıb.

Forumun bu bölümündə ustad dərsləri (master-klass) böyük maraq doğurub. V.Yakovenkonun mədənin submukozal törəməsinin ESD üsulu ilə kəsilib götürülməsinə aid xəstə üzərində əməliyyatı, MOM-un həkimi H.Həsənovanın əməliyyat otağından azyaşlı üzərində polipektomiya əməliyyatı, mərkəzin digər həkimi R.Məmmədovun xəstə üzərində öd yollarının stentləşməsi əməliyyatı birbaşa forum iştirakçılarına nümayiş etdirilib.

Qeyd edək ki, bu tədbir Azərbaycanda ikinci ildir keçirilir. Ötən ilin fevral ayında mərkəzdə uğurla təşkil edilmiş I Bakı Endoskopik Forumu nəinki ölkəmizdə, hətta onun hüdudlarından uzaqlarda da böyük marağa səbəb olmuşdu.

Forumun sonunda iştirakçı həkimlərə müvafiq sertifikatlar təqdim edilib.

AZƏRTAC

*Mahir Məmmədov:*

## Dövlətimizin başçısının təbriki mənə şərəf verdi və məsuliyyətimi daha da artırdı



**Beynəlxalq Şahmat Federasiyasının (FİDE) vitse-prezidenti vəzifəsinə seçilməyim münasibətilə məni təbrik edən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə minnətdarlığımı bildirmək istəyirəm. Dövlət başçısının təbriki mənə şərəf verdi və məsuliyyətimi daha da artırdı.**

AZƏRTAC xəbər verir ki, FİDE-nin vitse-prezidenti Mahir Məmmədov ali şahmat qurumunun mətbuat xidmətinə açıqlamasında şahmat tarixində ilk dəfə azərbaycanlının FİDE-də yüksək vəzifəyə seçilməsini dünya şahmat ailəsinin Azərbaycana böyük etimadı kimi dəyərləndirib.

"Beynəlxalq Şahmat Federasiyasında yüksək vəzifəyə seçilməyim ölkəmizə və Azərbaycan idmanına böyük etimadın göstəricisidir. İdmanın inkişafı dövlətimizin siyasətinin prioritetlərindən biridir. Bu gün Azərbaycan dünyada idman, o cümlədən şahmat ölkəsi kimi tanınır. Azərbaycan Prezidenti İlham Əliyev dünya ölkələri arasında ilk dəfə şahmatın inkişafına dair 2009-2014-cü illəri əhatə edən Dövlət Proqramını imzalamaqla bu idman növünün yeni inkişaf mərhələsinə yüksəlməsinə dəstək olub. Məhz Prezident İlham Əliyevin şahmata və şahmatçılara göstərdiyi diqqətin sayəsində qrossmeysterlərimiz nüfuzlu yarışlarda parlaq qələbələr qazanıb, ölkəmizdə mötəbər şahmat yarışlarının təşkili ənənə halını alıb. 2015-ci ildə Bakıda şahmat üzrə Dünya Kuboku, 2016-cı ildə 42-ci Ümumdünya Şahmat Olimpiadası keçirilib. Hər il Şəmkirdə beynəlxalq qrossmeyster Vüqar Həşimovun xatirəsinə həsr olunan superturnir təşkil olunur. Ölkəmizdə şahmatın inkişafına göstərdiyi diqqət və qayğıya görə şahmatçılarımız adından Azərbaycan Prezidenti İlham Əliyevə təşəkkür edirəm", - deyə Mahir Məmmədov bildirib.

AZƏRTAC

## Ölkəmizdə qadın sahibkarlara diqqət və qayğı yüksək səviyyədədir

**Azərbaycanda həyata keçirilən iqtisadi strategiyanın prioritet istiqamətlərindən biri də ölkədə sahibkarlığın inkişafıdır. Bu gün dövlət başçısının "Ölkəmizin gələcək inkişafı sahibkarlığın inkişafından asılıdır" strateji xəttinə uyğun olaraq sahibkarlığın inkişafına xüsusi diqqət göstərilir, sistemli və kompleks tədbirlər həyata keçirilir.**

**Bunun nəticəsidir ki, son 15 ildə ölkəmizdə fəaliyyət göstərən sahibkarların sayı 4,2 dəfə artıb. Sahibkarlığın inkişafı, biznes mühitinin davamlı olaraq yaxşılaşdırılması ilə bağlı həyata keçirilən sistemli tədbirlər 2018-ci ildə də uğurlu nəticələr verir.**

Prezident İlham Əliyevin dünya ölkələrinin qabaqcıl təcrübəsinin ölkəmizə gətirilməsi, müasir texnologiyaların tətbiqinə əsaslanan istehsal, emal, infrastruktur sahələrinin yaradılması istiqamətində verdiyi göstərişlər, tapşırıqlar Azərbaycan iqtisadiyyatının daha da şaxələnməsini təmin edib. Onu da vurğulaya bilərik ki, kiçik və orta sahibkarlıq subyektlərinə göstərilən diqqət və qayğı bu prosesi daha da genişləndirib. Ötən ilin dekabrında dövlət başçısının kiçik və orta sahibkarlığın inkişafına dövlət dəstəyinin daha da gücləndirilməsinə dair imzaladığı mühüm fərman bu sahəyə nə qədər diqqət göstərdiyini bir daha təsdiqlədi.

2004-cü ildən ölkəmizdə fəaliyyət göstərən **"Şərqi Kimyəvi Şirkət - Bakı"— (ŞKŞ-Bakı) şirkətinə qadın sahibkarlardan olan Sevda Yusubova** rəhbərlik edir. Şirkət haqqında ətraflı məlumat verən Sevda xanım dedi ki, "ŞKŞ - Bakı" kimyəvi məhsulların idxalı və ixracı üzrə məşğul olur. Bizim Gürcüstanda və Türkiyədə törəmə firmalarımız var. Rusiyadan aldığımız sulfat turşusu, xlorid turşusu, azot turşusu və s. bir çox kimyəvi maddələri Azərbaycana idxal edirik. Turşu və qələvilərin daşınması üçün onlarca ixtisaslaşdırılmış avtomaşınlardan ibarət öz avtoparkımız, xüsusi təlim keçmiş yüksək peşəkarlıqlı əməkdaşlarımız və sürücülərimiz vardır. Məhsulların anbarlaşdırılması və saxlanması üçün baza yaratmışıq. Şirkət prekursorların təchizatına və ixracına dair uzunmüddətli lisenziyalara malikdir. Biz sifarişçilərə yüksək xidmət səviyyəsi təklif etməklə öz rəqabət qabiliyyətimizi artırmağa çalışırıq.

Yaxın gələcəkdə təchiz edilən məhsulların çeşidini artırmaq hesabına satış bazarını genişləndirməyi planlaşdırırıq. Tezliklə SOCAR karbamid zavodu işə salınacaq, AzerFloat şüşə zavodu fəaliyyətə başlayacaq. Bütün bunlar isə yeni imkanlar, yeni müqavilələr deməkdir. Yeni müəssisələrin açılması yeni satış bazarı deməkdir. Lakin əvvəlcə bu bazarı qazanmaq lazımdır. Bu gün Azərbaycanın, demək olar ki, kimyəvi məhsullardan istifadə edən bütün müəssisələrində məhsulun alışı üzrə tenderlərin keçirilməsi təcrübəsi aparılır. Biz bu tenderlərdə iştirak edir və layiqli yer qazanırıq.

"ŞKŞ- Bakı" yaradılan zaman yalnız Rusiya müəssisələri ilə işləmək qərara alınmışdı. Yarandığı gündən 14 il keçməsinə baxmayaraq, hələ də öz prinsiplərinə sadiqdir. Rusiyanın kimyəvi məhsulları dünyada ən keyfiyyətli məhsullardan hesab edilir. Bizim Türkiyədə olan törəmə firmamız vasitəsi ilə Avropa ilə bəzi mövqelər üzrə danışıqlar aparırıq. Şirkətin imicini yüksək tutmaq üçün bütün tələblərə layiqincə və yüksək səviyyədə cavab verməyə çalışırıq. İstehsalat proseslərindən bioloji xammala keçid bu gün "yaşıl kimyanın" müasir elmi istiqamətlərinin əsas vəzifələrindən biridir. Müxtəlif proseslərin köməyi ilə bioloji xammaldan bioloji yanacaq və bioloji məhsullar hazırlayırlar.

Ölkəmizdə fəaliyyət göstərən "Azərbaycan İnterneyşnl Mayninq Kompani", "SOCAR", "ASK-Şüşə" MMC, "AZENCO"ASC, "Gilan Holding", "Gence şərab" ASC, "Atena" MMC, "Azərbaycan Koka-Kola Bootler LTD" MMC, "Azersun" Holding, "Baki-Qlass" MMC, "Santexdetal LTD" MMC, "Halliburton Eurasiya Services Limited", "Bahar Enerji" və s. kimi müəssisələrlə əməkdaşlığımız müvəffəqiyyətlə davam edir.

Şirkətimiz Gürcüstan Respublikasındakı "Rustavi Azot" zavodu ilə bağladığı müqaviləyə əsasən idxal etdiyi kimyəvi məhsullardan ixrac edir. Gələcəkdə Bakı-Tbilisi-Qars dəmir yolu nəqliyyatının marşrut yolunda Gürcüstanın digər müəssisələri ilə işləmək imkanı yaranacaq ki, bu da şirkətin dövriyyəsini artıracaq.

Hazırda Türkiyədəki həmkarlarımız üçün Rusiya Federasiyasından bir neçə növ kimyəvi maddələrin alınması üzrə danışıqlar aparırıq.

Azərbaycan Prezidenti cənab İlham Əliyev orta və kiçik biznesin inkişafında biz sahibkarlara göstərdiyi diqqətin və qayğının nəticələrini öz fəaliyyətimizdə hiss edirik. Vergi sahəsində aparılan islahatlar, vergi ödəyicisi kimi qalmağımıza imkan verdi. Şirkət hər gün böyük zərərlərə davam gətirdi. Bu gün vəziyyət stabilləşmişdir. Dövlət portalı vasitəsilə gömrük vergilərinin ödənilmə sistemi sadələşdirilmişdir, yük gömrük bəyannamələrinin onlayn rəsmiləşdirilməsi tətbiq edilmişdir. Asan İmza mobil xidmətlərin aktivləşdirilməsi işimizə çox kömək edir.

Şirkətimiz "Caspian European Club"un qızıl üzvü kimi sentyabrın 20-də Bakıda keçirilən VII beynəlxalq "Caspian Energy Forum Baku-2018" forumunda iştirak etmişdir. Siyasi və iqtisadi əməkdaşlığa öz töhfəsini verən bu forum əlamətdar günə - "Əsrin müqaviləsi"nin imzalanmasının ildönümünə təsadüf edirdi. "Caspian Energy Forum Baku" Xəzər-Qara dəniz və Baltik regionu ölkələrinin müxtəlif qurumları və şirkətlərinin nümayəndələrinin bir araya toplaşdığı və yeni əməkdaşlığın qurulması üçün əlverişli şəraitin yaradılmasına zəmin yaradacaq. Sözsüz ki, bizim şirkət də forumda müzakirə olunan layihələrdən bəhrələnəcək və bunun da işimizə müsbət təsiri olacaqdır.



Bu günlərdə Bakıda keçirilən çox böyük maraqla izlədiyimiz IX Azərbaycan-Rusiya Regionlararası Forumunda ölkəmizdə inkişaf etməkdə olan qadın sahibkarlığından, son illər Azərbaycanda qadın sahibkarlarının sayının xeyli artması və bu sahədə görülən işlər, həyata keçirilən layihələr barədə məlumat verildi. Son illər qadınların sahibkarlığa meyil göstərməsi xüsusilə təqdirəlayiqdir. Bu baxımdan sahibkar xanımlar öz bizneslərini inkişaf etdirməklə yanaşı, beynəlxalq əməkdaşlığa da önəm verirlər. Azərbaycanda qadın sahibkarlara göstərilən dövlət dəstəyi, o cümlədən təşkil olunan müxtəlif maarifləndirici tədbirlər, qadın sahibkarlara verilən güzəştli kreditlər, Azərbaycanın və Rusiyanın qadın sahibkar təşkilatları ilə əlaqələrin genişləndirilməsində əməkdaşlığın uğurlu olacağı diqqətə çatdırıldı.

**Bəybala BƏYBALAYEV, "Respublika".**

# Qazaxda kənd həkim məntəqəsinin açılışı



Qazax rayonunun Yuxarı Salahlı kəndində Yaponiya Səfirliyinin dəstəyi ilə tikilmiş həkim məntəqəsinin açılışı olub. Açılış mərasimində Qazax Rayon İcra Hakimiyyətinin başçısı Rəcəb Babaşov, Yaponiyanın Azərbaycan Respublikasındakı Fövqəladə və Səlahiyyətli səfiri Teruyuki Katori, səfirliyin birinci katibi Takaaki Usui, səfirliyin İctimai Əlaqələr şöbəsində konsultant Aysel Məmmədli, RİH başçısı aparatının məsul işçiləri, kənd sakinləri və KİV nümayəndələri iştirak edib.

Qərb-Resurs Vətəndaş Cəmiyyətinin İnkişafına Dəstək İctimai Birliyinin sədri, layihə rəhbəri Ramil Göyüşov tədbiri açıq elan edərək qonaqları salamlayıb, həyata keçirilən layihə və yeni tikilmiş məntəqə haqqında tədbir iştirakçılarına ətraflı məlumat verib. Qeyd edib ki, tikilən həkim məntəqəsinin ümumi sahəsi 216 kv.m-dir. İlk yardım, baş həkim, ailə həkimi, ginekoloq, stomatoloq, peyvənd, palata, anbar daxil olmaqla 8 otaqdan ibarət olan məntəqədə həkim və tibb işçilərinin əhaliyə yüksək səviyyədə xidmət göstərmələri üçün hər cür şərait yaradılıb. Müasir standartlara cavab verən sanitar qovşağı yaradılıb, istilik sistemi ilə təchiz edilib. Rayon rəhbərliyinin göstərdiyi diqqət və qayğıdan söz açan layihə rəhbəri İcra Hakimiyyəti tərəfindən görülən işlər haqqında da məlumat verib. Bildirib ki, rayon rəhbərliyinin dəstəyi ilə məntəqənin qarşısında 30 kv.m ərazini əhatə edən çardaq quraşdırılıb, oturacaqlar qoyulub, giriş qapısının və pəncərələrin kənarlarına aqlaydan haşiyələr vurulub, eyni zamanda, tibb məntəqəsinin qarşısında yolun çəkilməsi işləri aparılıb.

Tədbir açıq elan olunduqdan sonra hər iki ölkənin Dövlət himnləri səsləndirilib.

Qazax Rayon İcra Hakimiyyətinin başçısı Rəcəb Babaşov çıxış edərək qonaqları salamlayıb, Yuxarı Salahlı kəndində yeni həkim məntəqəsinin açılışı münasibətilə bütün kənd sakinlərini təbrik edib. Rayon rəhbəri ölkə Prezidenti İlham Əliyevin rəhbərliyi ilə son illər respublikamızda, eləcə də Qazax rayonunda sosial-iqtisadi və tikinti-abadlıq sahəsində görülmüş işlərin geniş vüsət aldığını bildirib.

Yaponiyanın Azərbaycan Respublikasındakı Fövqəladə və Səlahiyyətli səfiri Teruyuki Katori çıxış edərək tədbirə toplaşanları salamlayıb və açılış münasibətilə təbrik edib. Qazax rayonuna ilk dəfə səfər etdiyini bildirən səfir Yaponiya Hökumətinin Azərbaycan Respublikasının davamlı inkişafına yönəlmiş əməkdaşlığa böyük əhəmiyyət verdiyini qeyd edib. Rayon Mərkəzi Xəstəxanasının baş həkimi Sevda Məmmədova çıxış edərək qonaqları salamlayıb, Yaponiya ilə Azərbaycan arasındakı səmimi münasibətdən, dostluq əlaqələrindən söz açıb.

Bakı Dövlət Universiteti Qazax filialının direktoru, coğrafiya elmləri doktoru, professor Vüsət Əfəndiyev çıxış edərək bildirib ki, Yuxarı Salahlı kəndində yeni həkim məntəqəsinin istifadəyə verilməsi bütün rayon ictimaiyyəti üçün olduqca əlamətdar hadisədir. Yaponiya ilə ölkəmiz arasındakı əlaqələrin dərin köklərə malik olduğunu qeyd edən natiq respublika Prezidenti İlham Əliyevin iki ölkə arasında olan bu səmimi münasibətə böyük önəm verdiyini qeyd edib. Bakı Dövlət Universitetində şərqşünaslıq fakültəsində tədris olunan dillər arasında yapon dilinin hər zaman üstünlük təşkil etdiyini diqqətə çatdırıb. Respublikanın qərb qapısı sayılan Qazaxda yeni həkim məntəqəsinin tikintisinə görə qazaxlı ziyalılar adından minnətdarlığını ifadə edib, həmin məntəqəni Yaponiya ilə Azərbaycan arasında olan dostluğun və əməkdaşlığın hədiyyəsi kimi dəyərləndirib.

Daha sonra otaqlarla tanışlıq olub və görülən işlər yüksək qiymətləndirilib.

Tədbirdə rayonda qonaq olan səfirə qədim ozan alətimiz saz və digər hədiyyələr təqdim olunub.

Məntəqə ilə tanışlıq başa çatdıqdan sonra səfir Teruyuki Katori Qazax rayonuna səfəri və açılışla bağlı təəssüratları barədə KİV nümayəndələrinə müsahibə verib.

Sonda çay süfrəsi ətrafında iki ölkə arasında olan iqtisadi, sosial və mədəni sahələrdə olan əməkdaşlıqdan, qarşıda duran vəzifələrdən, layihələrdən söhbət açılıb. Xatirə şəkilləri çəkilib.

**Vəli VƏLİYEV,**
**"Respublika".**

# Torpaqlarımızın azadlığı uğrunda döyüşə hər an hazırıq



Xocavənd rayonunun Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilməsindən 26 il ötür. Bununla əlaqədar yeni Xocavənd qəsəbəsində anım mərasimi keçirilib.

Rayon ictimaiyyətinin nümayəndələri, Qarabağ müharibəsi veteranları və şəhid ailələri, ağsaqqallar, gənclər, N saylı hərbi hissənin zabit və əsgərləri şəhidlərin xatirəsinə ucaldılmış abidə kompleksi önünə gül-çiçək dəstələri düzüblər. Azərbaycanın Dövlət Himni səsləndirilib, respublikanın ərazi bütövlüyü uğrunda canlarından keçmiş Vətən övladlarının xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Mərasimdə çıxış edən rayon icra hakimiyyətinin başçısı Eyvaz Hüseynov 1990-cı illərin əvvəllərində baş verən hadisələrdən, Ermənistanın Azərbaycana qarşı apardığı işğalçılıq siyasətindən danışıb. Bildirilib ki, işğal nəticəsində rayonun azərbaycanlılar yaşayan 10 kəndində 1723 yaşayış evi, həmçinin 47 sənaye, 144 kənd təsərrüfatı obyekti, 32 səhiyyə, 17 təhsil müəssisəsi, 4 məktəbəqədər tərbiyə ocağı, 59 mədəniyyət obyekti, 10 tarixi abidə, 32 körpü, 12 rabitə qovşağı, 42 su anbarı və 316 kilometr su kəməri talan edilib, dağıdılıb.

Xocavəndlilər dörd il ərzində ermənilərə qarşı inadlı müqavimət göstərib, qeyri-bərabər döyüşlərdə rayonun uşaqlı-qadınlı, cavanlı-qocalı bütün sakinləri qəhrəmanlıqla iştirak edib. Öz ata-baba torpaqları uğrunda düşmənə qarşı mərdliklə vuruşan xocavəndlilərdən 146 nəfər şəhid, 300-dən çox insan şikəst olub, 245 uşaq valideynlərindən birini, 3 uşaq hər iki valideynini, 69 qadın həyat yoldaşını itirib. Müxtəlif dövrlərdə girov götürülmüş 110 nəfər dinc sakindən 49-u əsir və girovluqda olarkən erməni terrorunun və vəhşiliyinin qurbanı olub.

Eyvaz Hüseynov daha sonra deyib:

-Bu gün torpaqlarımızın 20 faizi işğal altındadır. Bir millət, bir dövlət kimi bizim ən müqəddəs vəzifəmiz işğal altındakı torpaqlarımızı azad etməkdir. Bu istiqamətdə ciddi addımlar atılıb. Ümummilli lider Heydər Əliyev siyasi xəttini uğurla davam etdirən Prezident İlham Əliyevin rəhbərliyi ilə iqtisadiyyatda və ordu quruculuğunda böyük nailiyyətlər əldə olunub. Azərbaycanda yüksək maddi-texniki bazaya malik, müasir silahlarla təchiz edilmiş, yüksək nizam-intizamlı, işğal altında olan torpaqları azad etməyə qadir ordu formalaşıb. 2016-cı il aprel döyüşləri göstərdi ki, biz işğal altında olan bütün torpaqlarımızı azad edəcəyik. Bu döyüşlər zamanı Azərbaycan Ordusu düşmənin daim öyündüyü və keçilməz adlandırdığı müdafiə xəttini bir həmlə ilə yararaq, qarşıya qoyulan tapşırığı uğurla yerinə yetirdi, işğal altında olan torpaqlarımızın bir hissəsini azad etdi. Əminliklə bildirirəm ki, ordumuzun gücü, Ali Baş Komandanımızın qətiyyəti və xalqımızın iradəsi ilə işğal altındakı bütün torpaqlarımız azad ediləcək və biz doğma yurdumuza qayıdacağıq.

Müdafiə Nazirliyinin generalı Mais Bərxudarov Silahlı Qüvvələrə göstərilən diqqət və qayğı nəticəsində düşməni hər an məhv etməyə qadir olan güclü ordumuzun formalaşdığını diqqətə çatdırıb. Azərbaycan Ordusunun torpaqlarımızın və xalqımızın müdafiəsində əzmlə dayandığını və işğal altındakı torpaqlarımızı Ali Baş Komandanın əmri ilə qısa vaxtda azad etməyə hazır olduğunu vurğulayan M.Bərxudarov deyib: "Bizim heç kimin torpağında gözümüz yoxdur. Biz öz torpağımızı istəyirik. Düşmənlərimiz bilsin ki, biz işğal altında olan bütün torpaqlarımızı azad edəcəyik".

Tədbirdə çıxış edən məcburi köçkünlər və keçmiş döyüşçülər Prezident İlham Əliyevin münaqişənin həlli ilə bağlı aparılan danışıqlardakı mövqeyini dəstəklədiklərini, eyni zamanda, işğal altında olan torpaqlarımızın azad edilməsi üçün Ali Baş Komandanın əmri ilə erməni faşistlərinə qarşı silaha sarılmağa, bu müqəddəs yolda hər an döyüşməyə hazır olduqlarını bildiriblər.

**Salman ALIOĞLU,**
**"Respublika".**

*Reportaj*

# Onlar Vətənin ərazi bütövlüyünü qoruyacaqlar



...Qəlbləri oxşayan oktyabr səhəri. Paytaxtın A.Bakıxanov küçəsinin ərazisində yerləşən Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Nəsimi rayon idarəsinin həyətində coşqunluq, bayram təntənəsi hökm sürür, müharibə və əmək veteranları, valideynlər, rayon ictimaiyyətinin nümayəndələri sidq ürəklə gənclərin ordu sıralarına yolasalınma mərasimində iştirak edirdilər.

İdarənin foyesindəki "Ordum varsa, yurdum var", "Azərbaycanın Milli Qəhrəmanları", "Vətənin keşiyində", "Şəhidlər intiqama çağırır" və digər plakat və şüarlar tədbirə qatılanlarda xoş ovqat yaradırdı.

Bir qrup gənc idarənin Hərbi Xidmətə Çağırış şöbəsinin rəisi, mayor Rizvan Sadıqovun əhatəsində idi. Təcrübəli zabit sabahın əsgərlərinə qüdrətli Azərbaycan ordusu ilə bağlı dolğun məlumatlar verir, qürur hissi ilə bildirirdi ki, 2016-cı ilin aprel döyüşlərində ordumuz gücünü, məğrurluğunu bir daha nümayiş etdirmiş, erməni mövqelərinə sarsıdıcı zərbələr endirilmişdir.

Milli musiqimizin sədaları altında gənclər doğmaları ilə xatirə şəkilləri çəkdirir və onları əmin edirdilər ki, xidmət dövründə hər qarış Vətən torpağını göz bəbəyi kimi qoruyacaq, hərbi texnikanın sirlərini mükəmməl öyrənəcəklər.

Gənclərin əsgəri xidmətə yolasalınma mərasimində **Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Nəsimi rayon idarəsinin rəisi, polkovnik Eldəniz Əliyev** çıxış edərək mərasimə qatılan insanları salamladı. Sonra isə qəlbindən süzülüb gələn xoş sözləri onlarla yarı böldü:

—Dövlət müstəqilliyimizin, milli təhlükəsizliyimizin, xalqın əmin-amanlıq içərisində yaşamasının təminatçısı olan ordumuz son illərdə daha da möhkəmlənmiş, qüdrətlənmiş, mütəşəkkil hərbi qüvvəyə çevrilmişdir. Azərbaycan ordusu regionun ən güclü ordusudur və istənilən təcavüzün qarşısını almağa, hücum tapşırığını yerinə yetirməyə qadirdir. Bu gün Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Ali Baş Komandanı cənab İlham Əliyevin Prezident kimi fəaliyyətində ordu quruculuğu məsələləri prioritetdir.

Silahlı Qüvvələrə, onun şəxsi heyətinə ölkə rəhbərliyi tərəfindən hərtərəfli diqqət və qayğı göstərilir. Ordunun maddi-texniki bazası möhkəmlənir, yeni-yeni döyüş texnikaları, silah-sursatlar alınır. Keçirilən irimiqyaslı təlimlər göstərir ki, Azərbaycan ordusu quruda, dənizdə və havada, istənilən iqlim şəraitində qarşıya qoyulmuş hər hansı bir vəzifəni yerinə yetirməyə hər an hazırdır.

Azərbaycan dövlətinin və xalqının yalnız bir problemi vardır. Bu da torpaqlarımızın bir hissəsinin təcavüzkar Ermənistan tərəfindən işğal edilməsidir. Buna görə də dövlət başçısı cənab İlham Əliyev dəfələrlə bəyan etmişdir ki, bizim gücümüz Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin ədalətli həllində əsas vasitədir.

Son illərdə ordu quruculuğu ilə bağlı strateji xətt Azərbaycanda prioritet istiqamətlərdən biri olaraq qalır. Orduda islahatların aparılması və hərbi hissələrin maddi-texniki bazasının möhkəmləndirilməsi dövlət başçısının daim diqqət mərkəzindədir. Güclü iqtisadi potensial və güclü ordu Azərbaycanın bölgədə lider ölkə olmasını şərtləndirən əsas amillərdəndir.

Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin belə bir fikrini xatırlamaq yerinə düşərdi: *"Son illər ərzində maddi-texniki bazanın möhkəmləndirilməsində böyük işlər görülmüşdür, çoxlu texnika, avadanlıq, müasir silahlar alınmışdır və beləliklə, Azərbaycan ordusu xeyli dərəcədə güclənmişdir. Biz bu prosesi davam etdirəcəyik. Azərbaycan müharibə şəraitində yaşayır və belə olan halda ilk növbədə, ordu quruculuğuna böyük diqqət göstərilməlidir".*

Gənclərin ordu sıralarına yolasalınma mərasimində Elçin Hümmətov valideynlər adından çıxış edərək vurğuladı ki, bu gün oğlum Vüsalı əsgəri xidmətə yola salıram. Bir ata kimi qürur hissi keçirirəm ki, oğlum Vətənin ərazi bütövlüyünü qeyrətlə qoruyacaq.

Budur, meydan yenidən musiqiyə verilir. Gənclərdən İsmayıl İsmayılov, Orxan Mustafayev, Əli Məmmədov və başqaları mərasim iştirakçılarının xeyir-duası ilə ordu sıralarına yollanırlar...

**Qədir ASLAN,**
**"Respublika".**

# Hüquqi dövlət quruculuğunda ədliyyə və məhkəmə sisteminin müstəsna rolu var

**Zəngin və keşməkeşli yol keçən Azərbaycan ədliyyəsinin yaranmasının 100 illik yubileyi ərəfəsindəyik. Hüquqi dövlət quruculuğunda ədliyyə və məhkəmə sisteminin müstəsna rolu olduğundan bu şanlı yubiley xalq arasında əsl bayram əhval-ruhiyyəsi ilə qeyd olunur. Şərqin ilk demokratik dövləti olan Azərbaycan Xalq Cümhuriyyətinin yarandığı 1918-ci ildə təsis olunan Azərbaycan ədliyyəsi bir əsrlik zəngin tarixi yol keçərək hüquq sisteminin inkişafında mühüm xidmətlər göstərmişdir və proses davamlıdır.**



Cümhuriyyət dövründə vəziyyətin mürəkkəbliyinə, imkanların və kadrların məhdudluğuna baxmayaraq ölkənin ədliyyə sisteminin formalaşdırılması üzrə xeyli işlər görülmüş, Bakı şəhərinin ən görkəmli binalarından birində - "Səadət Sarayı" adlanan binada yerləşən Ədliyyə Nazirliyi tərəfindən yeni hüquq sisteminin təşkili ilə bağlı həmin dövr üçün ən mütərəqqi hesab edilən əhəmiyyətli qərarlar qəbul olunmuş, nazirliyin təşəbbüsü ilə mühüm qanun layihələri parlamentin müzakirəsinə çıxarılmışdır.

Nazirlik öz işinə ilk növbədə ədliyyə strukturlarının, məhkəmələrin və istintaq sahələrinin bərpası ilə başlamış, gərgin fəaliyyət nəticəsində məhkəmə aparatları tədricən bərpa edilmiş, binalar qaydaya salınmış, çətinliklə də olsa hüquq ədəbiyyatı kitabxanası yaradılaraq 6 aylıq hüquq kursları təşkil edilmişdir. Həmçinin, ədliyyə orqanları və məhkəmələrin fəaliyyəti ilə bağlı bir sıra qərarlar qəbul edilmiş, o cümlədən 1918-ci il noyabr ayının 14-də Azərbaycan Məhkəmə Palatasının Əsasnaməsi, noyabrın 22-də isə Ədliyyə Nazirliyinin Əsasnaməsi təsdiq edilmişdir. Cəzaçəkmə yerləri ilə aparılan işin ədalət mühakiməsinin həyata keçirilməsində əhəmiyyəti nəzərə alınaraq hökumətin 1919-cu il 11 avqust tarixli qərarı ilə əvvəllər Daxili İşlər Nazirliyinin tərkibində olan həbsxanalar Ədliyyə Nazirliyinin tabeliyinə verilmiş, nazirliyin təşəbbüsü ilə "İstintaq hissəsinin quruluşu və gücləndirilməsi haqqında", "Məhkəmə idarəsi sahəsində vəzifələrə namizədlər haqqında", "Azərbaycan andlı iclasçılar məhkəməsinin təsis edilməsi haqqında", Azərbaycan Demokratik Respublikasının yaranmasının 1,5 illiyi münasibətilə ümumi amnistiya haqqında və digər qanunlar parlamentin müzakirəsinə çıxarılmışdır.

Azərbaycan ədliyyəsi sovet imperiyası dövründə çox ciddi çərçivələr arasında fəaliyyət göstərmiş, dəfələrlə ləğv olunaraq yaradılan nazirlik məhdud səlahiyyətlərə malik olmuş, yalnız ulu öndərin sovet dövründə ölkəyə rəhbərlik etdiyi illərdə əsaslı şəkildə yenidən formalaşdırılaraq gələcək inkişafı üçün əlverişli şərait yaranmışdır.

Ədliyyə işçilərində və hakimlərdə mənəvi stimul yaradılması və Cümhuriyyət dövründən başlanmış tarixi irsin qorunması məqsədilə ümummilli lider Heydər Əliyevin 11 noyabr 2000-ci il tarixli Sərəncamı ilə 1918-ci ildə Azərbaycan Demokratik Respublikası Ədliyyə Nazirliyinin Əsasnaməsinin təsdiq edildiyi gün - 22 noyabr Ədliyyə işçilərinin peşə bayramı günü kimi müəyyən olunmuşdur. Bu bayramı ədliyyə işçiləri və hakimlər hər il böyük ruh yüksəkliyi ilə geniş qeyd edirlər.

Ümummilli liderin ədliyyə sisteminin inkişafına qayğısı müstəqilliyimiz bərpa olunduqdan sonra da davam etmiş, o, hüquqi dövlət quruculuğu prosesində məhkəmə sisteminin islahatını daim xüsusi diqqətdə saxlamış, məhkəmələrin müstəqilliyinə qarşı yönəlmiş hər hansı bir hərəkətin yalnız ədliyyəyə, ədalətə və mühakimə prosesinə deyil, öncə vətəndaşların Konstitusiya ilə qorunan hüquq və azadlıqlarına qarşı olduğu nəzərə alınaraq bu sahədə köklü məhkəmə-hüquq islahatları aparılmışdır. Bu islahatlar nəticəsində əvvəlki hüquq sistemindən fərqli olaraq yeni müasir hüquq sistemi bərqərar olmuş, ölkədə üçpilləli məhkəmə sistemi fəaliyyətə başlamışdır.

Dünya təcrübəsi göstərir ki, məhkəmə-hüquq islahatları hər zaman davam edən prosesdir. Hətta inkişaf etmiş dövlətlərdə də bu sahədə islahatlar aparılır, məhkəmə sistemi təkmilləşir. Təsadüfi deyil ki, Avropa məkanında bir çox dövlətlərdə məhkəmə fəaliyyətinə digər hakimiyyətlər tərəfindən müdaxilə edilməsi, məhkəmələrin maliyyələşməsinin pisləşməsi, hakimlərin əmək haqlarının və sayının azaldılması kimi neqativ tendensiyalara rast gəlinir. Respublikamızda isə hakimlərin əmək haqqının azaldılmasının yolverilməzliyi qanunla təsbit edilmişdir. Ölkə başçısının rəhbərliyi ilə Azərbaycanda bu sahədə aparılan ardıcıl və məqsədyönlü islahatlar uğurla inkişaf etdirilərək son illər məhkəmə sistemi beynəlxalq standartlara uyğun təkmilləşdirilmiş, məhkəmə hakimiyyətinin müstəqilliyi möhkəmləndirilmiş, bu sahədə fəaliyyəti tənzimləyən qanunvericilik bazası əsaslı şəkildə yenilənmiş, insanların məhkəmələrə müraciət imkanları xeyli asanlaşmış, infrastruktur müasirləşmişdir.

Ölkə rəhbərinin məhkəmə hakimiyyətinə verdiyi mühüm önəm nəticəsində yeni təsisatlar - məhkəmə hakimiyyətinin müstəqil özünüidarə orqanı olan Məhkəmə-Hüquq Şurası yaradılmışdır. Artıq 13 ildir ki, uğurla fəaliyyət göstərən Məhkəmə-Hüquq Şurasının səlahiyyətləri xeyli genişləndirilmişdir. Eyni zamanda, ölkəmizdə hakimlərin seçiminin ən şəffaf qaydaları tətbiq olunur və bu gün məhkəmə hakimiyyətində təmsil olunan hakimlərin əksəriyyətini məhz bu seçim əsasında təyin olunanlar təşkil edir. Ümumiyyətlə, hakimlik peşəsi çox şərəfli, eyni zamanda xüsusi məsuliyyət tələb edən peşədir. Ədalət mühakiməsini həyata keçirərkən qanunların tələblərinə dönmədən əməl etmək, hakim fəaliyyətinin mənəvi və tərbiyəvi təsirini təmin etmək, ədalət mühakiməsinin adına xələl gətirən hərəkətlərdən çəkinmək bizim əsas vəzifəmizdir. Ölkə başçısı cənab İlham Əliyev Şəki Məhkəmə Kompleksinin açılışı zamanı məhkəmə və ədliyyə orqanlarının əməkdaşları ilə keçirdiyi müşavirədə qeyd etmişdir ki, məhkəmələrin qərarları ədalətli olmalıdır, ədalət pozulduqda əlbəttə ki, həm narazılıq yarana, həm də, ümumiyyətlə, cəmiyyətin müsbət inkişafı çətinliklərlə üzləşə bilər. Ədalətli qərarlar həm insanlarda dövlətə inamı artırır, eyni zamanda, həyatımızı tənzimləyir. Ona görə də cəmiyyətdə məhkəmənin nüfuzu və ona etimad yalnız o zaman tam təmin edilir ki, bu inam hakimlərin müstəqilliyinə, obyektivliyinə, qanunların aliliyinə, qərəzsizliyinə və ədalətliliyinə əsaslansın. Təsadüfi deyil ki, Məhkəmə-Hüquq Şurası tərəfindən hakimlərin fəaliyyətinin prinsipial qiymətləndirilərək hakim adına və nüfuzuna xələl gətirən şəxslərin məhkəmə sistemindən kənarlaşdırılması üzrə ardıcıl tədbirlər görülür.

Məhkəmə-hüquq sistemində aparılan uğurlu islahatlar həm də beynəlxalq aləmdə böyük maraq doğurur, bu sahədə ölkəmizin nailiyyətləri yüksək qiymətləndirilərək tətbiq olunan yeniliklər, o cümlədən hakimlərin ən şəffaf seçim proseduru, məhkəmələrin yüksək statusuna uyğun müasir infrastrukturunun yaradılması, yeni innovativ elektron sistemlərin tətbiqi sahəsində Azərbaycanın müsbət təcrübəsi digər dövlətlərə nümunə göstərilir.

Ölkəmizin məhkəmə sistemindəki nailiyyətlərinin Avropa Şurası tərəfindən təqdir olunaraq bu mötəbər qurumun "Ədliyyənin Kristal Tərəzisi" mükafatına layiq bilinməsi hər birimizdə yüksək iftixar hissi ilə qarşılanmaqla bu sahədə islahatların uğurla həyata keçirilməsinin əyani təzahürü olmuşdur. Avropa Şurasına üzv dövlətlər arasında keçirilmiş bu müsabiqədə ölkəmizin təqdim etdiyi "Məhkəmənin Nəbzi - İdarəetmədə İnqilab" layihəsinin ən mütərəqqi layihə kimi qiymətləndirilərək mükafatlandırılması Azərbaycanın bu unikal təcrübəsinin səmərəli və qabaqcıl olmaqla yanaşı, digər dövlətlər üçün tətbiqinin mümkünlüyünü təsdiq edir. Bu təcrübə sözsüz ki, məhkəmə sistemində inqilabi dəyişikliklərə rəvac verən ölkə Prezidentinin 13 fevral 2014-cü il tarixli Sərəncamına əsasən "Elektron məhkəmə" informasiya sisteminin yaradılması üzrə görülən tədbirlər çərçivəsində ərsəyə gəlmiş və onun tətbiqi məhkəmə fəaliyyətinin elektron idarə olunmasına, hakimlərin iş yükünün qiymətləndirilməsinə və məhsuldarlığının artırılmasına xidmət edir.

Ümumiyyətlə, informasiya-kommunikasiya texnologiyalarının geniş tətbiq olunduğu indiki dövrdə məhkəmə fəaliyyətinin elektronlaşdırılması, vətəndaşların müraciət imkanlarının genişləndirilməsi, ədalət mühakiməsinin əlçatanlığının asanlaşdırılması mühüm əhəmiyyət kəsb edir.

Ədliyyə Nazirliyi tərəfindən bu sahədə görülən işlər, o cümlədən Dünya Bankı ilə birgə ədliyyə sisteminin müasirləşdirilməsinə dair həyata keçirilən uğurlu layihələr çərçivəsində paytaxtda və bölgələrdə yeni inşa olunmuş müasir məhkəmə bina və komplekslərinin istifadəyə verilməsi, burada ən son informasiya texnologiyalarının, elektron məhkəmə sisteminin tətbiqi hakimlərin iş şəraiti ilə yanaşı, onların səmərəli fəaliyyətində öz müsbət təsirini göstərir.

Ədliyyə naziri, Məhkəmə-Hüquq Şurasının sədri Fikrət Məmmədovun bölgələrdə yeni məhkəmə binalarının açılışı, eyni zamanda vətəndaşların səyyar qəbulları çərçivəsində yerli ədliyyə orqanlarına və məhkəmələrə baş çəkərək həmin qurumların fəaliyyəti və iş şəraiti ilə tanış olması, ədliyyə işçiləri və hakimlərlə müşavirələr keçirilərək fəaliyyətdə şəffaflığın və vətəndaş məmnunluğunun, məhkəmə qərarlarının ədalətliliyinin və icrasının təmin olunması ilə bağlı tövsiyə və tapşırıqları hər birimizi daha məsuliyyətlə fəaliyyət göstərməyə sövq edir. Çünki bu tələblər dövlət başçısının insanlara layiqli xidmətlərin göstərilməsi, onların müraciətlərinə həssaslıqla yanaşılması, vətəndaş-məmur münasibətlərinin sağlam zəmində qurulması ilə bağlı göstərişlərindən irəli gəlir. Ölkə Prezidentinin insan hüquqlarının etibarlı təminatına həssas münasibətinin və humanist siyasətinin təzahürü olaraq imzaladığı "Penitensiar sahədə fəaliyyətin təkmilləşdirilməsi, cəza siyasətinin humanistləşdirilməsi, təcridetmə ilə əlaqədar olmayan alternativ cəza və prosessual məcburiyyət tədbirlərinin tətbiqinin genişləndirilməsi barədə" 10 fevral 2017-ci il tarixli Sərəncamı da məhz insanların azadlıq hüququnun qorunmasına, onlara ədalətli, humanist nöqteyi-nəzərdən yanaşılmasına xidmət edir.

Qeyd olunan Sərəncam ölkəmizdə aparılan məhkəmə-hüquq sistemində islahatların yeni mərhələdə davamına təkan verməklə cəza-icra siyasətinə baxışın yenilənməsini, cinayət qanunvericiliyinin təkmilləşdirilməsini, dünyada mövcud olan mütərəqqi təcrübələrin, o cümlədən cəmiyyətdən təcridetmə ilə əlaqədar olmayan alternativ cəza və prosessual məcburiyyət tədbirlərində elektron nəzarət vasitələrinin tətbiqini şərtləndirmişdir. Həmin Sərəncamla məhkəmələrə həbs qətimkan tədbirinin seçilməsinə həssas yanaşılması, bu tədbirlərin tətbiqi əsaslarının mövcudluğunun araşdırılması, bununla bağlı təqdimatlara baxılarkən digər qətimkan tədbirlərinin seçilməsinin mümkünlüyünə, cəzanın növ və həddini müəyyən edərkən cəzanın sosial ədalətin bərpası, məhkumun islah edilməsi və yeni cinayətlərin törədilməsinin qarşısının alınması məqsədilə tətbiqinə, cinayət törətməkdə təqsirli bilinən şəxsə qanunvericilikdə nəzərdə tutulmuş hədlərdə ədalətli cəzanın təyin edilməsinə xüsusi diqqət yetirilməsi ilə bağlı tövsiyələr verilmişdir.

Bütövlükdə proqram xarakteri daşıyan bu Sərəncamda verilmiş tapşırıq və tövsiyələrin icrası üzrə artıq bir çox mühüm tədbirlər həyata keçirilmişdir. Belə ki, ölkə Prezidentinin təşəbbüsü ilə əhatəliyinə, konseptuallığına və tənzimlənmə sahəsinə görə Cinayət Məcəlləsinə 300-ə yaxın dəyişiklik edilmişdir ki, bura humanistləşdirmə, liberallaşdırma, azadlıqdan məhrumetmə sanksiyalarının azaldılması daxildir. Həmçinin, müvafiq maddələrdə azadlıqdan məhrumetmə ilə yanaşı, yüksək məbləğlərdə cərimə cəzası da tətbiq olunmuş, cinayət tərkiblərinin Məcəllədən çıxarılması yolu ilə bəzi əməllər dekriminallaşdırılmışdır.

Eyni zamanda, azadlıqdan məhrumetmə cəzasının tətbiqi hallarının azaldılması və sanksiyalara alternativ cəzaların daxil edilməsi məqsədilə Cinayət Məcəlləsinə yeni növ cəza daxil edilmişdir ki, bu, məhkumun cəmiyyətdən tam təcrid olunmadan yaşayış yeri üzrə nəzarət altında saxlanılmasından ibarət olan azadlığın məhdudlaşdırılması cəzasıdır. Artıq məhkəmələr tərəfindən azadlığın məhdudlaşdırılması cəzası geniş tətbiq edilir. Həmin cəzanın icrası zamanı elektron nəzarət vasitələrinin tətbiqi nəzərdə tutulur. Avropa ölkələrində aparılmış tədqiqatlar göstərir ki, belə vasitələrin tətbiq edildiyi məhkumların tam əksəriyyəti cəzanın çəkilməsi şərtlərini pozmur və yenidən cinayət törədilməsindən çəkinir. Elektron nəzarət vasitələrindən, həmçinin şərti məhkumetmə və ya cəzadan şərti olaraq vaxtından əvvəl azadetmə institutlarının tətbiqi zamanı istifadə edilməsi nəzərdə tutulur.

Cəmiyyətimizdə rəğbətlə qarşılanan bu humanist tədbirlər və tətbiq olunan yeniliklər onu deməyə əsas verir ki, cənab Prezident İlham Əliyevin rəhbərliyi ilə vətəndaşların mənafeyinə hesablanmış çoxşaxəli hüquqi islahatlar uğurla davam etdirilir. Bütövlükdə, Azərbaycan ədliyyəsinin inkişafı naminə həyata keçirilən bütün tədbirlər ölkəmizdə insan və vətəndaş hüquq və azadlıqlarını ardıcıl və dolğun şəkildə, daha geniş və demokratik məzmunda təmin etmək məqsədlərinə xidmət edir.

Dövlət qayğısının nəticələri təsdiq edir ki, ədliyyə işçiləri və hakimlər onlara göstərilən diqqət və qayğıdan ruhlanaraq, dövlətçilik amallarına daim sadiq qalaraq ölkənin inkişafı və qüdrətlənməsi naminə bundan sonra da yüksək əzmlə çalışacaqlar. Fürsətdən istifadə edib bütün ədliyyə işçilərini və hakimləri 22 noyabr peşə bayramı və Azərbaycan ədliyyəsinin yaranmasının 100 illiyi münasibətilə ürəkdən təbrik edir, çətin və şərəfli işlərində onlara müvəffəqiyyətlər arzulayıram.

**İxtiyar ABUŞOV,**
**Saatlı Rayon Məhkəməsinin sədri.**

# Yenilənmiş məktəbdə yeni uğurlara doğru



Hər bir ölkənin inkişafını ölkənin intellektual potensialı müəyyən edir. Bugünkü dünyada savad, bilik hər şeyi müəyyən edir və bunun üçün Azərbaycanda - onun təhsil ocaqlarında hər cür şərait vardır. Təməli dahi Heydər Əliyev tərəfindən qoyulmuş təhsil islahatları bu gün Azərbaycan Prezidenti cənab İlham Əliyev tərəfindən uğur və ardıcıllıqla, müasir dövrün tələbinə uyğun olaraq davam etdirilir. Son illər ölkəmizdə vüsət almış yeni məktəblərin tikintisi və mövcud olanların əsaslı şəkildə təmiri, ümumiyyətlə, məktəblərin maddi-texniki bazasının genişləndirilməsi, şagirdlərin müasir tələblərə uyğun təhsil almalarına yaradılan hər cür şəraitin olması təhsilin keyfiyyətinin xeyli dərəcədə yüksəldilməsini təmin etmişdir. Bütün bunlar son illərdə özünü daha qabarıq şəkildə büruzə verməkdədir.

Bildiyimiz kimi, ölkə başçısı tərəfindən imzalanmış "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası"nın qəbul olunmasından artıq 5 il ötür və burada nəzərdə tutulan məsələlərin həlli üçün mühüm addımlar atılmış, uğurlu təhsil nəticələri əldə olunmuşdur.

Ölkəmizdə təhsilin inkişafında, onun maddi-texniki imkanlarının böyük dərəcədə genişləndirilməsində Mehriban xanım Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondunun da müstəsna xidmətləri var, "Yeniləşən Azərbaycana yeni məktəb" layihəsi bu sahənin inkişafında çox mühüm rol oynayıb.

Bu gün yeni məktəblərin tikintisi, təmirə ehtiyacı olanların əsaslı şəkildə təmiri və yenidən qurulması, hər cür yeni texnoloji tədris avadanlıqları ilə təminatı işləri uğurla davam etdirilir. Bu işlər həm paytaxt Bakıda, həm də regionlarımızda sürətlə aparılır. Təsadüfi deyil ki, hər il olduğu kimi, bu dəfə də sentyabr ayında ölkə başçısı cənab İlham Əliyev və Mehriban xanım Əliyeva paytaxtda



fəaliyyət göstərən, yeni tikilmiş və ya əsaslı şəkildə yenidən qurulmuş təhsil ocaqlarının açılışında iştirak etmişlər, məktəblərdə yaradılmış şəraitlə yaxından tanış olmuşlar.

Bildirim ki, rəhbəri olduğum 179 saylı orta məktəb 1936-cı ildən fəaliyyət göstərir. Son illər əhalinin xeyli dərəcədə çoxalması, artması ilə əlaqədar olaraq böyük sıxlıq yaranmışdı. Belə ki, 640 yerlik məktəbdə—4 növbədə 3 minə yaxın şagird təhsil alırdı. Bundan həm müəllim kollektivi, həm də şagirdlər həddən artıq əziyyət çəkirdi və bunlar, söz- süz ki, təhsilin keyfiyyətinə də öz mənfi təsirini göstərirdi. Böyük minnətdarlıq hissi ilə qeyd edirəm ki, bunları nəzərə alaraq ölkə başçısı yeni məktəbin tikintisi ilə əlaqədar göstəriş vermiş və 1416 yer nəzərdə tutulmuş geniş məktəb ən müasir tələblərə uyğun olaraq, yüksək keyfiyyətlə tikilərək istifadəyə verilmişdir. Məktəbdə bütün fənlər üzrə otaqlar, oxu zalı, yeməkxana, böyük idman zalı və s. ötən aydan etibarən yüksək səviyyədə fəaliyyət göstərir.

Məktəbin kollektivi ötən dərs ilində tədris şəraitinin sıx olduğu bir dövrdə böyük çətinliklərin olmasına baxmayaraq, tədrisin keyfiyyətinin artırılması üçün öz bilik və bacarıqlarını səfərbər etmişlər. Məktəbdə şagirdlərin təlim-tərbiyəsi ilə 148 nəfər təcrübəli müəllim çalışır. Məktəb ixtisaslı müəllimlərlə tam təmin olunub. 2017-2018-ci tədris ilində 197 nəfər şagird 9-cu sinfi, 111 nəfər şagird 11-ci sinfi bitirmişdir. 111 nəfərdən 56 nəfəri ali məktəblərə daxil olmuşdur. Bu göstəricilər arasında 15 nəfəri 500-695 arası bal toplamışdır. Məktəbin ali məktəblərə qəbul göstəricisi 50 faiz təşkil edib. Şagirdlərdən Nilufər Abdullayeva 695 — ADU, Firdovsi Quliyev — 635 balla Bakı Dövlət Universitetinə, Nərgiz İbrahimova — 619 balla, Həsənli Fəxri — 544 balla Azərbaycan Dövlət İqtisad Universitetinə, Əhmədli Bahar — 517 balla Bakı Dövlət Universitetinə, Eldost Məcidov — 563 balla Dövlət İqtisad Universitetinə daxil olmuşdur.

**Bəyaz NOVRUZOVA,**
**Binəqədi rayonu 179 saylı məktəbin direktoru.**

# Beynəlxalq Müəllimlər Günü qeyd edildi

## Bərdə

Tədbirdən əvvəl rayonun bir qrup qabaqcıl müəllimi ümummilli lider Heydər Əliyevin heykəli önünə tər gül-çiçək dəstələri qoyaraq xatirəsini yad etmişlər. Şəhər 8 nömrəli tam orta məktəbin şagirdləri müəllimləri şeirlə təbrik etmişlər.

Rayon icra hakimiyyətinin başçısının müavini, YAP rayon təşkilatının sədri Fəqət Şadlinskaya, rayonun ümumtəhsil məktəblərinin, Bərdə Dövlət İdarəetmə və Texnologiya Kollecinin, Peşə liseyinin kollektivlərindən bir qrupu, idarə, müəssisə və təşkilatların rəhbərləri, ictimaiyyətin nümayəndələri və KİV təmsilçiləri tədbirdə iştirak etmişlər.



Rayon icra hakimiyyətinin başçısının müavini, YAP rayon təşkilatının sədri Fəqət Şadlinskaya çıxış edərək rayon müəllimlərini 5 oktyabr — Beynəlxalq Müəllimlər Günü münasibəti ilə təbrik etmiş, əsası ulu öndər Heydər Əliyev tərəfindən qoyulan milli təhsil konsepsiyasından, möhtərəm Prezidentimiz cənab İlham Əliyevin rəhbərliyi altında aparılan dövlət təhsil siyasətinin uğurlarından, ölkənin Birinci vitse-prezidenti Mehriban xanım Əliyeva tərəfindən təhsillə bağlı həyata keçirilən çoxsaylı layihələr barədə, həmçinin müəllim əməyinə dövlət səviyyəsində verilən qiymətdən və rayon müəllimlərinin qazandığı uğurlardan danışmışdır.

Tədbirdə rayon təhsil şöbəsinin müdiri Rzaqulu Şərifov, 8 nömrəli tam orta məktəbin müəllimi Cəmilə Məmmədova, Bərdə Peşə liseyinin direktor müavini Rafiq Alıyev, Bərdə Dövlət İdarəetmə və Texnologiya Kollecinin direktor əvəzi Xaləddin Ələkbərov, Kətəlparaq kənd tam orta məktəbin direktoru Adib Salmanov və başqaları çıxış etmiş, müəllim əməyinə verilən qiymətə görə ölkə rəhbərinə minnətdarlıqlarını bildirmişlər.

Sonda rayonun qabaqcıl müəllimlərindən bir qrupuna rayon icra hakimiyyətinin, YAP Bərdə rayon təşkilatının və rayon təhsil şöbəsinin Fəxri -fərman və hədiyyələri təqdim edilmişdir.

## Tərtər

Tədbiri giriş sözü ilə rayon təhsil şöbəsinin müdiri Surxay Mirzəyev açaraq iştirakçıları Beynəlxalq Müəllimlər Günü münasibəti ilə təbrik etdi, Respublika Prezidentinin milli təhsilə göstərdiyi diqqət və qayğıdan danışaraq rayonun təhsil sahəsində qazandıqları uğurlardan söhbət açdı.

Tədbirdə iştirak edən rayon icra hakimiyyətinin başçısı Müstəqim Məmmədov müəllimləri peşə bayramları münasibəti ilə təbrik etdi. Ulu öndər Heydər Əliyev yenidən hakimiyyətə qayıtdıqdan sonra bütün sahələr kimi, təhsil sahəsinin də inkişaf etməyə başladığını, Azərbaycanın təhsil sisteminin beynəlxalq sistemə inteqrasiya olunduğunu qeyd etdi. Son illərdə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən təhsil sahəsində geniş islahatların həyata keçirilməsini, təhsilin inkişafına, təhsil müəssisələrində çalışan işçilərin əmək haqlarının və tələbələrin təqaüdlərinin artırılması məhz müəllimlərimizin, təhsil işçilərinin zəhmətinə verilən qiymətin təzahürü olduğunu vurğuladı. Ümumtəhsil ocaqlarının müasirləşdirilməsi və yeniləşdirilməsində Heydər Əliyev Fondunun da xidmətlərinin misilsiz olduğunu bildirdi. Rayon rəhbəri qeyd etdi ki, son 10 ildə rayonda 20 məktəbdə yeni məktəb tikintisi və yenidənqurulma işləri aparılmışdır, hazırda isə Zolgəran kənd ümumi orta və Kovdadıq kənd ibtidai məktəbləri üçün modul tipli məktəblərin quraşdırılması üçün hazırlıq işləri aparılır.

Müəllimlərimizin əməyinə verilən qiymətin bariz nümunəsidir ki, ümumtəhsil məktəblərində çalışan müəllimlərdən 6 nəfəri "Əməkdar müəllim" fəxri adına, 7 nəfəri "Tərəqqi" medalına la-



yiq görülüb, 4 nəfər Azərbaycan Respublikasının "Qabaqcıl təhsil işçisi" döş nişanı ilə təltif edilmişdir. Respublika Prezidentinin Sərəncamı ilə şəhər 6 saylı tam orta məktəbin müəllimi Tahirə Quliyeva "Əməkdar müəllim" adına layiq görülmüşdür.

Tədbirdə çıxış edən Qapanlı kənd tam orta məktəbinin direktoru Fitat Əliyeva, şəhər 6 nömrəli tam orta məktəbin müəllimi Mülayim Məmmədova və başqaları bayram sevinclərini bölüşdülər.

Sonra icra başçısı bir qrup müəllimə rayon icra hakimiyyəti, YAP rayon təşkilatı və təhsil şöbəsi tərəfindən Fəxri fərmanlar və qiymətli hədiyyələr təqdim etdi.

Tədbir konsert proqramı ilə davam etdirlidi.

**Vəli VƏLİYEV,**
**"Respublika".**

# "Mədəniyyətlərin dialoqu" layihəsinin təqdimatı

## *Bakı - Blaqoveşşensk arasında telekörpü*

Bakı Şəhər Mədəniyyət Baş İdarəsi Yasamal rayon MKS-i tərəfindən yeni layihə reallaşdırılır. "Mədəniyyətlərin dialoqu" layihəsi tolerant davranışın formalaşmasına yönəlmiş və 10-a yaxın tədbirin təşkilini nəzərdə tutur.

"Mədəniyyətlərin dialoqu" layihəsi çərçivəsində Yasamal rayon MKS-nin M.Ş.Vazeh adına Mərkəzi Kitabxanası Rusiya Federasiyasının A.P.Çexov adına Blaqoveşşensk Şəhər Kitabxanası ilə birgə "İnformasiya hamı üçün" UNESCO Proqramının Azərbaycan komitəsinin təşkilati və informasiya dəstəyi ilə "Poeziya - sərhədsiz məkan" adlı maraqlı tədbir keçirmişdir. Tədbir telekörpü formasında aparıldı.

Azərbaycan Milli Konservatoriyasının tələbəsi, Beynəlxalq müsabiqələr laureatı İslam Qasımovun ifasında Müslüm Maqomayevin "Azərbaycan" və "More" mahnıları alqışlarla qarşılandı.

Telekörpünü giriş sözü ilə Yasamal rayon MKS-nin direktoru, ELNİT Beynəlxalq Assosiasiyasının İdarə heyətinin üzvü Lətifə



Məmmədova açaraq tədbir iştirakçılarını salamladı və layihə haqqında məlumat verdi. O qeyd etdi ki, müasir kitabxana - tolerantlıq məkanı, mədəniyyətlərin dialoqu mərkəzidir. Kitabxana insanlara xalqların adət-ənənələri, mədəniyyəti haqqında sərbəst, qərəzsiz, ehtiramlı məlumat verir.

Telekörpüdə tanınmış Azərbaycan şairlərinin şeirləri Amur şairləri tərəfindən rus dilinə yeni tərcümə olunmuş şeirləri ilk dəfə səsləndirilmişdir.

M.Ş.Vazeh adına Yasamal rayon Mərkəzi Kitabxanasının kitabxanaçıları Yeganə Qafarova, Sevil Namazova, Aysel İsmayılova, Aynur Cavadova, Nigar Qurbanova tərəfindən Abdulla Şaiqin, Cabir Novruzun, Məmməd Arazın, Məmməd Aslanın, İlyas Tapdıqın, Eldar Baxışın şeirləri Azərbaycan dilində səslənmiş, sonra isə bu şeirlər Amur şair və yazıçılarının ifasında rus dilində söylənilmişdir.

Tədbirdə Amur Vilayət Yazıçılar təşkilatının, Rusiya Yazıçılar İttifaqının Amur şöbəsinin üzvləri, şəhər Şairlər Klubunun və Bakı şəhərinin şair və yazıçıları, jurnalistlər, poeziya həvəskarları iştirak etdilər.

Tədbirdə yazıçı-publisistlər, Azərbaycan Yazıçılar Birliyinin və Azərbaycan Jurnalistlər Birliyinin üzvləri Reyhan Mirzəzadə və Zöhrə Əsgərova, Yasamal rayon Qadınlar Cəmiyyətinin sədri Gülnarə Əmirquluyevanın çıxışı oldu.

Sonra telekörpü iştirakçılarının dialoqu baş tutdu. Ən yaxşı tərcüməçilər və ifaçılar A.P.Çexov adına Blaqoveşşensk Şəhər Kitabxanasının Fəxri fərmanları ilə təltif olundular.

Rusiya Yazıçılar İttifaqının üzvləri Nikolay Levçenko, Stanislav Saxonçik, Rusiya Yazıçıları İttifaqının Regional şöbəsinin sədri Qalina Odintsova tədbirdə qonaq qismində iştirak etdilər.

**Əli SADIQOV,**
**"Respublika".**

# Daşkəsən: təhsil islahatları uğurla icra olunur



Son illər Azərbaycanda təhsil islahatları inkişaf etmiş dövlətlərin təhsil islahatları ilə uzlaşaraq, ölkədə təhsilin sürətli inkişafı istiqamətində mühüm addımlar atılır. Təhsilin normativ-hüquqi bazası təkmilləşdirilmiş, maddi-texniki təminatı istiqamətində Daşkəsən rayonunda da bütün sahələrdə olduğu kimi təhsildə uğurlar diqqəti çəkir.

**Rayon Təhsil şöbəsinin müdiri Zaur Məmmədovdan** məktəblərdə təhsilin vəziyyəti, perspektivləri və qazanılan uğurlar haqqında məlumat verməyini xahiş etdik. O, ölkədə gedən davamlı inkişafdan və həyata keçirilən uğurlu təhsil islahatlarından söhbət açaraq qeyd etdi ki, respublikamızın bütün bölgələrində olduğu kimi Daşkəsən rayonunda da təhsil ocaqları müasir səviyyədə yenidən qurulmuş, maddi-texniki bazası, ən önəmlisi isə tədrisin keyfiyyəti əsaslı surətdə yaxşılaşmış, hazırda bu tendensiya davam etməkdədir.

Ölkə başçısı cənab İlham Əliyevin diqqət və qayğısı, həmçinin Heydər Əliyev Fondunun dəstəyi ilə təhsil sahəsində köklü islahatlar aparılır, milli təhsilimizin inkişaf etmiş ölkələrin təhsilinə inteqrasiya olunur.

Möhtərəm Prezident cənab İlham Əliyevin 2013-cü il 24 oktyabr tarixli sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası" sənədində təhsilin keyfiyyəti başlıca strateji prioritet elan olunmuş, ümumi təhsil müəssisələrinin şagird və məzunlarının keyfiyyət göstəricilərinin yaxşılaşdırılması aktual məsələ kimi irəli sürülmüşdür. Ölkəmiz üçün müasir düşüncəli və rəqabət qabiliyyətli insan kapitalının formalaşmasında ümumi təhsilin rolu böyükdür. Ona görə də ümumi təhsilin səmərəlilik və effektivliyinin yüksəldilməsi, şagirdlərin dövrün çağırışlarına uyğun, keyfiyyətli təhsillə əhatə olunması, onların cəmiyyətdə hərtərəfli şəxsiyyət, vətənpərvər ruhlu yetkin vətəndaş kimi yetişməsi mühüm vəzifə hesab olunmuşdur. Şagirdlərə dərsliklərin pulsuz verilməsi, bölgələrdə təlim-tərbiyə şəraitinin yaxşılaşdırılması, yeni məktəb binalarının inşası, əvvəlkilərin əsaslı təmiri və müasir avadanlıqlarla, o cümlədən informasiya-kommunikasiya texnologiyaları ilə təchizi, pedaqoji kadrların seçilib yerləşdirilməsində qayda dəyişikliklərinin edilməsi, müəllimlərin peşəkarlıq səviyyəsinin yüksəldilməsində sağlam rəqabətin yaradılması və onların əmək haqqının artırılması ilə nəticələnən qiymətləndirmələrin keçirilməsi, istedadlı şagirdlərin olimpiada hərəkatının gücləndirilməsi, dövlət ümumtəhsil məktəblərində uşaqların məktəbəhazırlıq təhsilinin təşkili, tam orta təhsil səviyyəsində təhsilin təmayülləşməsinin tətbiqi ümumi təhsilin keyfiyyətinə birbaşa təsir göstərən əhəmiyyətli tədbirlərdəndir.

"Təhsildə keyfiyyət ili" elan olunmuş 2017-ci ildə Daşkəsən rayonu üzrə ümumi təhsil müəssisələrində xeyli işlər görülmüş və bu sahədə işlər davam etdirilir. Nəzərdə tutulan tədbirlərin icrası ilə bağlı Daşkəsən Rayon Təhsil Şöbəsinin Fəaliyyət Planı hazırlanmışdır. Təhsil nazirinin 14 avqust 2018-ci il tarixli əmri ilə ümumi təhsil sahəsində 2018-2019-cu dərs ilinin prioritet fəaliyyət istiqamətləri təsdiq olunmuşdur. Ümumi təhsilin müasir tələblərə uyğun inkişafına təminat verən bu əmrdə təhsilin keyfiyyəti ilə bağlı Nazirliyin Fəaliyyət Planında nəzərdə tutulmuş mahiyyətcə inkişafyönümlü tədbirlərin 2018-2019-cu dərs ilində də davam etdirilməsi qeyd olunmuşdur. Əmrdə fənlər üzrə şagird nəticələrinin əvvəlki illərə nisbətən əhəmiyyətli dərəcədə yaxşılaşdırılması, məktəbdə şagird kontingentinin tam optimallaşdırılması, məktəbəhazırlıq qruplarında həyata keçirilən təhsil prosesinin müəyyən olunmuş proqram istiqamətləri üzrə təmin edilməsi, müəllim fəaliyyətinə müntəzəm nəzarət edilməsi və davamlı metodik dəstək verilməsi, ibtidai sinif müəllimlərinin fəaliyyətinin peşəkarlıq baxımından təhlil olunması və siniflərə təyinatda nəzərə alınması, şagirdlərin seçilmiş tədris dili, dövlət dili kimi Azərbaycan dili, Azərbaycan tarixi və coğrafiyası üzrə praktik bilik və bacarıqlarının, məlumatlılıq səviyyəsinin təkmilləşdirilməsi və genişləndirilməsi və sairlər nəzərdə tutulmuşdur. Eyni zamanda, yeni dərs ilində ilk dərsin ibtidai siniflərdə "Vətənim Azərbaycan", V-IX siniflərdə "Dövlət rəmzləri - müstəqilliyimizin simvolu", X-XI siniflərdə "Azərbaycan Xalq Cümhuriyyəti - Dövlətçiliyimizin bayraqdarı" mövzularına həsr olunmuşdur.

Rayonumuzun bütün müəllimləri təhsil sahəsinin inkişafı, mövcud problemlərin aradan qaldırılması istiqamətində aparılan islahatları ürəkdən dəstəkləyir.

Respublikamızın hər yerində olduğu kimi Daşkəsən rayonunda da təhsil islahatının həyata keçirilməsi, ümumtəhsil məktəblərin maddi-texniki bazasının möhkəmləndirilməsi, şagirdlərin elmi biliklərə dərindən yiyələnməsi üçün normal şəraitinin yaradılması, tədris prosesinin təkmilləşdirilməsi sahəsində uğurlu nəticələr əldə edilmişdir.

Rayonun təhsil ocaqlarında gənc nəslin təlim-tərbiyəsi ilə 605 müəllim məşğul olmuşdur ki, onlardan 418 nəfərini qadınlar təşkil edir. Təhsil sahəsində qazandıqları nailiyyətlərə görə 6 nəfər "Əməkdar müəllim" adına, 5 nəfər "Tərəqqi" medalına layiq görülmüşdür.

Ötən dərs ilində ümumtəhsil məktəblərinə 3333 şagird cəlb edilmiş, onlardan 1754 şagird şəhər və qəsəbə, 1579 şagird isə kənd məktəblərində təhsil almışdır.

Hər bir ümumtəhsil məktəbi üzrə qabiliyyətli şagirdlər qeydiyyata götürülmüş, onların maraq və yaradıcılıq meyilləri nəzərə alınmaqla istedad bankı yaradılmışdır. 2018-ci ilin aprel-may aylarında əlamətdar gün və hadisələrə həsr olunmuş respublika inşa-yazı müsabiqəsində rayonumuzun gənc istedadları da yaxından iştirak etmiş, mükafata layiq yerlər tutmuşlar. Ümumilikdə səkkiz fənn üzrə keçirilən bilik yarışlarında 142 nəfərdən çox şagird iştirak etmişdir.

2017-2018-ci tədris ilində ümummilli lider Heydər Əliyevin anadan olmasının 95-ci ildönümünə həsr olunmuş ümumtəhsil məktəb şagirdləri arasında "Ən yaxşı təqdimat" müsabiqəsi keçirilmişdir. Ötən dərs ilində rayonun məktəbli gəncləri bir sıra respublika əhəmiyyətli müxtəlif nominasiyalar üzrə müsabiqə və yarışların iştirakçıları olmuşlar. Rayonun Uşaq-Gənclər İdman-Şahmat Məktəbində gənc istedadların potensial imkanlarının inkişafı, uşaqların şahmat oyunun sirlərinə dərindən yiyələnməsi üçün məzmunlu tədbirlərin həyata keçirilməsinə böyük önəm verilir. Həmin məktəbin fəaliyyəti qənaətbəxş olmuşdur. Belə ki, rayonun məktəbli idmançıları bir sıra respublika və zona idman yarışlarında rayonumuzun idman şərəfini layiqincə qorumuş, xüsusilə güləş, voleybol, tennis yarışlarında mükafata layiq yerlər tutmuşlar.

Keçən tədris ilində Uşaq-Gənclər İnkişaf Mərkəzində müxtəlif dərnəklərində məşğul olan şagirdlərin əl işlərinin, çəkdikləri rəsmlərin ən yaxşıları respublika müsabiqəsində nümayiş etdirilmişdir.

Ötən illərdən fərqli olaraq şagirdlərin dərsliklərlə təmin olunması məsələlərinə diqqət artırılmışdır. İndiyə qədər ümumtəhsil məktəblərinə paylanmaq üçün 285 adda 16158 ədəd dərslik və müəllimlər üçün metodiki vəsait gətirilərək məktəblər arasında bölünmüşdür.

Ötən dərs ilinin yekunları göstərir ki, rayonun ümumtəhsil məktəblərinin, məktəbdənkənar tərbiyə müəssisələrinin fəaliyyətində qazanılmış uğurlar ürəkaçandır.

Təhsil Şöbəsinin müdiri Zaur Məmmədov sonda, təhsilə göstərilən sonsuz diqqət və qayğıya görə dövlət başçısı İlham Əliyevə Daşkəsən rayonunun pedaqoji kollektivləri adından dərin minnətdarlığını bildirdi.

**Zabit XƏLİLOV,**
**"Respublika".**

# Qax: Əhaliyə nümunəvi xidmət göstərilir

**Hər dəfə yolumu Qax Rayon Mərkəzi Xəstəxanasından salanda uzun illər bu müəssisəyə rəhbərlik edən respublikanın "Əməkdar həkimi" fəxri adını daşıyan, peşəsini sevə-sevə işlədib ömür sürən, böyük hörmət və nüfuz sahibi olan rəhmətlik Fərman Əhmədzadə ilə ilk görüşümü və bu görüşdə özüm üçün yeni bir həyat, fəaliyyət proqramını yaddaşıma əbədi həkk etdiyim günü yadıma salıram. Dünyasını dəyişsə də, indi də hamının ürəyində yaşayır.**

Əlbəttə, işinin bilicisi olmaqla yanaşı, təvazökarlığı, ağıllı, dəyərli məsləhətləri, ən başlıcası da yüksək qayğıkeşliyi və alicənablığı ilə. Mənim üçün ən gözəl təsadüf oldu ki, baş həkim Tərlan



Əhmədzadə rayonda olmadığına görə poliklinika şöbəsinin müdiri Camal Hacıyevlə vaxtı ilə rəhmətlik Fərman həkimin oturduğu kabinetdə görüşməli oldum. Kabinetlə tanışlığıma görə bir anlığa Fərman həkimlə ilk söhbətimin həyatdakı reallıqları gözlərim qarşısından kino lenti kimi gəlib keçdi. Şöbə müdiri ilə birlikdə mərkəzi xəstəxanada xidmətin təşkilinə səyahətdən ayrı-ayrı həkim və tibb işçiləri ilə danışıqlarımızdan bir təskinlik tapdım ki, oğul - Tərlan Əhmədzadə, ata - Fərman Əhmədzadənin yolunu özünə xas fəaliyyətlə davam etdirir, ən başlıcası burada əhalinin sağlamlığı keşiyində ayıq-sayıq dayanılır, xidmətin keyfiyyətinə xüsusi fikir verilir. Xəstəxananın poliklinika şöbəsində hər gün 150-200 nəfərin qəbul olunması faktı da bunu diktə edir.

Ölkə başçısının tapşırığına əsasən hər il əhalinin pulsuz müayinə edilməsi aksiyası Qax rayonunda da uğurla həyata keçirilir. Bu il 40 min qaxlıya bu cür xidmət göstərilmişdir. Müayinələr zamanı 10 nəfər Bakı şəhərinə ixtisaslaşmış tibb ocaqlarına, 6 nəfər cərrahi əməliyyata, 4048 nəfər ambulator müalicəyə cəlb olunmuşdur. Qeydiyyatda olan 800-ə yaxın şəkərli diabet xəstəsi pulsuz dərman preparatı ilə təmin olunur. Bir sözlə, rayon mərkəzi xəstəxanası ilə yanaşı, 2 kənd xəstəxanasında, 10 həkim məntəqəsində əhaliyə lazımi səviyyədə xidmət göstərilir.

**Su aydınlıqdır.** Sədrəddin Məmmədov da iyirmi üç ildir ki, bu xeyirxahlıqla elinin, obasının sayılıb-seçilən, tanınan, hörmətli adamı kimi çağırılır. İyirmi üç ildir Qax rayonunun əhalisini içməli su ilə təmin edən kollektivin rəhbəridir. İşinin bilicisi, vəzifəsinin məsuliyyətini heç vaxt unutmayan, əhaliyə nümunəvi xidmət göstərilməsini fəaliyyətinin ana xətti sayan kadrdır. Nəinki Qaxda, eləcə də ətraf Zaqatala, Balakən rayonlarında da müvafiq qurumun idarəedicilərinin də çox vaxt Sədrəddin Məmmədovun idarəetməsindən, müəssisəsinin səviyyəli xidmətindən lazım gələndə bəhrələyindiyinin də dəfələrlə şahidi olmuşam. S.Məmmədov deyir:

—Son bir neçə ilə kimi rayonumuzda bu istiqamətdə xidmətdə, yəni əhaliyə içməli su verməkdə çətinliklərlə üzləşirdik. Müxtəlif mənbələrdən götürülən sular köhnəlmiş, hətta bir çox ünvanlarda istismar müddətini başa vurmuş xətlərlə yerlərə çatdırılırdı. Su xətlərinin çəkilişində pərakəndiliyə yol verilir, hətta yerli-yersiz müdaxilələr də olurdu. Bu isə nəticədə rayonun bəzi yerlərində su çatışmazlığına, əhalinin narazılığına səbəb olurdu. Artıq bütün bunlara son qoyulub. Ölkəmizin hər yerində olduğu kimi, rayonumuzda da sosial-iqtisadi inkişafa dair dövlət proqramına uyğun bu istiqamətdə də əsaslı işlər görülməyə başlanıb.

İdarə rəisi ilə söhbətimizdən öyrəndik ki, rayonda 129 kilometr uzunluğunda yeni, müasir standartlar səviyyəsində su xətti çəkilməsi, 88 kilometr uzunluğunda kanalizasiya sisteminin qurulması planlaşdırılıb. Artıq ana su xətlərinin çəkilişi başa çatdırılıb. Kanalizasiya xətlərinin çəkilişi sahəsində də xeyli işlər görülüb. Su həyatdır. Qaxda müxtəlif mənbələrdən götürülən sular çənlərə vurulur, rayon mərkəzinə ötürülür və bu əvəzsiz nemətdən qaxlılar bəhrələnirlər. 5670 abonent yeni kəmərlərlə gətirilən sudan istifadə edir. Ümumi abonentlərin sayı isə 6670 nəfərdir. Rayonun 3 kəndinin - Qaxbaş, Qax İngiloy və Qışqaçay kəndlərinin sakinləri də özügedən xidmət müəssisəsinin xidmətindən istifadə edir. 5050 abonentin həyətində yeni su sayğacları quraşdırılmışdır. Su çəkilişi davam edir.

Qaxın digər xidmət təşkilatlarındakı işgüzarlıq da ürəkaçandır. Götürək elə kommunal müəssisələri kombinatını. Kombinatın əsas fəaliyyəti şəhər sakinlərinə və sahibkarlıq subyektlərinə, eləcə də idarə, müəssisə və təşkilatlara sanitar təmizləmə, yaşıllaşdırma, işıqlandırma və camaşırxana xidmətlərinin göstərilməsi təşkil edir. Şəhərdəki 3 uşaq müəssisəsinin istilik sistemlərinə də kombinat tərəfindən xidmət göstərilir. Ümumilikdə, şəhərin 417296 kvadratmetr sahəsinə təmizlik xidməti, başqa sözlə, fərdi müqavilələr əsasında 1702 sayda təsərrüfat subyektinə, 663 sayda kommunal evdə yaşayan abonentə və 229 sahibkara xidmət göstərilir. İlin birinci yarısında əhali və sahibkarlıq subyektlərinə göstərilmiş xidmətlərin müqabilində ƏDV daxil olmaqla 18385, 25 manat vəsait mədaxil edilmişdir. Müəssisə və təşkilatlardan tullantıların daşınması xidməti üzrə 8781,23 manat gəlir əldə edilmişdir. İlin ikinci yarısının ötən dövründə kombinat tərəfindən şəhər ərazisində daşınmış 9020 kubmetr həcmində bərk məişət tullantılarının tullantı emalı poliqonunda zərərsizləşdirilməsi təmin edilmişdir.

Şəhərin küçə və parklarında 80 ədəd Amerika tuyası və 6 ədəd Kanada küknarı konika növlərindən ağac tingi, 255 ədəd qızılgül, 2 ədəd azaliya və 2 ədəd başınağac kolu, 9450 ədəd beqoniya, 900 ədəd petuniya, 1000 ədəd balbagülü, 135 ədəd taqates və 180 ədəd xoruzpipiyi növünə aid çiçəklər əkilmişdir. 150 kvadratmetr sahəyə çəmən toxumu, 300 kvadratmetr sahəyə isə taqates çiçəyi toxumu səpilmişdir. Mövcud yaşıllıqların gübrələnməsi təmin edilmişdir. Şəhərin 70 küçə və prospektinin, eləcə də 9 park və bağın işıqlandırılmasına dair müqavilənin şərtlərinə də lazımınca əməl olunur. Rayon mərkəzindəki və 5 saylı körpələr evi-uşaq bağçalarını istilik enerjisi ilə təmin edilməsinə, qazanxana sistemlərinin yararlı halda saxlanılmasına və proses zamanı meydana çıxan problem-



lərin operativ şəkildə həll olunmasına da xüsusi diqqət yetirilir. Kombinatın direktoru **Eldəniz Şabanovla** söhbətimizdən, birlikdə gəzib gördüklərimizdən tam yəqinləşdirdik ki, Qaxın gözəlliyi kimi, təmizliyi də göz bəbəyi kimi qorunur.

Qaxda əhalinin sosial həyatında rolu olan 3 xidmət təşkilatının fəaliyyətindən qısa söhbət açdıq. Onlar çoxdur. Bu gün rayonda əhalinin təbii qazdan istifadəsi, fasiləsiz elektrik enerjisi ilə təmin olunması, yeni yolların tikilməsi, köhnələrinin əsaslı təmir olunması və qaxlıların bu gün həyatının daha da yaxşılaşdırılmasına böyük təkandır.

**Rasim AMANOV,**
**"Respublika".**

# Əbədiyyətə qovuşmuş dahi bəstəkar Üzeyir Hacıbəyli

**Professional (*çoxsəsli*) musiqi mədəniyyətinə keçid hər bir millətin mənəvi-estetik mədəniyyətində keyfiyyətcə yeni bir mədəni mərhələ sayılmaqdadır. Təbii ki, müxtəlif xalqlar belə bir yeni estetik təfəkkür tərzinə sahib bədii mədəniyyətə heç də eyni bir tarixi dövrdə malik olmamışdı. Artıq XIV-XV əsrlərdən başlayaraq bir çox qərb ölkələrində humanizm, sosial bərabərlik və azadlıq ideallarını ifadə edən İntibah dünya görüşünün təsiri altında sənətdə, eyni zamanda musiqi sənətində yeni-yeni bədii hadisələrin, bədii ifadə və təsvir vasitələrinin meydana gəlməsini hiss etmək mümkün idi. Eyni zamanda İtaliyada, Fransada, Almaniyada, İngiltərədə, XIX əsrin əvvəllərindən isə Rusiyada və bir çox digər ölkələrdə belə tədricən professional *(çoxsəsli)* musiqinin yaranması və inkişafı prosesini izləmək mümkün olurdu.**

Belə bir meyil bir tərəfdən sənətkarın orta çağlardakı məhdud, təhkimçilik vəziyyətində olmasına qarşı çıxan etirazından, sənətdə azad olmaq arzusundan qaynaqlansa da, digər tərəfdən xalq milli musiqi folklorunu, yeni bir estetik mərhələyə çatdırmaq, onun ən gözəl nümunələrini, intonasiya və ritmik xüsusiyyətlərini digər millətlərə, xalqlara da sevdirmək istəyindən irəli gəlirdi. Sırf bu, tarixi baxımdan da özünü isbat etmiş yaradıcılıq təşəbbüsü və üsulundan dolayı yavaş-yavaş sənətkarların, bu sırada bəstəkarların da konkret olaraq adları duyulmağa başlayır, bir çox professional çoxsəsli milli musiqi *ekollarının* meydana gəlməsi və formalaşması prosesi onların adı ilə əlaqələndirilməsi həqiqəti ortaya çıxır. Hazırda dünya professional musiqi mədəniyyətinin meydana gəlməsi və inkişafı prosesi Glük, Montoverdi, Hendel, Korelli, Bax, Haydn, Motsart, Bethoven, Brahms, Şopen, List, Berlioz, Bize, Grik, Rodriges, Glinka, Çaykovskiy və başqalarının adları ilə əlaqələndirilir. Eyni zamanda bu bəstəkarların adları bir çox milli *çoxsəsli* professional musiqi mədəniyyətlərinin simvolu, nümayəndəsi kimi də səslənməkdədir. Təbiidir ki, belə bir adı qazanmaq o qədər də asan deyil. Yalnız öz xalqının mənəvi-mədəni dəyərlərinə, ictimai-tarixi hadisələrinə əhəmiyyət verən, onları zamanın istəklərinə uyğun olaraq bədii bir şəkildə əks etdirə bilən sənətçilər əbədiyyətə qovuşa, xalqının yaddaşında və milli mədəniyyətinə daxil ola bilirlər. Belə böyük şəxsiyyətlərdən biri də Üzeyir Hacıbəyli idi.

Azərbaycan çoxsəsli musiqi mədəniyyətinin yaradıcısı sayılan Üzeyir bəy öz çoxyönlü fəaliyyəti (o bəstəkarlıq fəaliyyəti ilə birlikdə bir musiqişünas-alim, tənqidçi, ssenari müəllifi, jurnalist, tərcüməçi, pedaqoq və s. kimi də şöhrət qazanmışdır) ilə ayrılan, eyni zamanda professional musiqi mədəniyyətinin yaradılması yolunda mübarizə aparan, öz bir-birindən gözəl əsərləri ilə milli musiqi-estetik prinsiplərinə əsaslanaraq çoxsəsli musiqinin meydana gətirilməsini sübut edən bir şəxsiyyət, bir bəstəkar kimi Azərbaycan və XX əsr dünya musiqi mədəniyyəti tarixinə damğasını vura bilmişdir.

Dünyanın bir çox tanınmış sənətkarları, eyni zamanda bəstəkar və musiqişünasları Üzeyir Hacıbəylinin həqiqətən də nadir bir şəxsiyyət, bəstəkar və musiqişünas olmasını etiraf etmişdilər. Bu baxımdan, XX əsrin ən tanınmış bəstəkarları və musiqişünaslarından sayılan Dm.Şostakoviç, S.Prokofyev, A.Xaçaturyan, R.Glier, B.Asafyev, Y.Belyayev və başqalarının tərifyanə söylədikləri sözlər xüsusilə böyük əhəmiyyət daşımaqdadır.

Həqiqətən də Üzeyir bəyin Azərbaycanda professional (çoxsəsli) musiqi mədəniyyətinin yaradılması, inkişaf etdirilməsi yolundakı müstəsna səyləri, çoxyönlü fəaliyyəti və əzmli mübarizəsi insanı heyran qoyur. XX əsrin əvvəllərində mühafizəkar qüvvələr, həddindən artıq milliyyətçi ruhlu kimsələr, köhnə mənəvi-etik və estetik dəyərlər sistemindən kənara çıxmaq istəməyən ictimai güclər və bu sırada aşırı dini qruplar, eyni zamanda xalqın geniş bir kütləsinin məlumatsız olması, yeni-yeni bədii-estetik hadisələrin reallaşdırılması prosesinə böyük əngəllər yaratmaqda idi. Unutmamaq lazımdır ki, bu söylədiklərimiz səbəblərdən dolayı yenilikçilik (novatorçuluq) meyillərini müdafiə edən, onları yayan və reallaşdırmağa diqqət göstərən nadir şəxsiyyətlər ciddi bir şəkildə təqib edilir, bəzən fiziki baxımdan belə məhv edilirdilər. Məsələn, H.Ərəblinski kimi məşhur bir teatr aktyorunun teatr sənətinin inkişafı, yayılması yolundakı böyük nüfuz sahibi olması və müvəffəqiyyətlərindən rahatsızlanan bəzi ictimai qüvvələr onun qətlinə belə qərar vermişlər. Belə bir mürəkkəb tarixi dövrdə Üzeyir Hacıbəyli heç bir zaman təqib, hədə-qorxulardan, hətta təhqirlərdən belə qorxmamış, xalqın gələcək həyatını, demokratiya yolunda irəliləməsini, yeni-yeni mütərəqqi ictimai-mədəni meyillər, eyni zamanda bədii-estetik hadisələrdən kənarda qalmamış və bu yolda ardıcıl olaraq mübarizə aparmışdır.

XX əsrin əvvəllərində demokratik prinsipləri müdafiə edən, milli dəyərlərin bəşəri dəyərlər səviyyəsinə yüksələ biləcəyinə inanan, eyni zamanda onun bəşəri dəyərlərə heç də düşmən olmadığını görə bilir, əsrin böyük Azərbaycan mütəfəkkirləri Əlibəy Hüseynzadə, M.Ə.Rəsulzadə, Cəlil Məmmədquluzadə, M.Ə.Sabir, Əzim Əzimzadə və başqaları ilə eyni ideoloji platformada duran Üzeyir Hacıbəyli sənət, mədəniyyət, eyni zamanda müzikoloji, teatrşünaslıq, filologiya, tərcümə problemləri ilə əlaqədar onlarca maraqlı məqalələrinin yanında öz musiqi əsərləri ilə də hər zaman xalqın milli tarixi dəyərlərinə təməllənən yenilikçilik ideallarını, onun istək və arzularını, azadlıq və müstəqillik uğrunda verdiyi mübarizələrini ifadə etməyə çalışmışdır. Gənc yaşlarından professional musiqi mədəniyyətinin incəliklərinə dərin maraq göstərən Üzeyir bəy hələ Qori Seminariyasında (liseyində) oxuduğu illərdə skripka çalmağı öyrənir, klassik dünya bəstəkarlarının əsərləri ilə tanış ola bilir. İrəlidə o, məşhur Peterburq konservatoriyasında oxuduğu zaman öz professional təcrübə və bəstəkarlıq texnikasını daha da inkişaf etdirməyə başlayır. Bəstəkarlıq texnikaları, harmoniya, polifoniya, orkestrləşdirmə, partitura oxunuşu kimi dərsləri o zamanın tanınmış musiqiçilərindən alan Üzeyir bəy, heç şübhəsiz, irəlidə yaradıcılığında onlardan məharətlə istifadə etmişdir. Peterburqda oxuduğu illərdə belə o, yaradıcılıqdan qopmamış, “Arşın mal alan”, “O olmasın, bu olsun”, “Ər və arvad” kimi ölümsüz musiqili komediyalar üzərində çalışmışdır. Zamanının ictimai haqsızlıqlarını, eyni zamanda ömrünü sürmüş və cəmiyyətin inkişafına daha çox mane olan ənənə və adətləri üzə çıxaran Üzeyir Hacıbəyli bu əsərlərində öz yazıçılıq qabiliyyətini də göstərmiş oldu. Həqiqətən, bu musiqili komediyalarının mətnləri də ona aid idi. Üzeyir bəy bu əsərləri ilə həm bəstəkar, həm də yazıçı kimi böyük uğur qazanmışdır. Komediyalarının musiqi parçaları bu gün də Azərbaycanda musiqisevərlərin dilindən düşmür, buradakı yumor dolu səhnələr isə hər zaman gülüş, sevinc və xoş bir ruh halı gətirməkdədir. Bu musiqili komediyaları daha sonralar kinematoqrafiya vasitəsilə beynəlxalq rəğbət qazanmış oldı. “Arşın mal alan” musiqili komediyası, eyni zamanda eyniadlı filmi dünyanın bir çox ölkələrində - ABŞ-da, Fransada, Almaniyada, İranda, son zamanlarda Türkiyədə belə tamaşaçıların və dinləyicilərin rəğbətini qazanmışdır. Azərbaycanda bir çox aktyorların, xüsusilə də komediya ruhlu aktyorların yetişməsində, eyni zamanda müğənnilər dəstəsinin inkişafında bu musiqili komediyanın son dərəcə böyük rolu olmuşdur. Unutmamaq lazımdır ki, bu komediyaların meydana gəldiyi dövrdə Azərbaycanda hələ professional sənət təhsili verən musiqiçilər, bu sırada Gözəl Sənətlər Universiteti, Musiqi Akademiyası, Dram Teatrı, Opera və Balet Teatrı və s. yox idi. Adlarını zikr etdiyimiz bu komediyalar demək olar ki, bu professional sənət sahəsinin funksiyasını da yerinə yetirmiş olurdu. Daha doğrusu, komediyalarda iştirak edən aktyorların əksəriyyəti böyük qabiliyyətə sahib amatör (özfəaliyyət) aktyorların və solistlərdən ibarət idi və onların musiqili komediya səhnəsinə gəlişi birbaşa Üzeyir bəyin təşəbbüsü və uzaqgörənliyi sayəsində mümkün olmuşdur. Azərbaycan teatr və kino sənətinin təməlini qoymuş unudulmaz sənətçilərdən M.A.Əliyev, M.Mərdanov, A.Gəraybəyli, B.Şəkinskaya, L.Cavanşirova, R.Behbudov və başqalarının adları sırf bu əsərlərlə bağlı olmuşdur. Eyni sözləri Üzeyir bəyin meydana gətirdiyi səhnə əsərləri olan ilk operaları haqqında da söyləmək mümkündür. Hələ 1908-ci ildə səhnələşdirdiyi “Leyli və Məcnun” operasında bəstəkar zamanının tanınmış xalq musiqiçiləri və aktyorlarını bir araya gətirmiş, zamanı üçün mükəmməl bir opera əsərini ortaya qoya bilmişdir. Bu iş tamamilə xalq musiqisi nümunələrinə, həmçinin zəngin klassik muğam sənətinə əsaslanırdı. Xalq arasında muğamların böyük psixoloji-emosional (duyğulu) əhəmiyyətini və təsir gücünü gözəl bilən Üzeyir bəy bu ilk operasında muğam nümunələrindən geniş bir şəkildə, həm də əsərin (dramaturji axarına və qəhrəmanların psixoloji ruh halına uyğun olaraq böyük bir məharətlə istifadə edə bilirdi. Bəstəkar bu əsərində hər bir muğama xas emosional məzmunu və romantik xüsusiyyətləri mükəmməl bir şəkildə hiss etdiyini sübut edə bilir. Unutmamaq lazımdır ki, o, Azərbaycanda klassik muğam sənətinin beşiyi olan Qarabağda, gözəl Şuşa şəhərində dünyaya gəlmiş və ən gənc yaşlarından muğam sənəti, xalq mahnılarının sədaları altında böyümüşdür. Muğamların emosional məzmununu gözəl bilən Üzeyir bəy operasında bu xüsusiyyətlərdən məntiqli bir şəkildə istifadə etməklə birlikdə operanın əsas ideya-mövzusunun açıqlanmasına nail ola bilmişdir. Bəstəkarın Müsəlman dünyasında, eyni zamanda Azərbaycanda geniş bir şəkildə intişar tapmış bu əfsanənin opera dilində ifadəsi insanlar üçün cazibədar görünürdü. Daha doğrusu, hələ o dövrdə Üzeyir bəy opera, eyni zamanda ümumiyyətlə *çoxsəsli* musiqi janrları və hadisələri ilə yaxınlığı olmayan geniş dinləyici-tamaşaçı kütləsini yeni-yeni estetik, mədəni dəyərlərə istiqamətləndirmək üçün ilk mərhələdə xalq arasında şöhrət qazanmış və mənəvi-estetik dəyərlərə müraciət olunmasını önəmli sayırdı. Xalqın, geniş kütlələrin musiqili-estetik mədəniyyətini dünya klassik musiqi mədəniyyəti və dəyərləri baxımından izah etməyə çalışan Üzeyir bəy, eyni zamanda məqalə və yazıları, xüsusilə də bədii əsərləri ilə də xalqının maariflənməsi, Avropa və dünya klassik sənətinin, bəşəri estetik dəyərləri qavraya bilməsi yolunu işıqlandırmağa səy göstərmişdir. O, Azərbaycan xalq musiqisinə təməllənən və bəşəri qiymət daşıya bilən yeni musiqi sahələrinin *(opera, balet, operetta, simfoniya, instrumental konsert, xor sənəti və s.)* formalaşdıracağına inanır və “Leyli və Məcnun” operasından başlayaraq ardıcıl olaraq öz yaradıcılığında bu prinsipin həyata keçirilməsinə səy göstərirdi. Zənnimizcə, onun nəzəri səpkidə yazılmış “P.İ.Çaykovski və Azərbaycan musiqisi” əsərinin yazılması da bu düşüncələrindən irəli gəlmişdir. Bəstəkar bu yolda yuxarıda da söylədiyimiz kimi, hər zaman xalqının estetik istək və arzularını, burada qarşıya çıxa biləcək mürəkkəb sosial-mədəni və estetik sorunları da (əsrlərdən bəri kök salmış adət-ənənələr, bədii-estetik dəyərlərə bağlılıq, mühafizəkar güclərin, eyni zamanda aşırı dini qrupların baskıları, musiqimizin əsasən monodik şəkildə inkişafı və s.) həll etməyə çalışırdı. Eyni zamanda xalq üçün yaxın olan mövzuları musiqi nümunələri və melodiyalarını (xüsusilə də muğam parçalarını, aşıq-ozan türkülərini, oyun havalarını və s.) geniş bir şəkildə istifadə edən Üzeyir bəy çoxsəsli musiqinin xalq kütlələri arasında geniş bir şəkildə yayılması və sevilməsi yolunda son dərəcə önəmli sayırdı. Təsadüfi deyil ki, ilk operalarında bəstəkar sırf bu prinsipə riayət etdiyinə görə bir çox maraqlı opera əsərlərini gerçəkləşdirə bildi. “Leyli və Məcnun” (1908), “Şeyx Sənan” (1909), “Rüstəm və Zöhrab” (1910), “Əsli və Kərəm” (1910), “Şah Abbas və Xurşid Banu” (1911), “Şah İsmayıl” (1916) kimi səhnə əsərlərinin bir çoxu günümüzə qədər öz estetik təsir gücünü saxlamaqdadır. Ölməz “Leyli və Məcnun” operası isə 600-dən çox səhnə həyatına baxmayaraq bu gün də Azərbaycan opera səhnəsini rövnəqləndirməkdədir. Əsasən muğam operası kimi dəyərləndirilən bu əsərlərin estetik tərbiyə baxımından da önəmi olduqca böyük idi. İlk aşamada bu əsərlər geniş kütləleri tədricən opera kimi bir mürəkkəb səhnə janrına, onun bədii-estetik prinsiplərinə yaxınlaşdırır, sonradan onları digər dünya klassiklərinin opera əsərlərini də mənimsəyə bilmələri üçün bir zəmin hazırlamış olurdu. Bəstəkarın 1937-ci ildə səhnəyə gətirdiyi opera əsərini mütəxəssislər haqlı olaraq onun və ümumilikdə əski Sovetlər Birliyi dönəmində önəmli bir hadisə olaraq dəyərləndirmələri bir təsadüf deyildi. Üzeyir bəy bu operasında çağdaş opera estetikasına uyğun bütün prinsiplərə riayət edərək son dərəcə milli bir opera əsəri ortaya qoya bilmişdir. Bəstəkar bu əsərin mətnini Türksoylu xalqlar arasında əsrlərdən bəri hörmət qazanmış, eyniadlı ozan-aşıq dastanından almışdır. Böyük vətənsevərlik, mərdlik, cəsarətlilik və təmiz insani duyğuları ifadə edən opera tez bir zamanda böyük rəğbət qazandı. Onun “Bolşoy Tiyatro” kimi dünyaca ünlü bir tiyatroda səhnələşdirilməsi həqiqətən də o dönəmin sosial-mədəni həyatında önəmli bir hadisə kimi dəyərləndirildi və bəstəkar dönəminin ən yüksək ödüllərinə layiq görüldü. Əsərdə professional bir şəkildə yazılmış ariyalar, duetlər, kvartetlər, reçitativlər, xor və orkestr parçaları və s. ilə rastlaşırıq. Bəstəkarın çoxsəsli musiqinin bu mürəkkəb janr və sahələrinin estetik təbiətinə dərindən sahib olması, əsərin ümumi dramaturgiyası və ideya-məzmununa uyğun olaraq onlardan faydalana bilməsinə şahid ola bilirik. Bununla belə operanın ən önəmli yönlərindən biri də odur ki, əsərin musiqi dili tamamilə milli musiqi intonasiyalarına, onun ritmik özəlliklərinə təməllənməkdədir. Bəstəkar yazılarının birində operada aşıq-ozan musiqisinin estetik xüsusiyyətlərindən geniş bir şəkildə istifadə etdiyini etiraf etmişdir. Üzeyir bəy bu əsərin də xalq musiqimizin, özəlliklə də aşıq sənəti və musiqisinin hüdudsuz potensial-estetik imkanlarını üzə çıxara bilir, zəngin xalq musiqisinin çoxsəsli musiqi mədəniyyətinin inkişafı və formalaşması yolunda nə qədər önəmli olmasını sübuta yetirmiş olur. Bəstəkar hər zaman xalq musiqisinin, folklor sənətinin tükənməz bir estetik qaynaq olduğuna inanır və bu yolda M.İ.Qlinka, P.İ.Çaykovski, eyni zamanda V.A.Motsart və L.V.Bethoven kimi böyük Avropa bəstəkarlarının yaradıcılıq təcrübəsini dərindən öyrənir və ondan ustalıqla faydalanmağa çalışırdı. Hətta xalq çalğı alətləri üçün bəstələdiyi II Fantaziyasında V.A.Motsartın “Do major pianino sonatası”nın təsiri altında bəstələdiyini açıq bir şəkildə hiss etmək olur. “Koroğlu” operası günümüzə qədər Azərbaycan çoxsəsli musiqi mədəniyyətinin zirvəsini təşkil etməkdədir. Bu əsərin ifasında xüsusi xidmətləri olmuş tanınmış solist (bir zamanlar İtaliyada da təhsil almış) Bülbülün rolunu da xüsusilə qeyd etmək lazımdır. Koroğlunun ariyası mütəxəssislərin də haqlı etirafına görə həqiqətən onun ifasında öz ən yüksək bədii zirvəsinə çata bilmişdir. Nigar rolunun ifası da Xalq artisti, opera solisti Firəngiz Əhmədovanın məharətli ifasında hafizələrdə qalmaqdadır. Operanın filmə alınması da musiqili filmlər arasında önəmli bir mədəni hadisəyə çevrilmişdir. Təbii ki, bu yolla da operanın bir çox ölkələrdə yayılması və sevgi qazanması mümkün olmuşdur. Bu opera, eyni zamanda bəstəkarın digər əsərlərinin ifaçılarının bir sənətkar kimi inkişafı və formalaşmasında da oynadığı müstəsna rol hər zaman diqqət çəkmişdir. Maraqlıdır ki, bəstəkarın əsərlərini dəfələrcə belə ifa edən sənətkarlar hər dəfəsində Üzeyir dühasına, nadir istedadına heyran qaldıqlarını dilə gətirir, hər dəfəsində Üzeyir bəyin əsərlərinin tükənməz bədii-estetik təravətinin, emosional gücünün artmasını qeyd edirdilər. Böyük sənətkar Bülbül Koroğlu rolunu 400-dən çox dəfə oynamasına baxmayaraq hər dəfəsində bu böyük bəstəkarın istedadı qarşısında heyran qaldığını etiraf etmişdir (Bax: “Slovo ob Uzeire Gadjibekove”, Elm, Baku 1985, s. 126). Buna bənzər bir fikri tanınmış aktyor Ə.Hüseyinzadə də söyləmişdir. Onun etirafına görə o, “Arşın mal alan” musiqili komediyasında Sultan bəyin rolunu 625 dəfədən çox oynamasına rəğmən hər dəfəsində bundan gerçək bir həzz almaq idi (Bax.: A.k.ə., s.72.). Bu qəbildən olan misalların siyahısını artırmaq da mümkündür. Fəqət onları ifadə etməklə bir daha Üzeyir Hacıbəyli əsərlərinin uzunömürlülüyünü, xalqın və sənətkarların əbədi sevgisini qazana bilməsi gerçəyini xatırlatmaq istərdim. Lakin bəstəkarın yaradıcılıq fəaliyyətini yalnız Azərbaycan mədəniyyəti çərçivəsi ilə məhdud etmək yanlış olardı. Dünyanın bir çox tanınmış mədəniyyət və sənət adamları, xüsusilə də musiqişünaslar və bəstəkarlar onun sənətinə verdikləri yüksək dəyər bir daha bu fikirlərin yanlış olmadığını təsdiq etməkdədir. Onlardan bir çoxunu örnək verməkdə fayda var. Tanınmış musiqi nəzəriyyəçisi Georgiy Keldış Üzeyir Hacıbəylini sovet musiqisinin təməl daşlarını qoyanlardan biri hesab edirdi (Bax: A.k.ə, s.119). XX əsrin öndə gələn bəstəkarlarından olan Dm.Şostakoviç isə haqlı olaraq Üzeyir Hacıbəylini Azərbaycan Sovet musiqi mədəniyyətinin banisi (yaradıcısı) hesab edirdi. Hətta erməni Aram Xaçaturyan yaradıcılıq sürəcində Üzeyir bəyin onun üçün bir müəllim və ilham qaynağı olduğunu göstərməklə birlikdə, onun çoxyönlü fəaliyyətinə də diqqət çəkərək bəstəkarın ilk dəfə Şərq xalq çalğı orkestri meydana gətirdiyi və burada çoxsəslilik yarada bilməsini xüsusi olaraq qeyd etmiş, Üzeyir bəyin yeni təsvir-ifadə vasitələri, tembr *(tın)* xüsusiyyətləri yolundaki arayışlarına diqqət çəkmiş bir daha bəstəkarın ilk dəfə olaraq Şərq və Avropa musiqi alətlərinin bədii sintezinə nail olmasını da göstərmişdir. Tanınmış özbək bəstəkarı və Xalq artisti Şərif Ramazanov isə açıq bir şəkildə qeyd edirdi ki, “Özbəkistanın musiqi mədəniyyətinin formalaşması və inkişafında Üzeyir Hacıbəylinin böyük rolu var. Özbək gəncliyi Ü.Hacıbəyli yaradıcılığından öyrənmiş və yenə də öyrənməkdədir. Özbəkistanın musiqi məktəblərinin təhsil proqramlarında bu yaradıcılığın yeri olduqca böyükdür” (Bax.: A. k .ə., s.199). Gerçəkdən də bəstəkarın əsərlərinin təsir gücü və milli çoxsəsli musiqi mədəniyyətinin inkişafı yolunda önəmli bir örnək, yol göstəricisi olması ilə əlaqədar bir çox əcnəbi musiqiçilər və sənət adamlarının fikirləri ilə qarşılaşırıq. Məsələn, Üzeyir bəyin “Arşın mal alan” musiqili komediyasının vaxtilə İranda böyük əks-səda yaratması haqqında bir çox yazılar sözlərimizi təsdiq etməkdədir. Bu yazılarda əsərin, onun emosional musiqisinin seyirçilərlə təmas saxlamaq, onlarla yaxınlaşmaq yolunda teatr işçiləri üçün nə qədər önəmli bir bədii vasitə olması da vurğulanmaqda idi. Əsərin İranda tamaşasını gerçəkləşdirmiş quruluşçu-rejissor Ahmet Humayuni bir daha qeyd edirdi ki, “Biz Üzeyir Hacıbəyovun ölməz “Arşın mal alan” məşhur komediyasına təsadüfən müraciət etməmişik. Televiziya ilə “Arşın mal alan”ı göstərməklə biz teatrı öz seyirçilərimiz ilə yaxınlaşdırmaq istəyirdik. Bundan ötrü teatr seyirçidən arxada yox, öndə getməlidir. Bu baxımdan “Arşın mal alan” komediyasından həyati əsər tapmaq çətin idi” (Bax.: Azerbaydjan za rubejom. Referativnıy jurnal, Baku, 1975, vıp.3, s.210-211). Xatırlatmaq lazımdır ki, adını qeyd etdiyimiz musiqili komediya Türkiyədə də müxtəlif şəhərlərdə, bölgələrdə öz səhnə təcəssümünü görmüş, seyirçilərin sevgisini qazanmışdır. Əsərin bəzi musiqi parçaları isə tez-tez konsert salonlarında, televiziya verilişlərində və s. səslənməkdədir. Bu əsərlərin səhnələşdirilməsində, eyni zamanda Türkiyədə səhnə üzü görməsində Üzeyir bəy sənətinin dərin bilicisi, istedadlı və tanınmış rejissor Prof. Əflatun Neymətzadənin rolunu da xüsusi olaraq qeyd etmək lazımdır. Xüsusilə də bu komediyanın vaxtilə Mersin Opera və Balet Teatrının açılış törəni münasibətilə səhnələşdirilməsini önəmli mədəni hadisə kimi qiymətləndirmək mümkündür. Üzeyir Hacıbəylinin komediyalarının adətən Şərq xalqlarının günlük yaşam tərzinə, psixologiyasına, sosial problemlərinə, mənəviyyatına, əxlaq prinsiplərinə, estetik ideallarına cavab verməsi səbəblərindən dolayı bu xalqlar tərəfindən asanlıqla anlaşılır və sevilirdi. Xatırlatmaq lazımdır ki, musiqi komediyalarının ssenarisini (mətnini) də bəstəkar özü yazırdı. Təkcə bu ssenarilər belə böyük simanın ədəbiyyat dünyasında qalmasına kifayət edə bilərdi. Zamanı üçün aktual mövzulara diqqətçəkən bəstəkar (qadın azadlığı, sosial ədalət, məlumatsızlıq və s.) Şərq xalqlarının yaşam tərzi üçün səciyyəvi olan bir çox ortaq xüsusiyyətləri üzə çıxarır, mənfi halları (simiclik, qorxaqlıq, həmçinin zamanını keçirmiş nikah qaydalarını, hər şeyin pula, gücə dayanması inancını və s.) gülüş və mizah yolu ilə qamçılaya bilir. Bu musiqili komediyalarda bəstəkarın gülüşün mürəkkəb psixologiyasına *(incə yumor, satira, qroteks, ironiya)* dərindən sahib olması kimi istedadları da üzə çıxarır. Maraqlıdır ki, bu baxımdan bəstəkarın bütün türk dünyasında gülüş kateqoriyasının ifadəçisi sayılan Nəsrəddin Hocanın, eyni zamanda da ata sözlərinin, xalq tapmacalarının, bayatılarının örnəklərindən yaradıcılıqla faydalana bilmişdir. Bu baxımdan Üzeyir bəyin görkəmli rus yazıçısı, tanınmış mizah ustası Qoqol yaradıcılığını da dərindən bilməsi, xüsusilə də onun “Müfəttiş” komediyası ilə olan yaxın tanışlığını da qeyd etmək yerində olardu deyə düşünürük. Maraqlıdır ki, bəstəkar komediyalarında yer almış surətlərin hər biri üçün xarakteristik olan musiqi parçaları tapa bilmiş və bizə görə Azərbaycan musiqi mədəniyyətində ilk dəfə *“müzikal komizm”* anlayışını da ortaya qoymuşdur. Bu əsərlərdə və ümumilikdə bəstəkarın digər əsərlərində mətn ilə musiqinin qarşılıqlı vəhdəti hər zaman yüksək bir professionalıqla gerçəkləşdirilməkdədir. Hətta mürəkkəb xor üçün yazılmış əsərlərində belə (məsələn, “Koroğlu” operasından “Çənlibel” və “Axşam oldu, hey” kimi çoxsəsli xor parçalarında olduğu kimi) bu dialektik, bədii vəhdətə şahid ola bilirik. Heç şübhəsiz, belə bir yaradıcı sintez bəstəkarın mətnə şəxsən müdaxilə etməsi, burada işi mətn yazarının üzərinə buraxmaması ilə də izah etmək mümkündür. Üzeyir bəy demək olar ki, bütün səhnə əsərlərinin mətn yazarlığını üzərinə almış, yalnız “Koroğlu” operasının ssenarisinin gerçəkləşdirilməsində tanınmış sənət və elm adamı R.Təhmasibin iştirakına razılıq vermişdir. Heç şübhəsiz, burada da tarixi-qəhrəmanlıq dastanımız olan “Koroğlu” əsərinin müxtəlif səhnələrlə dolu mürəkkəb janrlar və hadisələr (süjet, obrazlar aləmi, qəhrəmanların psixoloji vəziyyəti və s.) opera estetiyi baxımından gözdən keçirilməkdədir. Bu baxımdan, Üzeyir bəyin mətnə müdaxilə etməməsi mümkün deyildi. Bəstəkarın “Koroğlu” kimi “Arşın mal alan”, “Məşədi İbad” komediyaları da kino sənəti dilinə çevrilmiş və dünyanın bir çox ölkələrində müvəffəqiyyətlə sərgilənmişdir. “Arşın mal alan” əsərinin vaxtilə ABŞ-da belə filmə alınması bir gerçəkdir. Bəstəkarın bu musiqi komediyası isə bolqar, türk, polşa, fars, ingilis, fransız dillərində səhnələşdirilməkdədir. Üzeyir bəyin əsərlərinin dünyanın müxtəlif qitələrində sevgi ilə qarşılanmasının bir səbəbi də onların ideya-məzmunu və musiqisinin bəşəri səviyyəyə yüksələ bilməsi, müxtəlif millətlərdən, mədəniyyətlərdən olan tamaşaçıların, dinləyicilərin bədii-estetik tələbatını ödəyə bilməsi ilə izah etmək mümkündür. Üzeyir bəy hər zaman xalqının istək və arzuları, sosial-estetik problemləri, tarixi və günlük yaşamı ilə yaxından maraqlanan bir şəxsiyyət idi. Onun onlarca sənət adamlarına, xüsusilə də musiqiçilərə olan atalıq qayğısı, eyni zamanda yüksək pedaqoji fəaliyyəti haqqında az yazılmayıb. O, Azərbaycan musiqiçiləri - bəstəkarları, ifaçıları, solistləri, musiqişünasları üçün bütün bir məktəb idi. Onun fikirləri və təsiri altından çıxmış görkəmli maestro, bəstəkar Niyazini, tanınmış opera artisti Şövkət Məmmədovanı, Bülbülü, bəstəkarlardan Əşrəf Abbasovu, Süleyman Ələsgərovu, Fikrət Əmirovu, M.S.İsmailovu, Ə.Hüseynzadəni və onlarca adları sıralamaq mümkündür. Fəqət bu baxımdan bu böyük simanın fəaliyyətini təkcə Azərbaycanla məhdud etmək də doğru olmazdı. Üzeyir bəy milliyyətindən, irqindən asılı olmayaraq bütün istedadlı insanlara əl uzatmağa, onları dəstəkləməyə, yeri gəldikdə təhsilləri ilə maraqlanmaqda, bəzən maddi yardımda belə olmaqdan da çəkinmirdi. Məsələn, onun vaxtilə gənc, hələ o qədər də tanınmayan pianoçu Svyatoslav Rixteri Bakıya dəvət etməsi, onun solo konsertini təşkil etməsi, bu gəncin gələcəkdə böyük musiqiçi olacağına inanması faktı söylədiklərimizi təsdiq etməkdədir (Bax.: Slovo ob Üzeire Gadjibekove, s.162). Gerçəkdən də S.Rixter gələcəkdə XX əsrin ən öndə gələn pianoçularından birinə çevrilmiş, dünya konsert salonlarında klassik bəstəkarların ən mükəmməl ifaçılarından biri kimi şöhrət sahibi olmuştur. Bu baxımdan əski Sovetlər Birliyi dönəmində uzun müddət SSRİ Bəstəkarlar İttifaqının sədri olmuş tanınmış bəstəkar, Xalq artisti Tixon Xrennikovun sözləri də maraq doğura bilir: “Üzeyir bəy Sovet musiqisinin klassikidir. Mənim ona xüsusi bir münasibətim var, çünki o, hələ mənim yaradıcılıq fəaliyyətimin ilk mərhələlərində mənə dəstək olmuş, mənim yanımda olmuşdur. Bunu mən “Tufana doğru” operamı tamamladığım zaman hiss etdim. O zaman Ü.Hacıbəyov aktiv bir şəkildə bu ilk əsərimin müdafiəsinə qalxdı, çünki bəziləri Sovet operasında mahnı istiqamətinin (cərəyanının) əleyhinə idilər. Mən yaradıcılığımın ilk aşamalarında mənə mənəvi dəstək olmasından dolayı Üzeyir Hacıbəyova dərin minnətdarlığımı bidirirəm (Bax.: Slovo ob Üzeire Gadjibekove, s.189). Üzeyir bəy hər zaman dönəminin öndə gələn, xalqın taleyi ilə yaxından maraqlanan ziyalılar və sənət adamları ilə yaxınlıq etməyi önəmli sayırdı. Onun hələ XX əsrin əvvəlindən Rusiya və doğu ölkələrində ad qazanmış “Molla Nəsrəddin” dərgisinə xidmət edən Azərbaycan ziyalıları ilə mənəvi yaxınlığı və dostluğu onun yaradıcılıq həyatının önəmli bir parçasını təşkil etməkdə idi. Xüsusilə də Cəlil Məmmədquluzadə, M.Ə.Sabir, Ə.Əzimzadə, M.Haqverdiyev və başqaları ilə olan yaradıcılıq əlaqələri, eyni zamanda bu dərgidə satirik və yumoristik yazılarla çıxış etməsi heç şübhəsiz, irəlidə onun bədii-estetik görüşlərinin formalaşmasına yaxından təsir göstərmişdir. Daha sonralar onun M.S.Ordubadi kimi tanınmış yazar və XX əsr Azərbaycan poeziyasının nadir şəxsiyyətlərindən sayılan şair Səməd Vurğun ilə olan dostluğu hər zaman yaradıcılıq axtarışlarının davam etdirilməsinə və yeni-yeni əsərlərin meydana gəlməsinə səbəb olmuşdur. Bəstəkarın İkinci Dünya müharibəsi ərəfəsində Səməd Vurğunun sözlərinə yazdığı “Yaxşı yol, “Vətən Ordusu”, “Şəfqət bacısı” kimi mahnıları vətənsevərlik, nikbin ruh halı ilə ayrılmaqdadırlar və günümüzə qədər öz estetik təravətini saxlamaqdadır. Üzeyir Hacıbəyov yaradıcılıq fəaliyyətindən heç bir zaman ayrılmayan, eyni zamanda paralel olaraq xalqının həryönlü maariflənməsi yolunda əlindən gələni əsirgəmirdi. Onun musiqi tərbiyəsi sahəsindəki ardıcıl səyləri, təhsilin fasiləsiz olması, professional biliklərə təməllənməsi, bu sahədə musiqi məktəblərinin, musiqi liseylərinin və nəhayət, konservatoriyanın fəaliyyət göstərməsini önəmli sayır, bu istiqamətdə yorulmaz səylərini davam etdirirdi. Xüsusilə də Azərbaycanda konservatoriyanın formalaşması və inkişafını haqlı olaraq onun adı ilə bağlayırlar. Həqiqətən də Üzeyir bəyin rektoru olduğu konservatoriyanın (hazırda Azərbaycan Dövlət Bakı Musiqi Akademiyası) professional səviyyəsini yüksəltmək üçün ən istedadlı, işini gözəl bilən musiqiçiləri, pedaqoqları konservatoriyaya dəvət etmiş, təlim-təhsil prosesində onların bilinç və təcrübələrindən faydalanmağı önəmli bilmişdir. Üzeyir bəyin şəxsi təşəbbüsü ilə Bakı Konservatoriyasına Prof. Rudolf kimi görkəmli harmoniya müəllimi, Bretanitskiy kimi skripka müəllimi, Knyazkov kimi fleyta, Brenner və Şaroyev kimi pianino pedaqoqları və musiqiçiləri dəvət olunmuş, artıq o zamanlar belə şöhrət qazanmış Qlier kimi bir bəstəkar dəvət edilmişdir. Xatırlatmaq lazımdır ki, Qlier gələcəkdə təxminən 30 Azərbaycan mahnısından istifadə edərək “Şahsənəm” operasını yazmış və Azərbaycan Opera və Balet Teatrının səhnəsində onun tamaşasını gerçəkləşdirə bilmişdir. Bu opera mütəxəssislərin də haqlı etirafına görə Azərbaycanda çoxsəsli musiqinin, eyni zamanda musiqi ifaçılığının, opera solistlərinin yetişməsində mühüm rol oynamışdır. Üzeyir bəyin yuxarıda qeyd etdiyimiz mədəni əlaqələrinin dayanmadan genişləndirilməsi yolundakı səyləri hər şeydən öncə az bir zamanda Azərbaycanın musiqi mədəniyyətini, xüsusilə də çoxsəsli musiqi mədəniyyətini inkişaf etdirmək, formalaşdırmaq istəyindən irəli gəlirdi. Bəstəkarın xalq musiqisi nümunələrinin toplanması, nota alınması və təbliği yolundakı fəaliyyəti, bu zəngin xəzinənin çoxsəsli musiqi mədəniyyətinin inkişafı yolunda potensial-estetik imkanlarının yaradıcılıqda üzə çıxarılmasına verdiyi önəm də yuxarıda söylədiyimiz prinsiplərdən irəli gəlirdi. Anadan olmasının 133-cü ilini qeyd etdiyimiz bu dahi şəxsiyyət günümüzdə də sənət adamları və sənətsevərlər, eyni zamanda bəstəkarlar və musiqiçilər dəstəsi üçün yaradıcılıq ilhamı və məbədgahı olaraq işıq saçmaqdadır.



**Prof. Dr. Babək QURBANOV.**

# Unudulmaz ədəbiyyatşünas alim və milli təhsil fədaisi



Çağdaş dövrün ictimai-ədəbi fikir tarixində özünəməxsus yeri olan filologiya elmləri doktoru, professor, ədəbiyyatşünas-alim, tənqidçi, pedaqoq, yazıçı-publisist, ictimai xadim Xalid Əlimirzəyev Azərbaycan ədəbiyyatı və mədəniyyətinə çoxşaxəli yaradıcılığı ilə öz töhfəsini vermişdir. Onun həyatı bütünlükdə öyrənmək, araşdırmaq, tədqiq etmək, yazıb-yaratmaq zəhməti ilə səciyyəvi xarakterə malik olmuşdur. Alimin həyat yolu, irsi Azərbaycan ədəbiyyatşünaslıq elminin, ədəbi tənqidin və bədii ədəbiyyatın inkişafına öz təsirini göstərmişdir. Bu mənada görkəmli elm xadiminin sənət taleyinə, daim axtarışda, yazıb-yaratmaqda keçən ömür yoluna nəzər yetirmək, əslində Azərbaycan ədəbiyyat tarixinin böyük bir dövrünün inkişaf prosesini izləmək, öyrənmək baxımından maraq doğurur.

X.Əlimirzəyevin elmi, ədəbi fəaliyyətinə nəzər yetirdikdə qarşımızda böyük bir mənzərə açılır. Bu mənzərə onun ömür yolunu bütün əzəməti, aydınlığı ilə əks etdirən rəngləri, xarakterində zəruri olan dəyərləri, mənaları ifadə edən detallar, ştrixlərlə olduqca zəngindir. Yarım əsrdən də çox bir zamanda pedaqoji fəaliyyətlə məşğul olan Xalid müəllim əvvəl universitetin Azərbaycan dili və onun tədrisi metodikası kafedrasında rus bölmələrinə Azərbaycan dili fənnini tədris etmiş, bir qədər sonra pedaqoji fəaliyyətini Azərbaycan ədəbiyyatı tarixi kafedrasında davam etdirmişdir.

Professor Xalid Əlimirzəyev elmi-ədəbi təfəkkürünün bütün imkanlarından istifadə edərək ədəbiyyat taiximizin qaranlıq səhifələrinə, yaxud da az işlənmiş, yanlışlıqlara, qeyri-obyektiv yanaşmalara özünün ciddi araşdırmaları, tədqiqi ilə işıq salmış, bu sahələrdə sanballı, ideya-məzmunu ilə mükəmməl olan onlarca monoqrafiya və kitabların, 500-dən çox elmi-publisistik məqalənin müəllifi olmuşdur.

X.Əlimirzəyev 1932-ci ilin şaxtalı, sazaqlı bir qış günündə Qutqaşen (indiki Qəbələ) rayonunun Qəmərvan kəndində doğulmuşdur. Orta məktəbi bitirdikdən sonra təhsilini davam etdirməkdən ötrü Bakıya üz tutmuş, əvvəl Bakı Dəmiryol Texnikumunda, sonra isə Azərbaycan Dövlət Universitetinin filologiya fakültəsində (1951-1956) təhsil almışdır. Bir neçə il Qəmərvanda və qonşu kənddə müəllim, tədris hissə müdiri işlədikdən sonra doğma elm ocağına, məbədgah sandığı universitetə qayıtmış, 1960-cı ildə aspiranturaya qəbul olunmuşdur. 1964-cü ildə "Cəlil Məmmədquluzadənin ədəbi-tənqidi görüşləri" mövzusunda namizədlik dissertasiyasını müdafiə etmiş, 1972-ci ilə qədər Azərbaycan ədəbiyyatı tarixi kafedrasında baş müəllim, daha sonra dosent vəzifəsində işləmişdir. Elə həmin ildə "Cəlil Məmmədquluzadənin dramaturgiyası" mövzusunda doktorluq müdafiə etmişdir. Bu illər ərzində Xalid müəllim ədəbiyyatşünaslığın, ədəbi tənqidin ciddi problemlərinin araşdırılması və tədqiqi ilə bir alim olaraq ciddi məşğul olmuşdur.

Onu da xatırladaq ki, Xalid müəllimin hər iki dissertasiyasının elmi rəhbəri onlarca elm, mədəniyyət xadimlərinin həyat yoluna işıq salan, onların yetişməsinə, çığırdan geniş yola çıxmalarına böyük zəhmət sərf edən, Azərbaycan ədəbiyyatı tarixinin elmi-nəzəri problemlərinin tədqiqinə bir ömür sərf edən ədəbiyyatşünas-alim, yazıçı Mir Cəlal Paşayev olmuşdur. 1974-cü ildən isə ustadının rəhbərlik etdiyi, sonralar adını daşıdığı Azərbaycan ədəbiyyatı tarixi kafedrasının professoru kimi çalışmışdır. Beləliklə, professor Xalid Əlimirzəyevin bütün pedaqoji fəaliyyəti Bakı Dövlət Universiteti ilə bağlı olmuşdur. O, uzun illər Azərbaycan ədəbiyyatı tarixindən, "Ədəbiyyatşünaslığın əsasları" və "Ədəbiyyat nəzəriyyəsi" fənlərindən mühazirələr oxumuş, seminar məşğələlər aparmışdır. Bu gün respublikamızın müxtəlif tədris ocaqlarında, ictimai həyatımızın bir çox sahələrində çalışan yüzlərcə ziyalı kadrlar məhz Xalid Əlimirzəyev məktəbinin müdavimləri olmuşlar.

*Bir haşiyə. 1971-1975-ci illərdə Bakı Dövlət Universitetinin jurnalistika fakültəsində təhsil aldığım illəri xatırlayıram. O zaman Xalid müəllim bizə "XX əsr Azərbaycan ədəbiyyatı tarixi" fənnindən dərs deyirdi. M.Ə.Sabirin, C.Məmmədquluzadənin həyat və yaradıcılığını, "Molla Nəsrəddin" ədəbi məktəbinin səbatlı nümayəndələrini olduqca maraqlı, zəngin ədəbi faktlara tədris edirdi. Özü də hər birinin yaradıcılığından nümunələri əzbər söyləməklə bu sənətkarların ədəbi irsinə böyük marağımızı, sevgimizi yaradırdı. Xalid müəllim gözəl, səlis nitqi, ürəyəyatan təmiz, qüvvətli səsi-diksiyası, mehriban, nüfuzedici baxışları, erudisiyası, bütün bunların fonunda hər bir tələbəyə özəl bir qayğıkeşliklə yanaşması ilə hörmət və ehtiramımızı qazanmışdı...*

Xalid Əlimirzəyev həqiqət işığına, haqqa, ədalətə tapınmış görkəmli ziyalı idi. Xalq üçün, sənət üçün çalışmaq, onun tədqiqi sahəsində əziyyətlərə qatlaşaraq müxtəlif dövrlərin ədəbi simalarını, onların dövrünü, yaratdığı əsərləri tədqiq etməkdə və ədəbiyyat tariximizin yaddaşına ötürməkdə X.Əlimirzəyevin xidmətləri böyükdür. 1975-ci ildə çap olunmuş ilk kitabı "Ədəbi qeydlər"dən sonra ardınca nəşr olunan "Problemlər və xarakterlər dramaturgiyası" (1979), "Bədii həqiqət uğrunda"(1984), "Cəlil Məmmədquluzadənin ədəbi-tənqidi görüşləri" (1991), "Dramaturgiyamızda ideal və qəhrəman" (1995), "Kitabi-Dədə Qorqud" dastanında şəxsiyyət və cəmiyyət problemi" (2000), "Siyasət və əxlaq" (2000), "Nizami Gəncəvinin insan konsepsiyası" (2001), "Dramaturgiya, teatr və səhnə sənəti" (2004), "M.F.Axundovun ideal və sənət dünyası" (2007), "Mənəvi borc" (Mir Cəlal haqqında xatirələr, 2008, 2014 (təkmilləşdirilmiş ikinci nəşr), "Dahi sənətkar, böyük vətəndaş" (2010), iki cilddə "Klassiklərimizin ideal və poetik sənət dünyası" (2009-2010), "Ədəbi-tənqidi məqalələr" (1960-1980-ci illər), (2011), "Ədəbiyyatşünaslığın elmi-nəzəri əsasları" (2011) kimi monoqrafiya, dərsliklər Xalid Əlimirzəyevin istedadı, zəhməti sayəsində yaradıcılıq axtarışlarının məhsuludur.

Xalid müəllim ilk gəncliyindən bədii yaradıcılıqla da məşğul olmuşdur. O, 1955-ci ildə ədəbi aləmə "Peşmançılıq" hekayəsilə gəlmiş, sonralar da humanizm, mənəvi saflıq, əxlaqi dəyərlər aşılayan nəsr əsərləri, pyeslər yazmışdır. Göründüyü kimi, Xalid Əlimirzəyev elmi, pedaqoji çalışmaları ilə yanaşı, bədii yaradıcılığı da elmi-ədəbi fəaliyyətinin qoşa qanadı olaraq yüksək sənətkarlıqla aparmışdır. Onun "Səadət sorağında" pyesi Akademik Dram Teatrında, "Daşa dönmüş ürəklər" əsəri Bələdiyyə Teatrında tamaşaya qoyulmuşdur. Povest, hekayə, pyeslərindən ibarət seçilmiş əsərləri "Bələdçi" (2008) və "Qarabağ harayı və ruhların üsyanı" (2015) adlı kitablarında toplanmışdır. Lakin o hər şeydən əvvəl ədəbiyyat tariximizin yorulmaz tədqiqatçısı, nəzəriyyəçi, maarfçi idi. Xalqın inkişafını, milli yüksəlişini elmdə, təhsildə görən ziyalı ana dilimizin saflığı uğrunda ideoloji mübarizə aparmışdır. Xalid Əlimirzəyev bir ziyalı, vətəndaş olaraq ictimai həyatda da böyük bacarıq və səylə fəaliyyət göstərmiş, xalqın milli azadlıq hərəkatının mərkəzində olmuş, gənclərimizi torpağa, yurda məhəbbət ruhunda tərbiyə etmiş, onların vətənpərvərlik duyğularının formalaşmasına çalışmışdır. Xalid müəllim 2003-cü ildə yaradılmış və bir neçə il fəaliyyət göstərmiş "AMAL" Ziyalı Hərəkatının sədri olmuşdur.

C.Məmmədquluzadnin həyatı, dövrü, mühitinin, ədəbi-ictimai, publisistik fəaliyyətinin geniş, hərtərəfli tədqiqinə həsr olunmuş "Dahi sənətkar, böyük vətəndaş" (2010) əsəri ideya və məndərəcəsilə mükəmməl olduğundan hələ neçə nəslin bu dahi sənətkarı öyrənmək, tanımaq, əsərlərinin mənəvi-əxlaqi zənginliyini dərk etməkdə bir mənbə olacaqdır. Monoqrafiyanın tələb etdiyi prinsiplər — mövzunun aktuallığı, tarixilik və müasirlik nöqteyi-nəzərindən tədqiqi, ədəbi tənqidin bütün ölçüləri, nəzəri-estetik əsaslarla izlənilməsi sənətkarlıqla işlənmişdir.

Onun "Dahi sənətkar, böyük vətəndaş" monoqrafiyasını C.Məmmədquluzadə dünyasının aynası hesab etmək doğru olar. Bu əsərdə C.Məmmədquluzadə şəxsiyyəti, onun dövrü, əsərlərinin ideya və məndərəcəsi, ictimai-ədəbi mühiti həyat gerçəkliklərinin timsalında sanki bir zərgər dəqiqliyi ilə incələnmişdir. Burdan aydın olur ki, müəllif Mirzə Cəlili dərindən öyrənmiş, dərk etmiş və bundan sonra onu böyük məhəbbətlə, həqiqət işığında, sözün ali mərtəbəsində ədəbiyyatşünaslıq elminə, geniş ictimaiyyətə təqdim etmişdir. X.Əlimirzəyev bütün əsərlərinə ciddi məsuliyyət və maraqla yanaşmış, onları valideynin övladına göstərdiyi qayğı və məhəbbəti timsalında ərsəyə gətirmişdir. Bu mənada unudulmaz müəllimizin "Ədəbi-tənqidi məqalələr" (1960-1980-ci illər) əsəri də müəllifin özgür baxışlarından doğan fikri, məziyyətləri ilə diqqəti cəlb edir. Bu da ondan irəli gəlir ki, Xalid müəllim bütün zamanlarda ədəbi prosesi ardıcıl olaraq, həm də diqqətlə izləmiş, yeni yaranan əsərlər haqqında, ədəbiyyatımızın inkişafı mərhələlərinin tədqiqi, onların ictimai həyatımıza, cəmiyyətə təsirini, işıqlandırmış, özünün elmi-nəzəri mülahizələrini icmallar, rəylər formasında bildirmişdir.

X.Əlimirzəyevin bir çox əsərləri içərisində özünəməxsus yeri olan "Mənəvi borc" kitabı böyük ehtiramın, qədirdanlığın ifadəsi olaraq elmdə və ədəbi mühitdə yetişməsi və inkişafında böyük rolu olan müəllimi professor Mir Cəlal Paşayevin əziz xatirəsinə həsr olunmuşdur. O, ustadı, müəllimi Mir Cəlal Paşayevin xarakterini bir neçə istiqamətdən açmaqla, onun həqiqi cizgilərinin ifadəsi olan parlaq obrazını yaratmışdır: "Mir Cəlal müəllim məni dəfələrlə həyatın bataqlıqlarından çıxarıb. Çox işdə arxam, dayağım olub. Həmişə onun isti nəfəsini hiss etmişəm, amma bütün bunların əvəzində bir dəfə də olsun, ona təşəkkür etməyə, minnətdarlığımı çatdırmağa imkan verməyib. Etdiyi yaxşılıqları, göstərdiyi hamilik yardımını da özünün müəllimlik və böyüklük borcu hesab edib". Onun dediyi bu fikirlərdə yaxşılığı, sədaqəti, düzlüyü qiymətləndirən müdrik bir kişinin mərdanə hərəkətinə, xeyirxahlığına, çətin anlarda sinəsini qabağa verib onu müdafiə edən, yetirməsinə arxa duran müəllimə, ustadına ehtiramın aydın ifadəsi duyulur.

"M.F.Axundovun ideal və sənət dünyası" əsəri mövzunun dərinliyi, ədəbiyyatşünas alimin tədqiqatlarının ciddi xarakteri ilə diqqəti cəlb edir. Xalid müəllim hər zaman sənətin çətin yolları ilə getmiş, ədəbiyyat tarixində az araşdırılmış, aləlxüsus da dərk olunması, qavranılması çətin, mürəkkəb olan mövzuları işləmişdir. Monoqrafiyada "M.F.Axundovun şəxsiyyəti və ictimai-estetik amalı", "Ədəbi-tənqidi görüşləri", "M.F.Axundovun bədii yaradıcılığı", "Şeirləri", "Dramaturgiyası", "Bədii nəsri", "M.F.Axundovun ictimai-fəlsəfi baxışları" bölmələrinin hər biri böyük Azərbaycan ədəbiyyatı tarixinin görkəmli şəxsiyyəti haqqında tədqiqatçı-alimin özünəqədərki və özündən sonra deyilmiş, yazılmış fikirlərin, ictimai-ədəbi baxışların məzmun-mündəricəsindən sənət dünyasını ən xırda, vacib elementləri ilə açmasına yönələn fərqli düşüncəsi, tədqiq üslubu, elmi yeniliyi və bir çox xüsusiyyətləri ilə özünəməxsusluq kəsb edir.

Teatr tamaşalarının həyatımıza təsiri, ibrətamizliyi, onun mənəvi-əxlaqi dəyərlərə söykənən ideyası bir ziyalı kimi onu hər zaman düşündürmüşdür. "Dramaturgiya, teatr və sənət əsəri" bu mənada Xalid Əlimirzəyevin ədəbi tənqid sahəsindəki fəaliyyətinin bir mükəmməl nümunəsidir. Monoqrafiyada mövzuya mükəmməlik gətirən C.Məmmədquluzadə, Ə.Haqverdiyev, İlyas Əfəndiyev dramaturgiyasının janr xüsusiyyətləri, əsərlərinin sənətkarlıq meyarını araşdıraraq təhlil edilməsi mövzunun ideya və məramını aydın şəkildə ifadə edir. Müəllifin müxtəlif illərdə dramaturqların teatrlarımızın səhnəsində tamaşaya qoyulmuş əsərlərini təhlil süzgəcindən keçirərək xarakterizə etməsi isə cəmiyyətdə ictimai baxışın yenilənməsi prosesinə öz təsirini göstərir...

Bir qədər əvvəldə onun bədii yaradıcılıqla gənclik dövründən məşğul olduğunu xatırlatmış, "Bələdçi" kitabının adını çəkmişdik. Mən bu əsərləri bir oxucu kimi, həm də ədəbiyyatşünas baxışları ilə nəzərdən keçirdikcə, onun insanın mənəvi aləmini açan, bütün xarakteri ilə təqdim edən yazıçı səriştəsinə, onu duymaq, anlamaq fəhminə sadəcə heyrət etdim. Xalid müəllim, bəlkə də həyatı boyu yazıçılıq iddiasında olmamışdır. Amma və lakin... bu əsərlər mürəkkəb və bir-birinə bənzəməyən insanların xarakterini açıb göstərmək, bulanıq fikirləri həyat gerçəklikləinin, gözlənilməz hadisələrin fonunda duruldaraq saflaşdırmaq, insanlığa xas olan ümdə keyfiyyətləri obrazların təbiətində, həyat tərzində verə bilmək bacarığı, çətin məqamlarında hər kəsi özününamlı, qətiyyətli olmaq məqsədilə tərbiyələndirmək, ülvi hissləri, məhəbbəti təbii formada işləyə bilmək bacarığında da meydana qoyur — budur Xalid Əlimirzəyevin yazıçı sənətkarlığı! "Peşmançılıq","Məhəbbət sınağında", "İztirabın sonu", "Qoşa məzar" bu fikirlərin təcəssümü ilə zəngindir. Onun bədii nəsrində "Şöhrətovun yuxusu", "Ehtiyatzadə" kimi satirik hekayələrin də özünəməxsus yeri var. Bunlar da heç şübhəsiz, həyatda neqativ hallara, şöhrətpərəstlik, özünəvurğunluq kimi mənfi hallara qarşı münasibət sərgiləməklə, bəzi tipləri vəzifəpərəstlik xəstəliyindən qurtarmaq, insanları tərbiyə etmək məqsədindən doğmuşdur.

Ümumiyyətlə, xalq üçün, sənət üçün çalışmaq, ədəbiyyatın elmi-nəzəri problemlərini araşdırmaq müxtəlif dövrlərin ədəbi simalarını, onların yaratdığı əsərləri tədqiq etməkdə və ədəbiyyat tariximizin yaddaşına ötürməkdə X.Əlimirzəyevin xidmətləri böyükdür. Burdan o da aydın olur ki, Xalid müəllim ədəbiyyatımızın təkcə ədəbiyyat tarixini deyil, ümumən haqqında bəhs etdiyi ədəbi şəxsiyyətlərin taleyini yazmışdır. Bu mənada həyatının böyük bir hissəsi, ömrünün əsas məqamları ədəbiyyatşünaslığın, ədəbi tənqidin inkişafı prosesi ilə bağlı olmuş, bütün bunlar bir növ sənətkarın özünün də tale yazısına çevrilmişdir. Xalid müəllim bu tale yazısını sevərək, ədəbi zəhmətlərə qatlaşaraq, həm də vicdanla yaşamışdır...

**Səfəq NASİR,**
**filologiya üzrə fəlsəfə doktoru,**
**"Respublika".**

# Uğurlarını Azərbaycan gerçəkliyində görən ziyalı

**Ulu öndər Heydər Əliyevin layiqli davamçısı İlham Əliyevin Azərbaycanda elm və təhsilin inkişafına xüsusi diqqət və qayğı göstərməsi sayəsində, nəinki Bakı şəhərində, eləcə də respublikanın bütün bölgələrində orta və ali məktəblərin maddi-texniki bazası yeniləşmiş, güclü kadr potensialı yetişmişdir. Belə yetkin, zəngin yaradıcılıq və müəllimlik qabiliyyəti ilə seçilən kamil insanlardan biri də ADPU-nun Şəki filialının Təbiət fənləri və onların tədrisi metodikası kafedrasının müdiri, pedaqoji elmlər doktoru, professor Firədun İbrahimovdur.**

Barəsində söhbət açdığım ziyalı insan-Firədun Nadir oğlu İbrahimov Şəki rayonunun Qudula kəndində anadan olmuşdur. Onun ata yurdu olan bu kənd qədim tarixə malik, milli mentalitetə sayqısı ilə tanınan, halallığı Allah nidası kimi qəbul edən insanların məskunlaşdığı birgə varolma məskənidir. Atası Nadir kişi ailədə altı uşaqdan biri olan Firədunu yaşadıqları kənddə riyaziyyat müəllimi kimi çalışmasını arzu edirdi. Eyni zamanda, onu elə bir riyaziyyat müəllimi kimi görmək istəyirdi ki, onun da adını Şəkidə xüsusi hörmət və ehtiram qazanmış dəyərli pedaqoq Yanıq Şövkət kimi dilə gətirsinlər. Ata istəyinə sadiq olan Firədun Şəki şəhər 3 №-li orta məktəbi bitirdikdən sonra riyaziyyat müəllimi olmaq məqsədilə Azərbaycan Dövlət Pedaqoji İnstitutunun fizika-riyaziyyat fakültəsinə qəbul olundu, 1972-ci ildə institutu fərqlənmə diplomu ilə başa vurdu və təyinat üzrə Şəki rayonunun Təpəcənnət kənd məktəbində ixtisası üzrə pedaqoji fəaliyyətə başladı.

Atasının arzuladığı səviyyədə müəllim olmaq üçün Firədun İbrahimov pedaqoji fəaliyyətindən ayrılmadan elmi-tədqiqat işi aparmağı vacib bildi. O, Azərbaycan Dövlət Pedaqoji İnstitutunun aspiranturasında qiyabi təhsil almaq hüququ əldə etdi. Aspiranturada qiyabi formada təhsil almağın məxsusi çətinliklərinə baxmayaraq, Firədun müəllim fərdi iş planına uyğun olaraq minimum imtahanlarını verdi və dissertasiyanı müzakirəyə təqdim etdi.

İki ay müddətində onun pedaqoji elmlər namizədi elmi dərəcəsi SSRİ AAK tərəfindən təsdiqləndi.

F.N.İbrahimov bu adla kifayətlənmədi, qiyabi formada Azərbaycan Təhsil Problemləri İnstitutunda doktorantura hazırlığı keçərək 2006-cı ildə "Təlim prosesində alqoritmik və evristik fəaliyyətlərin optimal münasibətlərinin əsasları" mövzusunda doktorluq dissertasiyası müdafiə etdi. Onun pedaqoji elmlər doktoru alimlik dərəcəsi Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyası tərəfindən təsdiqləndi. Doktorluq dissertasiyasının müdafiəsi prosesində də ona qarşı güclü müxalif qüvvələr yaranса da, o heç kimə əyilmədən, mövcud çətinlikləri aradan qaldıra bilmişdir.



F.N.İbrahimov pedaqoji elmlər doktoru elmi dərəcəsi aldıqdan sonra da məhsuldar elmi-tədqiqat fəaliyyəti ilə məşğuldur. Onun yüz altmışdan çox elmi əsəri - monoqrafiya, dərslik, dərs vəsaiti, tədris proqramı, metodik tövsiyə, tezis, nüfuzlu jurnallarda çap olunan elmi-metodik məqalələri pedaqoji ictimaiyyət tərəfindən tanınır və lazımi səviyyədə qiymətləndirilir. 32 kitabın müəllifi olan F.N.İbrahimovun əsərlərinin ümumi həcmi 700 çap vərəqindən artıqdır. Onun 15 məqaləsi xarici ölkələrin nüfuzlu elmi jurnallarında çap edilmişdir. F.N.İbrahimov səkkiz beynəlxalq (Azərbaycanda, Rusiyada, Ukraynada təşkil olunmuş) və səkkiz respublika konfranslarında çıxış etmişdir. Onun Rusiyanın aparıcı elmi jurnallarında dərc olunmuş elmi-pedaqoji məqalələrində öz əksini tapan səmərəli ideya və təklifləri əsas götürülərək Rusiya Sosial-Pedaqoji Elmlər Akademiyasının həqiqi üzvü seçilmişdir.

F.N.İbrahimovun pedaqoji fəaliyyətinin 11 ili orta ümumtəhsil, 23 ili ali məktəb həyatı, 9 ili dövlət qulluğu ilə bağlıdır. O, orta ümumtəhsil kənd və şəhər məktəblərində müəllim və direktor, Baş Pedaqoji Kadrların ixtisasının Artırılması və Yenidən Hazırlanması İnstitutunun (Əvvəllər bu institut Mərkəzi Müəllimləri Təkmilləşdirmə İnstitutu adlanırdı) Şəki filialının müdiri, 2005 - 2010-cu illərdə Şəki Şəhər Təhsil Şöbəsinin müdiri vəzifələrində işləmişdir. F.N.İbrahimovun əmək fəaliyyətinin bir hissəsi qeyri-pedaqoji sahə ilə bağlıdır. O, 2000-2005-ci illərdə Şəki Şəhər İcra Hakimiyyəti başçısı Aparatında şöbə müdiri və başçının müavini əvəzi kimi dövlət qulluğunda çalışmışdır. Hazırda ADPU-nun Şəki filialının təbiət fənləri və onların tədrisi metodikası kafedrasının müdiri və professoru vəzifəsində çalışır.

F.N.İbrahimov ictimai fəallığı ilə seçilən ziyalıdır. Onun ictimaiyyət qarşısında çıxışları, müxtəlif informasiya vasitələrində təqdim olunan müsahibələri, aktual məsələləri hədəfləyən məqalələri maraqla qarşılanır. "Şəki dövlətçiliyimizin qalasıdır", "Şəki müstəqillik illərində" adı ilə çap olunan kitablarda F.N.İbrahimov fəal vətəndaş mövqeyini nümayiş etdirmiş, ulu öndər Heydər Əliyev kursuna sadiq bir ziyalı kimi insanları, xüsusilə gəncləri yad ideologiya təsirindən qorunmağa səsləmişdir.

Onun fəaliyyətinin tədris-təşkilati, elmi-tədqiqatçılıq, gənc tədqiqatçılara istiqamət vermək, tələbələrin tədqiqat işlərini yönləndirmək kimi aspektləri məxsusi çalarları baxımından təqdirəlayiqdir. O, novator müəllim və məhsuldar tədqiqatçıdır.

F.N.İbrahimov ümumtəhsil məktəblərində müəllim və məktəb direktoru işləyərkən "Qabaqcıl maarif" xadimi döş nişanı ilə təltif olunmuş, Şəki Şəhər Təhsil Şöbəsinin müdiri vəzifəsində çalışarkən isə səmərəli fəaliyyətinə görə "Respublikanın Əməkdar müəllimi" fəxri adına layiq görülmüşdür. O, ADPU-nun Şəki filialında tutduğu vəzifə ilə bağlı üzərinə düşən funksiyaları ləyaqətlə yerinə yetirir. Ona Şəki filialı rəhbərliyinin, professor-müəllim və tələbə heyətinin xüsusi rəğbəti vardır, hazırlığına və davranış mədəniyyətinə görə ehtiram olunur.

F.N.İbrahimov mənalı siyasi əqidəyə, baxışlara malikdir. O, saf əxlaqın subyektidir. Azərbaycançılıq ruhunda gənclərin tərbiyə olunmasına qüvvə və bacarığını əsirgəməyən alimdir. Onun keçdiyi həyat yolu gənc nəsil və yetişməkdə müəllimlər əsl örnək, mübarizlik nümunəsidir.

F.N.İbrahimov, eyni zamanda, nümunəvi ailə başçısıdır. Onun həyat yoldaşı "Azərbaycan Respublikasının Əməkdar müəllimi" fəxri adını daşıyan, müxtəlif tədris vəsait və məqalələrin müəllifi kimi tanınan təhsil işçisidir. Firədun müəllimin 2 övladı da öz valideynlərinin getdiyi yolu davam etdirərək, ali təhsilli, istedadlı mütəxəssislər kimi yetişmiş və Bakı şəhərinin uğurları ilə tanınan ümumtəhsil məktəblərində çalışırlar.

Firədun müəllimin həyat və yaradıcılığının daha səciyyəvi cəhəti odur ki, o bütün zəngin elmi-tədqiqat və elmi-pedaqoji fəaliyyətini Bakı şəhərində deyil, ölkəmizin ucqar bir əyalətində həyata keçirmişdir. Ona görə də ehsan belə müəllimə, əhsən belə vətən övladına!

**Tofiq MEHDİYEV,**
**Şəki Rayon Mərkəzi Xəstəxanasının endokrinologiya şöbəsinin müdiri, Respublikanın Əməkdar həkimi, tibb üzrə elmlər doktoru.**

# İpək yolu ölkələrinin epidemioloji nəzarət şəbəkəsinin illik görüşü

**Gürcüstanın təşkilatçılığı ilə Acariya Muxtar Respublikasında "İpək yolu ölkələrinin epidemioloji nəzarət şəbəkəsi"nin (Biosurveillance Network Silk Road- BNSR) illik görüş-konfransı keçirilib. Görüşün əsas məqsədi İctimai Sağlamlıq konsepsiya çərçivəsində Azərbaycan, Qazaxıstan, Ukrayna, Moldova, Türkiyə, Belarus və Gürcüstanın səhiyyə və baytarlıq sahəsində çalışan mütəxəssisləri üçün müasir forum keçirmək, idarə və sektorlararası (həmçinin laboratoriya sahəsində) kooperasiyanın və əməkdaşlığın genişləndirilməsi, epidemioloji nəzarət sahəsində təcrübə və müasir praktika ilə bölüşmək olub.**



Konfransda Azərbaycanı Kənd Təsərrüfatı Nazirliyi yanında Dövlət Baytarlıq Xidməti (DBX) və Səhiyyə Nazirliyinin Taun Əleyhinə Stansiyasının mütəxəssisləri təmsil ediblər. Tədbirdə BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatı (FAO), Ümumdünya Heyvan Sağlamlığı Təşkilatı (OİE), Ümumdünya Səhiyyə Təşkilatı (WHO), ABŞ-ın xəstəliklərə nəzarət və profilaktika mərkəzləri (CDC), Britaniyanın Səhiyyə Jurnalı (BMJ), Rustaveli adına Milli Elmi Fondu, Ukrayna Elmi-Texnoloji Mərkəzi (USTS), Fransanın Qida Sanitar Təhlükəsizliyi, Ətraf Mühit və Əmək Milli Agentliyi (ANSES) və s. beynəlxalq təşkilatların ekspertləri iştirak ediblər.

Dövlət Baytarlıq Xidməti Aparatının Epizootoloji xidmətlərin planlaşdırılması və monitorinqi sektorunun böyük məsləhətçisi Nigar Səfi və Epizootiya və Zoonoz xəstəliklər Əleyhinə Respublika Ekspedisiyasının rəis müavini Kliment Əsədov təqdimatlarla çıxış edibl ər. 3 gün davam edən konfransda 50-dən artıq müxtəlif mövzularda məruzələr təqdim edilib və diskussiyalar aparılıb.

Tədbirin sonunda görüş iştirakçıları birgə layihələrdə, konfranslarda, regional görüşlərdə iştirak etmək və nəzərdə tutulan sərhədyanı növbəti görüşün dekabr ayında Azərbaycanın Şəmkir rayonunda daha geniş formatda keçirilməsi və bu görüşə hazırlıqla bağlı qərarlar qəbul edilib. Həmçinin, "Qarşılıqlı əməkdaşlığın genişlənməsi" çərçivəsində Türkiyəli həmkarları və ABŞ-ın Təhlükənin Azaldılması Müdafiə Agentliyinin (TAMA) rəhbərliyi ilə görüşlər keçirilib.

Qeyd edək ki, BNSR-Şərqi Avropa ölkələrində epidemioloji nəzarət şəbəkələrinin yaradılmasına kömək göstərən qeyri-hökumət təşkilatıdır.

**N.CAVADOV,**
**"Respublika".**

# DÜNYA BUGÜN

FAKTLAR, HADİSƏLƏR, ŞƏRHLƏR

## VLADİMİR PUTİN İDLİBLƏ BAĞLI RAZILAŞMANI QİYMƏTLƏNDİRİB



Rusiya prezidenti Vladimir Putin ölkəsi ilə Türkiyənin Suriyanın İdlib bölgəsində təhlükəsizlik zonasının yaradılması ilə bağlı əldə etdiyi razılaşmanın bölgədə qan tökülməsinin qarşısını aldığını bəyan edib. Bu barədə "TRT" telekanalı məlumat yayıb.

Verilən xəbərə görə, Vladimir Putin Moskvada keçirilən Rusiya Enerji Həftəsi Forumu çərçivəsində Suriyada baş verən son prosesləri qiymətləndirib.

Amerika Birləşmiş Ştatlarının Suriyadakı mövcudluğunun qeyri-qanuni olduğunu bildirən Vladimir Putin deyib: "Amerika Birləşmiş Ştatlarının Suriyadakı mövcudluğu BMT Konvensiyasına ziddir".

Çıxışı zamanı Rusiya ilə Türkiyə arasında İdlibdə atəşkəsin təmin olunması ilə bağlı Soçidə əldə olunan razılaşmaya da münasibət bildirən Vladimir Putin qeyd edib ki, ölkəsi ilə Türkiyənin Suriyanın İdlib bölgəsində təhlükəsizlik zonasının yaradılması ilə bağlı əldə etdiyi razılaşma bölgədə qan tökülməsinin qarşısını alacaq.

Məlumat üçün qeyd edək ki, Türkiyənin dövlət başçısı Rəcəb Tayyib Ərdoğan və Rusiya prezidenti Vladimir Putin sentyabrın 17-də Soçi şəhərində bir araya gələrək İdlibdə təhlükəsizlik zonasının yaradılması və atəşkəsin təmin olunması məsələsində razılığa gəliblər.

## NATO GÜRCÜSTANIN ÜZVLÜYÜNÜ DƏSTƏKLƏYİR



NATO-nun baş katibi Yens Stoltenberq alyansın Gürcüstanın üzvlüyünü dəstəklədiyini bildirərək NATO-nun qapısının bu ölkəyə daim açıq olduğunu vurğulayıb. Bu barədə "TRT" telekanalı məlumat yayıb.

Verilən xəbərə əsasən, Belçikanın paytaxtı Brüsseldə keçirilən NATO Müdafiə Nazirləri Toplantısının NATO-Gürcüstan Komissiyasının iclasından sonra jurnalistlərə açıqlama verən Yens Stoltenberq Gürcüstanın alyansın əhəmiyyətli tərəfdaşlarından biri olduğunu bəyan edib.

Eyni zamanda, Gürcüstanın NATO-nun Əfqanıstan missiyasına ən böyük töhfə verən ölkələrdən biri olduğunu xatırladan Yens Stoltenberq iclasda ikitərəfli əməkdaşlığın necə inkişaf etdirilməsi məsələsini müzakirə etdiklərini ifadə edib.

Brüsseldə iyul ayında keçirilən sammitdə müttəfiqlərin Gürcüstanın üzvlüyünə dəstək verdiyini dilə gətirən Stoltenberq bildirib ki, NATO bu ölkəni həmişə dəstəkləyir.

Yens Stoltenberq NATO-nun Gürcüstanın suverenliyi, ərazi bütövlüyü və təhlükəsizliyinə dəstək verməyə davam etdiyini bildirərək deyib: "Rusiyaya Abxaziya və Cənubi Osetiyanı tanımaqdan imtina etməsi ilə əlaqədar çağırış edirik".

## TÜRKİYƏ HƏRBÇİLƏRİNİN İRAQDA VƏ SURİYADA QALMA MÜDDƏTİ UZADILIB



Türkiyə Silahlı Qüvvələrinin İraqda və Suriyada olan hərbçilərinin bu ölkələrdə qalma müddəti daha bir il uzadılıb. "TRT" telekanalının verdiyi xəbərə görə, bu barədə Türkiyə Böyük Millət Məclisi qərar qəbul edib.

İclasda çıxış edən Türkiyə Böyük Millət Məclisinin Milli Müdafiə Komissiyasının sədri, Ədalət və İnkişaf Partiyasının Sivas üzrə millət vəkili İsmət Yılmaz Türkiyənin uzun zamandır terrorla mübarizə apardığını qeyd edib.

Dəyişən və artan ekoloji çətinliklərə baxmayaraq, terrorla mübarizənin davam etdirildiyini bildirən İsmət Yılmaz deyib: "Türkiyə terrora qarşı mübarizəsini qətiyyətlə davam etdirəcək. İraq və Suriyadakı qeyri-sabit siyasi mühitdən istifadə edərək ölkəmizin cənub sərhədlərində terrorçuların mövcudluğuna, onlara təlim keçilməsinə və terror hücumlarının törədilməsinə icazə verilməyəcək''.

Eyni zamanda, İsmət Yılmaz bildirib ki, son dövrdə Türkiyənin cənub sərhədlərində baş verən proseslər qanun layihəsinin dəstəklənməsinin əhəmiyyətli olduğunu bir daha göstərib.

İsmət Yılmaz həmçinin vurğulayıb ki, İraqdakı qeyri-sabitlik PKK terror təşkilatının bölgədəki mövcudluğunu davam etdirməsini və Suriya üzərindən əldə etdiyi silahlarla Türkiyədə terror aktları törətməsini asanlaşdırır.

"PKK terror təşkilatı İraq təhlükəsizlik qüvvələrinin nəzarətindəki bölgələrdə mövcudluğunu davam etdirir. İraq hökumətindən dünən olduğu kimi, bu gün də gözləntimiz PKK terror təşkilatının İraq torpaqlarındakı mövcudluğunun sona çatdırılması üçün ölkəmizlə əməkdaşlıq etməsidir. İraq hökuməti və İraqın Kürd Regional Rəhbərliyinin PKK-ya qarşı lazımi addımlar atmaması Şimali İraqdan ölkəmizə yönələn terror təhdidinin və terror hücumlarının davam etməsinə səbəb olur", - deyə İsmət Yılmaz bildirib.

## TÜRKİYƏ: ABŞ TERROR TƏŞKİLATLARINA AÇIQ ŞƏKİLDƏ DƏSTƏK VERİR



Suriyada 8 ildir davam edən vətəndaş müharibəsinə öz mənfəətləri çərçivəsində istiqamət vermək istəyən Birləşmiş Ştatlar bölgədəki terror təşkilatlarına açıq şəkildə dəstək verib. "Sputnik" informasiya agentliyinin Türkiyə mətbuatına istinadən verdiyi xəbərə görə, bunu Türkiyənin müdafiə naziri Hulusi Akar "NATO-Gürcüstan" komissiyasının iclasında çıxışı zamanı bildirib.

Hulusi Akarın sözlərinə görə, belə terror təşkilatlarından biri də Türkiyədə qanlı terror aktları törədən PKK terror təşkilatının Suriya qolu olan YPG-dir.

"Terror təşkilatına "TIR"larla silah-sursat göndərən ABŞ bununla da Türkiyə ilə olan əlaqələrin gərginləşməsinə səbəb olub", - deyə nazir vurğulayıb.

## İRAN SANKSİYALARA GÖRƏ ABŞ-a SƏRT REAKSİYA GÖSTƏRİB



İranın ali dini lideri ayətullah Əli Xamenei bildirib ki, ABŞ sanksiyaları İran iqtisadiyyatı qarşısında çox acizdir və İran bu sanksiyaları dəf etməklə ABŞ-a ciddi zərbə endirmiş olacaq. Bu barədə "TRT" telekanalı məlumat yayıb.

Verilən xəbərə görə, Əli Xamenei paytaxt Tehrandakı "Azadi" stadionunda İslam İnqilabı Keşikçiləri Korpusunun yüksək rütbəli komandanlarının qatıldığı tədbirdə çıxış edib.

Tədbirdə İslam İnqilabı Keşikçiləri Korpusuna bağlı Qüds qüvvələrinin komandanı Qasım Süleymani və korpusun komandanı general-mayor Məhəmməd Əli Cəfəri də iştirak ediblər.

Əli Xamenei dövlət televiziyasından canlı yayımlanan çıxışında İranın ABŞ-ın sanksiyalarının qarşısını alacağını bəyan edib.

Eyni zamanda, ABŞ prezidenti Donald Trampın BMT Baş Assambleyasının iclasında avropalı liderlərə "İran rejiminin ABŞ-ın sanksiyalarına görə gələcək aylarda tənəzzül edə biləcəyini" söylədiyini bildirən Əli Xamenei ölkəsinin ABŞ-ın təzyiq və iqtisadi böhranlara görə həssas dövrdən keçdiyini bildirib.

Bununla yanaşı, Əli Xamenei xarici düşmənlərin nəzarətindəki medianın kimyəvi silahlar qədər təhlükəli ola biləcəyini də qeyd edib.

## SERBİYA PREZİDENTİ DÖYÜŞƏ HAZIRLIQ VƏZİYYƏTİNİ LƏĞV EDİB



Serbiya Prezidenti Aleksandr Vuçiç Kosovonun şimalındakı böhranla əlaqədar tətbiq edilmiş döyüşə hazırlıq vəziyyətini ləğv edib. "Trend" agentliyinin verdiyi xəbərə görə, bu barədə ölkənin Müdafiə Nazirliyinin yaydığı məlumatda bildirilir.

Bəyanatda deyilir: "Serbiya prezidenti və Silahlı Qüvvələrin ali baş komandanı Aleksandr Vuçiç müdafiə haqqında qanun çərçivəsində öz səlahiyyətlərinə uyğun olaraq, müdafiə naziri Aleksandar Vulinə və Silahlı Qüvvələrin baş qərargah rəisi Milan Moysiloviçə döyüşə hazırlıq vəziyyətinin ləğv edilməsini əmr edib".

Nazirlik qeyd edib ki, bununla belə, ordu bütün təhlükəsizlik qurumları ilə qarşılıqlı fəaliyyətdədir, vəziyyətə nəzarət edir, öz ölkəsini və harada yaşamasından asılı olmayaraq, bütün vətəndaşlarını hər an qorumağa hazırdır.

Xatırladaq ki, sentyabrın 29-da 100-dən çox kosovolu xüsusi təyinatlı Kosovonun şimalında serblərin yaşadığı əraziyə daxil olmuşdu. Bildirilir ki, bu əraziyə giriş beynəlxalq müqavilə ilə qadağan edilib. ■

# Qubada özünüməşğulluq Proqramı uğurla icra olunur

**Çox mühüm Dövlət Proqramı olan özünüməşğulluq digər bölgələrdə olduğu kimi, Quba rayonunda da uğurla icra olunur. Proqramın icrası məqsədilə 2016-cı ilin yanvar ayından başlayaraq rayonun iş axtaran və işsiz şəxsləri təlim kurslarına cəlb olunmuşdur. Təlimata uyğun olaraq rayon Məşğulluq mərkəzində Beynəlxalq Əmək Təşkilatının (BƏM) təlimçiləri tərəfindən vətəndaşlara kiçik biznesin təşkili və idarə olunması üzrə zəruri bilik və bacarıqlar öyrədilir. Təlimlərdə iştirak edən və biznes planları uğurlu hesab edilən şəxslərin bir hissəsi artıq öz kiçik ailə təsərrüfatlarını formalaşdırıblar.**

Hazırda rayonda iş axtaran və işsiz olan daha 156 nəfərin qatıldığı növbəti təlimlər başa çatmaq üzrədir. Bu barədə bir qədər ətraflı məlumat verən



**rayon məşğulluq mərkəzinin direktoru Bahar Ağayeva** deyir: "Rayonumuzda özünüməşğulluq Proqramının icrasına 2016-cı ilin əvvəlindən 31 nəfərin iştirak etdiyi 2 aylıq təlimlərlə start verilmişdir. Onlardan 24 nəfəri biznes planları düzgün qurmuş, istehsal sahələrində çalışa biləcəklərinə əminlik yaratmış və müvafiq aktivlərlə təmin olunmuşlar. İş axtaranlardan 15 nəfərinə hər ailəyə 4 baş olmaqla iribuynuzlu mal-qara - 5 nəfərə 20 balalı qoyun (yəni quzusu ilə birlikdə), bir nəfərə yanı balalı 20 keçi verilmişdir. Üç nəfər isə bilavasitə istehsal ilə məşğul olmağa başlayıb. 1 nəfərə xalça toxumaq üçün dəzgah, 10 kiloqram ip və digər avadanlıqlar verilmişdir. İştirakçılardan 1 nəfəri şirniyyat istehsalı ilə məşğul olduğunu bildirmiş, o, bu iş üçün lazım olan bütün avadanlıqlarla təmin olunmuşdur. Aktivləri əldə edən istehsalçılar dərhal işə başlamış, özlərinə iş yeri açmış və istehsalla məşğul olmağa başlamışlar. Qeyd edim ki, az vaxt keçməsinə baxmayaraq bütün sahələrdə ilkin nəticələr sevindiricidir. Aparılan monitorinqlər göstərir ki, vətəndaşlar aktivlərdən düzgün və səmərəli istifadə edir. Yerlərdə işlərin gedişi müsbət nəticələrlə müşahidə olunur".

**Quba şəhər sakini Validə Qəhrəmanova qədim xalçaçılıq sənətini davam etdirir:** Ailəmin 4 nəfər üzvü var. Həyat yoldaşım 1-ci qrup əlildir. Bir oğlum hərbi xidmətdə, biri isə işləmir. Uşaqlıqdan məşğul olduğum xalçaçılıq sənətində işləmək məqsədilə rayon Məşğulluq Mərkəzində təlimlərə yazıldım. Burada biznesə aid müəyyən bilik və vərdişlər qazandım. Xalçaçılıqla məşğul ola biləcəyim barədə əminlik yaratdım. Təlimlərdən müvəffəqiyyətlə keçib aktivlərə sahib oldum. Artıq 2-ci ildir ki, öz evimdə xalçaçılıqla məşğulam. Mənə 1 dəzgah, 10 kiloqram ip və digər lazımi avadanlıqlar verilmişdir. İşə həvəslə başlamışam. İndiyə kimi 5 ədəd balaca ölçüdə, 2 ədəd kresloüstü, 1 ədəd iri süjetli "Dörd fəsil" xalçası toxumuşam. Hazırda məşhur "Ağgül" Quba xalçasını toxuyuram. İşimdən çox razıyam. Yanımda xalçaçı şagirdlər yetişdirərək bu işi genişləndirmək fikrindəyəm. İstehsal etdiyimiz xalçaların satışı üçün şəhərimizdəki "ASAN xidmət"in Abad mərkəzinə də müraciət etmişəm.

Şirniyyat ustası Murad Quliyev deyir ki, paxlava bişirib satmaq ailəmizin ənənəvi məşğuliyyətidir. Ailədə, demək olar ki, bu işi hamımız bacarırıq. Lakin avadanlığımız olmadığından çox primitiv şəkildə ara-sıra işləyirdik. 2 il bundan əvvəl Məşğulluq Mərkəzinə gedib təlimlərə qoşuldum. Təlimlərdə fəal iştirak edib uğur qazandım. Biznes planımı və əl qabiliyyətimi yoxlayandan sonra mənə paxlava bişirmək üçün 2 ədəd peç, mis sini və digər avadanlıqlar verildi. Aktivləri alıb ailəliklə işə başladıq. Evdə kiçik sex düzəltmişik. Artıq işsizliyin daşını atmış, hamılıqla köməkləşib paxlava bişirib satırıq. Burada 4 nəfər çalışır. Hər gün bir neçə sini paxlava və bükmə bişirib satırıq. Keyfiyyətə fikir verdiyimizdən daimi müştərilərimiz var. Yaxın gələcəkdə şəhərimizin münasib bir yerində ayrıca paxlava sexi açmaq fikrindəyik. Sifarişlər də qəbul edirik. Fürsətdən istifadə edib bizə bu şəraiti yaratdığına görə dövlətimizin başçısına ailəmiz adından dərin təşəkkürümüzü bildiririk.

Özünüməşğulluq təlimlərində uğur qazanan Digah kəndindən olan Elnur Tahirov qoyunçuluğu inkişaf etdirir. Deyir ki, təsərrüfatın bu sahəsi ilə çoxdan məşğul olmaq fikrində idim. Lakin əlimdə heç bir vəsaitim yox idi. Özünüməşğulluq təlimlərinə qoşulub müəyyən qədər təcrübə, bilik qazandım. Təlimlərdə uğurlu nəticələrə görə mənə 28 baş yanı balalı qoyun verdilər. Artıq 1 ildir ki, kiçik qoyunçuluq təsərrüfatı ilə məşğulam. Bir il ərzində 18 baş ana qoyunun hər birindən 1 baş salamat bala alaraq qoyunların sayını 18 baş artırmışam. Xeyirli sahədir. Həm də mənim üçün iş yeridir. Ailəmiz indi buradan dolanır. Təsərrüfatımı daha da genişləndirmək fikrindəyəm.

Təlimlərin növbəti mərhələsində uğur qazananlardan biri də Küpçal kənd sakini İmran Ramazanovdur. İmran deyir ki, ailəmin mülkiyyətində 4 hektar torpaq sahəsi var. Dəmyə şəraitində olduğundan bu torpaqdan az mənfəət götürürəm. Ailəmlə qərara almışıq ki, şəxsi təsərrüfatımızda heyvandarlığı inkişaf etdirək. 10 başlıq tövlə binası da tikmişik. Amma heyvanımız yoxdur. Məşğulluq Mərkəzinə müraciət edib təlimlərdə iştirak etdim. Burada şəxsi təsərrüfatda heyvandarlığın inkişaf etdirilməsi ilə bağlı yeni biliklər əldə etmişəm. Maldarlıqla əsasən südçülük istiqamətində məşğul olmaq istəyirəm. Mərkəzə iki balalı inək almaq barədə müraciət etmişəm. Yəqin ki, bu yaxınlarda müraciətim öz müsbət həllini tapacaqdır. Heyvandarlıqla məşğul olmaqla mən ailəmi dolandıra biləcək, həm də özümə iş yeri qazanacağam.





Mərkəzdə çalışan **Beynəlxalq Əmək Təkilatının təlimçisi Ceyhun Ağabəyov** deyir ki, bu il təlimlərə qatılanların sayı 156 nəfərdir. Beş qrupda təlimlər yenicə başa çatıb. İştirakçılar arasından təlimlərdə müvəffəqiyyət qazanan, biznes planlarını düzgün tərtib edən və gələcək iş yerində çalışmaq üçün bizdə əminlik yaradan 120 nəfər seçiləcəkdir. Onlar öz istəklərinə uyğun istehsal sahələrində məşğul olacaqlar. 100 nəfər sırf kənd təsərrüfatı - heyvandarlıq və arıçılıqla məşğul olacaqdır. 20 nəfər isə istehsal və xidmət sahələrində çalışacaqlar. Onların arasında turizm ilə məşğul olmaq, gözəllik salonu, avtotəmir, şirniyyat və dülgər sexləri açmaq arzusunda olanlar vardır. Qeyd edim ki, yerli məşğulluq proqramına uyğun olaraq, gələn il də seçim və təlim kursları davam edəcəkdir. Təlimlərdə 200 nəfərin iştirakı nəzərdə tutulub.

**Ziyafəddin BAYRAMOV,**
**"Respublika".**


## Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi

## AÇIQ TENDER

2019-cu il üçün "ASAN xidmət" mərkəzlərində və səyyar xidmət nəqliyyat vasitələrində gündəlik təmizlik işlərinin görülməsi.

**Tender 15 lot üzrə keçirilir:**

**Lot 1** - Agentliyin aparatı və 1 saylı Bakı "ASAN xidmət" mərkəzində və səyyar xidmət nəqliyyat vasitələrində gündəlik təmizlik işlərinin görülməsi.

**Lot 2** - 2 saylı Bakı "ASAN xidmət" mərkəzində gündəlik təmizlik işlərinin görülməsi.

**Lot 3** - 3 saylı Bakı "ASAN xidmət" mərkəzində gündəlik təmizlik işlərinin görülməsi.

**Lot 4** - 4 saylı Bakı "ASAN xidmət" mərkəzində gündəlik təmizlik işlərinin görülməsi.

**Lot 5** - 5 saylı Bakı "ASAN xidmət" mərkəzində və səyyar xidmət nəqliyyat vasitələrində gündəlik təmizlik işlərinin görülməsi.

**Lot 6** - Sumqayıt regional "ASAN xidmət" mərkəzində və səyyar xidmət nəqliyyat vasitələrində gündəlik təmizlik işlərinin görülməsi.

**Lot 7** - Gəncə regional "ASAN xidmət" mərkəzində və səyyar xidmət nəqliyyat vasitələrində gündəlik təmizlik işlərinin görülməsi.

**Lot 8** - Sabirabad regional "ASAN xidmət" mərkəzində və səyyar xidmət nəqliyyat vasitələrində gündəlik təmizlik işlərinin görülməsi.

**Lot 9** - Bərdə regional "ASAN xidmət" mərkəzində və səyyar xidmət nəqliyyat vasitələrində gündəlik təmizlik işlərinin görülməsi.

**Lot 10** - Masallı regional "ASAN xidmət" mərkəzində və səyyar xidmət nəqliyyat vasitələrində gündəlik təmizlik işlərinin görülməsi.

**Lot 11** - Qəbələ regional "ASAN xidmət" mərkəzində və səyyar xidmət nəqliyyat vasitələrində gündəlik təmizlik işlərinin görülməsi.

**Lot 12** - Mingəçevir regional "ASAN xidmət" mərkəzində və səyyar xidmət nəqliyyat vasitələrində gündəlik təmizlik işlərinin görülməsi.

**Lot 13** - Quba regional "ASAN xidmət" mərkəzində və səyyar xidmət nəqliyyat vasitələrində gündəlik təmizlik işlərinin görülməsi.

**Lot 14** - İmişli regional "ASAN xidmət" mərkəzində gündəlik təmizlik işlərinin görülməsi.

**Lot 15** - Şəki regional "ASAN xidmət" mərkəzində gündəlik təmizlik işlərinin görülməsi.

Tenderdə iştirak etmək istəyənlər aşağıdakı məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu Akademik Həsən Əliyev 36 ünvanından ala bilərlər.

**Əlaqələndirici şəxs: Səfərov Kamal Səfər oğlu**
**Telefon: 444 74 44 (2453)**
**İştirak haqqı:**
**Lot 1 - 500 manat**
**Lot 2 - 500 manat**
**Lot 3 - 500 manat**
**Lot 4 - 500 manat**
**Lot 5 - 500 manat**
**Lot 6 - 400 manat**
**Lot 7 - 400 manat**
**Lot 8 - 400 manat**
**Lot 9 - 400 manat**
**Lot 10 - 400 manat**
**Lot 11 - 400 manat**
**Lot 12 - 400 manat**
**Lot 13 - 400 manat**
**Lot 14 - 400 manat**
**Lot 15 - 400 manat**
*Hesab: AZ20CTRE00000000000004878570*
*VÖEN: 1701393691*
*Bank: Dövlət Xəzinədarlıq Agentliyi*
*Kodu: 210005*
*VÖEN: 1401555071*
*M/H: AZ41NABZ01360100000000003944*
*S.W.İ.F.T: CTREAZ 22*

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

*1. Tenderdə iştirak etmək üçün yazılı müraciət;*
*2. Tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
*3. Tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
*4. Tender təklifi dəyərinin 2 %-i həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır);*
*5. Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqandan arayış;*
*6. İddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
*7. İddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
*8. İddiaçının tam adı hüquqi statusu, nizamnaməsi qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
*9. İddiaçılar müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatları;*
*10. Digər sənədlər: İddiaçının analoji işlərdə təcrübəsi, potensial texniki və kadr imkanları haqqında rəsmi məlumatı.*

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildə olan tender təklifləri Azərbaycan dilinə tərcümə olunmalıdır). Tender iştirakçılarına təklif edilir ki, öz tender təkliflərini möhürlənmiş, imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər. Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlarına malik olmalıdırlar.

Tender proseduru "Dövlət satınalmaları haqqında" qanuna uyğun keçiriləcəkdir.

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) 16.11.2018 17:00 tarixinə qədər, tender təklifi və bank təminatını isə möhürlənmiş ikiqat zərfdə 23.11.2018 17:00 tarixinə Akademik Həsən Əliyev 36 ünvanına təqdim etməlidirlər. Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır.

İddiaçıların təklifləri 26.11.2018 15:00 tarixində Akademik Həsən Əliyev 36 ünvanında açılacaqdır. İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

**TENDER KOMİSSİYASI.**


# Binə qəsəbəsində yük qatarı ilə sərnişin avtobusunun toqquşması ilə əlaqədar iki nəfər həbs olunub

**Oktyabrın 1-də saat 14:30 radələrində paytaxtın Xəzər rayonunun Binə qəsəbəsində qorunan dəmir yolu keçidində yük qatarı ilə Şirəliyev Əlixan Əlibala oğlunun 160 nömrəli marşrut üzrə idarə etdiyi "Ayşən LTD" MMC-yə məxsus "Daewoo" markalı 10-TG-106 dövlət qeydiyyat nişanlı sərnişin avtobusunun toqquşması nəticəsində 2006-cı il təvəllüdlü Dadaşzadə Yusif Tahir oğlu və 1962-ci il təvəllüdlü Əliyev Şakir Pənah oğlu vəfat edib, 40 sərnişin isə müxtəlif dərəcəli bədən xəsarətləri alıb.**

Bakı Şəhər Prokurorluğunun AZƏRTAC-a daxil olan məlumatında bildirilir ki, fakta görə Dəmir Yolu Nəqliyyatında Polis İdarəsinin istintaq bölməsində Cinayət Məcəlləsinin 263.3-cü (Yol hərəkəti və nəqliyyat vasitələrinin istismarı qaydalarını pozma ehtiyatsızlıqdan iki və daha çox şəxsin ölümünə səbəb olduqda) maddəsi ilə cinayət işi başlanıb.

Hadisə yerinə baxış keçirilib, müvafiq ekspertizalar, o cümlədən məhkəmə-tibbi, məhkəmə-narkoloji, məhkəmə yol nəqliyyat hadisələri ekspertizaları təyin edilib, şahidlərin ifadələri alınıb və digər zəruri istintaq hərəkətləri yerinə yetirilib.

Ə.Şirəliyev iş üzrə təqsirləndirilən şəxs qismində cəlb edilərək ona Cinayət Məcəlləsinin qeyd edilən maddəsi ilə ittiham elan edilib və barəsində məhkəmənin qərarı ilə həbs qətimkan tədbiri seçilib.

İstintaqla, həmçinin qəzaya səbəb olan sürücünün hadisə baş verən gün tibbi müayinədən keçirilmədən reysə buraxılması müəyyənləşdirildiyindən "Ayşən LTD" MMC-də dispetçer işləyən Fərəcov Mübariz Kərim oğlu Cinayət Məcəlləsinin 265-1.3-cü (ümumi istifadədə olan nəqliyyat vasitəsinin istismara verilməsi qaydalarının pozulması, ehtiyatsızlıqdan iki və ya daha çox şəxsin ölümünə səbəb olduqda) maddəsi ilə təqsirləndirilən şəxs qismində cəlb edilərək ona Cinayət Məcəlləsinin qeyd edilən maddəsi ilə ittiham elan edilmiş və barəsində məhkəmənin qərarı ilə həbs qətimkan tədbiri seçilib.

Hazırda cinayət işi üzrə istintaq tədbirləri davam etdirilir.

**AZƏRTAC**


Əlibalayev Elxan Əlikram oğlunun adına Hüquqların Dövlət Qeydiyyatı haqqında Daşınmaz Əmlakın Dövlət Reyestri tərəfindən verilən RX 1030900 Çıxarış itdiyi üçün etibarsız sayılır (ünvan: Bakı şəhəri, Abşeron r-nu, Qobu qəsəbəsi, Natavan küç., ev-102).



Baş redaktor
Teymur ƏHMƏDOV

● Redaksiyanın telefonları:

İqtisadiyyat və islahatlar redaksiyası: 539-95-51;
Siyasət, ictimai problemlər və analitik təhlil redaksiyası: 538-55-20;
Beynəlxalq əlaqələr, dövlət quruculuğu və hüquq redaksiyası: 539-26-18;
Humanitar siyasət redaksiyası: 538-25-70;
Xəbərlər redaksiyası: 538-61-02;
İctimai rəy və sosial problemlər redaksiyası: 539-95-51; 538-43-41 tel/faks;
Qəbul otağı: 538-25-70;
Katiblik: 538-25-70;
Reklam və elan xidməti: 441-20-23.





● Redaksiyanın ünvanı:

AZ1073, Bakı
Mətbuat prospekti, 529-cu məhəllə, VII mərtəbə.
E-mail: resp@azdata.net
www.respublica-news.az

*"Respublika" qəzetinin kompyuter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan" nəşriyyatında ofset üsulu ilə çap olunmuşdur.*
Qeydiyyat № 7.

İndeks 0240
Tiraj 4292
Sifariş 023
Qəzetin satış qiyməti 40 qəpik

Məsul növbətçi
İlham PƏNAHOV

● Çapa imzalanmışdır
06.10.2018